AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**Gülnaz Arif qızı Əmrahova**

# CƏFƏR CABBARLI HEKAYƏLƏRİNİN TƏDRİSİ

**İxtisaslaşma: HSM- 060101 Azərbaycan dili və ədəbiyyatı müəllimliyi-Azərbaycan dili və ədəiyyatının tədrisi metodikası və metodologiyası**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**DİSSERTASİYA**

ELMİ RƏHBƏR: f.d.: E.Ə.MUSTAFAYEVA

BAKI- 2015

# MÜNDƏRİCAT

GİRİŞ.......................................................................................................3

I FƏSİL. C.CABBARLININ “MƏNSUR VƏ SİTARƏ” HEKAYƏSİNİN FƏAL/İNTERAKTİV TƏLİM ÜSULLARI İLƏ TƏDRİSİ..................................9

II FƏSİL. C.CABBARLININ “MÜFƏTTİŞ”, “ ASLAN VƏ FƏRHAD”, “ÇOÇUQ” HEKAYƏLƏRİNİN TƏDRİSİNDƏ FƏAL TƏLİM TEXNOLOGİYALARININ TƏTBİQİ...................................................31

III FƏSİL. C.CABBARLI HEKAYƏLƏRİNDƏ QADIN AZADLIĞI-EMANSİPASİYA MƏSƏLƏSİ “DİLBƏR” HEKAYƏSİNİN TƏDRİSİ.......................................................................................53

NƏTİCƏ.......................................................................................................72

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT...............................................................77

# GİRİŞ

***Mövzunun aktuallığı:*** Ümumiyyətlə, ədəbiyyat bütün dövrlərdə ictimai proseslərin inikasıdır. Cəmiyyətdəki problemlər artdıqca, ziddiyyətlər kəskinləşdikcə ədəbiyyatın siyasi-ictimai proseslərə müdaxiləsi də dərinləşir, ən ağrılı və həssas məqamlar ədəbiyyatın mövzusuna çevrilir. Beləliklə, sənətkarların yaradıcılıqlarında təsvir etdikləri obrazlar da yaşayıb-yaratdığı dövrün dinini, əxlaqını, tarixini, siyasi proseslərini, təhsilini və müxtəlif cəhətləri əks etdirir. Cəfər Cabbarlı yaradıcılığını da zəngin edən yaşadığı dövr idi. C.Cabbarlı məhz orijinallığı , yüksək bədii ustalığı, çox şaxəli yaradıcılıq üslubu ilə seçilən sənətkarlardan biridir. Onun əsərləri əks etdirdiyi hadisələrin ictimai fəlsəfi, psixoloji mahiyyətinə, xarakterinə görə milli həyatımızın geniş bir dövrünü əks etdirir. Ədib yaradıcılığında ictimai həyatın naqisliklərini tənqid etməklə oxucu və tamaşaçıların diqqətini həlli vacib olan məsələyə yönəldir. Dahi sənətkar mövzu seçərkən dövrünün böyük ictimai-siyasi əhəmiyyətə malik problemlərə ilk növbədə diqqət edirdi. O, bu problemlərin həlli yollarını arayır, axtarır, onları əsərlərində çözməyə çalışırdı. Bu baxımdan C.Cabbarlının yaradıcılığı mövzu etibarilə rəngarəngdir. Ədib yaxşı başa düşürdü ki, cəmiyyətin yazıçı qarşısına qoyduğu tələblər, onların təsviri ilk növbədə düzgün mövzu seçimi ilə bağlıdır. Bununla bağlı C.C abbarlı yazırdı: “ Hər bir yazıçı və dramaturqun ən böyük məziyyətlərindən birisi onun mövzu seçməyi bacarmasıdır. Yazıçının seçdiyi mövzu ona ilham gətirməli, onun gördüklərini, duyduqlarını, dövrünün ondan tələb etdiklərini, başqalarının hələ müşahidə etmədiklərini və ya müşahidə edərək bu barədə danışa bilmədikləri şeyləri oxucuya söyləmək imkanı yaratmalıdır.” (27,s.51). Yaradıcılığı boyu yalnız təqdir etdiyi  hadisələri, insanlığa, əxlaqi-mənəvi dəyərlərə təsir edəcək ünsürləri əsərlərinə mövzu seçmişdir. Odur ki, dəyişkən ictimai-siyasi, qlobal hadisələr dövründə yaşayıb yaradan, dərin müşahidə qabiliyyətinə malik sənətkarlar dövrün nəbzini tutmağı bacarmalı, ictimai naqislikləri tənqid etməklə oxucu və tamaşacıların diqqətini həlli vacib olan problemlərə yönəltməlidir. Bu səbəbdəndir ki, C.Cabbarlının müraciət etdiyi

mövzular hər zaman aktuallığını qoruyan məsələlərdir. Mövzular içərisində dövrünün ictimai-siyasi probelmlərini, ailə-məişət problemlərini, təhsil, gənclərin tərbiyəsi, qadın hüquqları və s. bu kimi əhəmiyyətliləri qeyd edə bilərik. O, bu problemləri yalnız ifşa edib, nöqsanları göstərmir, eyni zamanda bunların həlli yollarını da axtarır. Cəfər Cabbarlı hələ yaradıcılığının ilk dövrlərindən emansipasiya-qadın azadlığı probleminə toxunmuş, əsərlərində rəngarəng qadın obrazları yaratmışdır. Bu obrazlar Azərbaycan qadınının aləmini, dərdini, psixologiyasını, həyatının bütün ziddiyyətlərini, hüquqsuzluğunu əks etdirir. Bir-birindən fərqli xasiyyətə, mənəviyyata, əxlaqa malik qadın obrazları onun yaradıcılığını daha da rəngarəng edirdi. Dahi sənətkar qadına daim yüksək qiymət vermiş, onun ağrı-acısını, hüquqsuzluğunu, taleyini daim diqqət mərkəzində saxlamış, zaman keçdikcə onun həyatındakı dəyişiklikləri ön plana çəkmişdir. C.Cabbarlı bütün yaradıcılığı boyu Azərbaycan qadınının hüquqsuz vəziyyətini düşünmüşdür. Bu mövzuya ədəbiyyatımızda müxtəlif dövrlərdə müraciət olunub. Hələ XII əsrdə yaşayıb-yaradan Nizami Gəncəvi  yaradıcılığında qadın emansipasiyası məsələsinə rast gəlmək mümkündür. Böyük klassikimiz Füzuli və digər mütəfəkkirlərimiz qadın problemini bu və ya digər şəkildə işıqlandırmış ona, müxtəlif baxış bucaqlarından yanaşmışlar. Sonralar M.F.Axundzadə  mərd, qorxmaz, cəsarətli qadın obrazları yaratmış, C.Məmmədquluzadə “Molla Nəsrəddin”in səhifələrində bu məsələni işıqlandırmış, ədəbiyyatımızda, mədəniyyətimizdə qadın emansipasiyası həllini gözləyən problemə çevrilmişdir. Eyni zamanda, qadının inkişafına mane olan qüvvələri də kəskin tənqid atəşinə tutmuşdur. Yazıçı qadının oyanmasını qəbul etmək istəməyən cəmiyyətin ifşasını özünə borc bilmiş, qadını maarifə, təhsilə səsləmişdir. Azərbaycan mədəniyyətinin, teatrının tərəqqisi üçün çalışan sənətkar Azərbaycan qadınlarının maarif, təhsil sahəsində, teatr, kino səhnəsində fəal iştirakını arzulayırdı.O. cəmiyyətdəki bütün bəlaların səbəbini nadanlıq, cahillik olduğunu hesab edirdi. Bu bəlalardan qurtuluş yolunu isə elmə, təhsilə yiyələnməkdə görürdü.

Cəfər Cabbarlının bütün əsərlərində əsas mübarizə iki qüvvə arasında baş verir. Onları asanlıqla iki qrupa bölmək olur. Bir tərəfdə tamahkar, pulpərəst, xudbin, nankor, cahil və zalım adamlar, digər tərəfdə isə namuslu, zəhmətsevən, ağıllı, mərifətli və insaflı adamlar durur. Ağ və qara boyalarla təsvir edilən bu qəhrəmanlar müəllifin qayə və amalını aydın göstərir. Cəmiyyətdəki haqsızlıqlara soyuqqanlı baxa bilməyən yazıçı öz həyəcanını, nifrətini ifadə etməyə çalışır, əsərlərində ədalətsizliyi tənqid edirdi. Sadə, namuslu adamlara böyük çətinliklərə sinə gərməyi, zülmə boyun əyməməyi aşılayırdı. Cəfər Cabbarlı bədbin deyildi. O, xeyirxah adamların xain, zalım adamlardan çox olduğuna inanırdı.

Sovet dövründə C.Cabbarlının əsərləri, xüsusən dramaturgiyasının təhlilində müəllifin mövqeyi, məramı, əsərlərinin alt qatındakı dərin məna üzə çıxarılmamış, ideyası açılmamışdır. Bu zəngin yaradıcılığa məxsus ədibin mirası dar sosializm çərçivəsinə sığmırdı. Günümüzdə bu əsərlər bu cəhətdən daha da önəm qazanır. Müstəqillik dövründə ədəbi tənqid bu qiymətli əsərlərə yenidən müraciət etməli olmuş, onun əsərləri hərtərəfli və obyektiv təhlil obyektinə çevrilmişdir.

Cəfər Cabbarlının yaradıcılığı ədəbiyyatımızda yeni mərhələdir. Böyük sənətkarın yaradıcılığı müxtəlif tədqiqatların obyekti olmuşdur. Onun yaradıcılığı müxtəlif cərəyanları əks etdirir. Sentimentalizmdə belə cərəyanlardan biridir. C.Cabbarlının yaradıcılığında "Vəfalı Səriyyə, yaxud göz yaşı içində gülüş"(1915), "Solğun çiçəklər" pyeslərində, "Aslan və Fərhad", "Mənsur və Sitarə", "Əhməd və Qumru", "Gülzar" hekayələrində sentimentalizm ünsürlərini görmək olar. Bu hekayələrdən "Aslan və Fərhad", "Mənsur və Sitarə" də hadisələr məhəbbət xətti üzərində qurulmuşdur. Hər cür əzaba qatlaşıb qardaşı Fərhadı böyüdən savadlandıran Aslanın saflığı müqabilində xəyanət görməsi, sevgilisi Mənsuru atıb sərvəti bol Həsənlə ailə quran Sitarənin hərəkətləri burjua cəmiyyətinin iç üzünü açmağa xidmət edir. Hər iki hekayədə qəhrəmanlar öz hərəkətlərinə görə peşman olur. Günahsız qurbanların ardınca Fərhad öldüyü kimi, Sitarə də intihara əl atır.Yazıçı bu hekayələrdə Aslan, bacısı Züleyxa, Mənsur surətlərini yaratmaqla

onların təmiz hissiyyatını diqqət mərkəzində saxlayır, həmçinin Fərhad və Sitarənin keçirdiyi narahat ovqatı, sarsıntıları sənətkarlıqla canlandırır.

***Problemin öyənilmə dərəcəsi:*** Cəfər Cabbarlının yaradıcılığı müxtəlif dövrlərdə tədqiqat obyekti olub. XX əsrin 50-ci illərində M.Arifin " Cəfər Cabbarlı" adlı monoqrafiyası onun yaradıcılığına həsr olunan sanballı əsərlərdən biridir. R.Əliyev "C. Cabbarlı yaradıcılğı təkamülü: metod, üslub, janr", R.Əhmədov "Azərbaycan dram janrı poetikası H.Cavid, C.Cabbarlı, S.Vurğun pyesləri əsasında", A.Rüstəmli "Cəfər Cabbarlı ədəbi-mədəni mühit" adlı doktorluq dissertasiyalarında böyük sənətkarın yaradıcılığı geniş şəkildə tədqiq olunur. Bundan başqa bir çox xarici ölkələr ədəbiyyatı nümayəndələri ilə Cəfər Cabbarlı yaradıcılığı müqayisəli şəkildə öyrənilmişdir.

***Tədqiqatın məqsəd və vəzifələri:*** Tədqiqatın əsas məqsədi XX əsr Azərbaycan ədəbiyyatının görkəmli siması Cəfər Cabbarlının hekayələrində mövzu rəngarəngliyi, qadın azadlığı-emansipasiya, sentimentalizm, tədris məsələlərini araşdırmaqdır.

Bu məqsədə nail olmaq üçün dissertasiyada aşağıdakı məsələlərin tətbiqi nəzərdə tutulub:

- XX əsr ictimai-siyasi proseslərin Cəfər Cabbarlı yaradıcılığına təsirini müəyyənləşdirmək;
- Cəfər Cabbarlının yaradıcılığında önəmli yeri tutan hekayələrinin mövzu, ideyasını aydınlaşdırmaq;
- XX əsrdə qadın azadlığı və bunun Cəfər Cabbarlı yaradıcılığına təsirini müəyyənləşdirmək;
- Cəfər Cabbarlı hekayələrində sentimentalizm cərəyanının ünsürlərini aşkarlamaq;

- “ Mənsur və Sitarə”, “Müfəttiş”,”Aslan və Fərhad”, “Çocuq”, “Dilbər” hekayələrinin tədrisini fəal interaktiv üsullarla vermək.

***Tədqiqat işinin nəzəri və metodoloji bazası:*** Tədqiqat işində Cəfər Cabbarlının həyat və yaradıcılığına həsr olunan kitab, məqalə və monoqrafiyalardan istifadə edilmişdir. Metodika sahəsinə aid nəşr olunan yeni kitablar, məqalələr, jurnallara istinad olunmuşdur. Disertasiya işinin nəzəri və metodoloji əsasını metodika, ədəbiyyat barədə görkəmli alim və şəxsiyyətlərin fikir və mülahizələri, təhsil haqqında qanun təşkil edir.

***Elmi yenilik:*** Dissertasiya işinin elmi yeniliyi ondan ibarətdir ki, burada Cəfər Cabbarlı hekayələrinin fəal təlim üsulları ilə tədrisi, hekayələrində sentimentalizm məsələsi ilk dəfə magistrlik dissertasiyası tələbləri səviyyəsində sistemli bir şəkildə, müəyyən ardıcıllıqla araşdırılmış və dəyərləndirilmişdir.

***Dissertasiyanın elmi və praktik əhəmiyyəti:*** Cəfər Cabbarlının hekayələrinin ilk dəfə fəal-təlim üsulları ilə tədrisi araşdırılmışdır. Hekayələrin tədrisində yeni təlim texnologiyaları tətbiq edilmişdir.

Dissertasiyadan ali və orta ixtisas təhsili məktəblərində müəllimlər vəsait kimi istifadə edə bilər.

***Tədqiqat işinin aprobasiyası:*** Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Azərbaycan dili və ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın başlıca nəticə və yekunları elmi jurnallarda müxtəlif məqalələr şəklində dərc olunmuşdur.

***Tədqiqat işinin sturukturu:*** təqdim olunmuş dissertasiya giriş, üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

Tədqiqat işinin birinci fəsli “Cəfər Cabbarlı hekayələrində sentimentalizm və “Mənsur və Sitarə” hekayəsinin tədrisi” adlanır. Bu fəsildə fəal\interaktiv təlim üsullarının şərhi, yeni təlim texnologiyaların ədəbiyyat dərslərində tətbiqi məsələsi də müəyyənləşdirilir. Həmçinin, ənənəvi təlim ilə fəal təlimin fərqləri, oxşar cəhətləri ümumiləşdirilir. Fəal\təlim üsulları “Mənsur və Sitarə” hekayəsi üzərində

tətbiq edilir. Həmçinin sənətkarın yaradıcılığında sentimentalizmin araşdırılması də tədqiqatın məqsədlərindən biridir.

Tədqiqat işinin " Cəfər Cabbarlının "Müfəttiş","Aslan və Fərhad", "Çocuq" hekayələrinin tədrisində fəal təlim texnologiyalarının tətbiqi" adlı ikinci fəslində yazıçının hekayələrində yer verdiyi ictimai, siyasi, məişət problemlərinin səbəblərinin araşdırılması, obrazlar vasitəsilə müəllif qayəsinin aşkara çıxarılmasına çalışılmışdır. Burada yazıçının Müfəttiş", "Çocuq", "Qara Qənbər", "Parapetdən Şamaxı yoluna qədər", "Altun heykəl" , "Əhməd və Qumru" ,"Papaq", "Aslan və Fərhad" hekayələri təhlil edilir. "Müfəttiş","Aslan və Fərhad", "Çocuq" hekayələrinin fəal təlim üsulları ilə tədrisinə yer verilir.

Dissertasiyanın üçüncü fəsli "Cəfər Cabbarlı hekayələrində qadın azadlığı-emansipasiya məsələsi və "Dilbər" hekayəsinin fəal təlim üsulları ilə tədrisi" adlanır. Burada C.Cabbarlı hekayələrində qadın obrazları təhlili edilir,qadın obrazlarının oxşar və fərqli xüsusiyyətlərin aşkarlanır, cəmiyyətdəki problemlərin ifşası qadın obrazları vasitəsilə müəyyənləşdirilir. Bu fəsildə yazıçının "Gülzar", "Dilbər" , "Dilarə" ,"Aslan və Fərhad" , "Firuzə" hekayələrindəki qadın obrazları təhlilə cəlb edilir. Cəmiyyətdəki ictimai, siyasi, məişət problemləri qadın obrazları vasitəsilə aydınlaşdırılır.

Nəticədə əldə olunan qənaətlər ümumiləşdirilmişdir.

Tədqiqat işinin sonunda istifadə edilən ədəbiyyat siyahısı verilmişdir.

# I FƏSİL
# CƏFƏR CABBARLI HEKAYƏLƏRİNDƏ SENTİMENTALİZM VƏ "MƏNSUR VƏ SİTARƏ" HEKAYƏSİNİN TƏDRİSİ

Sentimentalizm XVIII əsrin ikinci yarısında Qərbi Avropada yaranan ədəbi cərəyandır. "Sentiment" fransız sözü olub, mənası "hissiyyat" deməkdir. Bu cərəyanın əsas xüsusiyyətlərindən biri də insanların təbii hisslərini ədəbiyyata gətirməklə insanların bərabərliyi ideyalarını göstərirdilər. Sentimentalistlər insan psixologiyasını, fərdi hisslərinin, duyğularının mübaliğəli təsvirinə üstünlük verirdilər. Klassisistlər yüksək janrlarda cəmiyyətin daha yüksək təbəqələrini təsvir edirdilərsə, sentimentalistlər adi adamları onların gündəlik həyatlarının zəminində təsvirinə üstünlük verirdilər. Bu zaman insanın şəxsi həyatı, fərdi, psixoloji aləmi təhkiyənin mərkəzinə gətirilir. Sentimentalistlər öz qəhrəmanlarını klassisistlərin əksinə olaraq yüksək təbəqədən deyil, əhalinin orta təbəqəsindən, feodal-patriarxal zülmündən əziyyət çəkən, əzilən, alçaldılan təbəqələr, kəndlilər, məsum insanlar içərisindən seçirdilər. Sentimentalistlər cəmiyyətin bütün siniflərinə, təbəqələrinə rəğbətlə, həssaslıqla yanaşırdılar. Onlar yaşadıqları cəmiyyət daxilində öz qəhrəmanlarını axtarır, yaradıcılıq metodlarına uyğun tiplər yaradırdılar. Bunu da qeyd etmək lazımdır ki, sentimentalist yazıçılar insanın əqlcə yox ,təbii hissləri yolu ilə kamilləşməsinə inanırdılar. Beləliklə mənəviyyatca zəngin, daxili aləmi ilə əlvan obrazlar yaranırdı. Bütün bunları nəzərə alaraq, Azərbaycan ədəbiyyatında sentimentalizmdən danışsaq bunu qeyd etməliyik ki, bu cərəyanın varlığına dair yekdil fikir yoxdur. Beləki, bu cərəyan başqa ədəbi cərəyanlarla müqayisədə daha az öyrənilməsi də bununla bağlıdır. Ədəbiyyatşünaslar bu cərəyanın ümumiyyətlə ədəbiyyatımızda olmaması fikrini müdafiə edirlər. Bununla yanaşı bəzi sənətkarların yaradıcılığında özünü göstərən sentimental təsvirlərdən, hisslərdən danışırlar. "Maraqlıdır, əgər Azərbaycan ədəbiyyatında "sentimental inikas üsullarına üstünlük verən" , "sentimental əsər yaradan" yazıçılarımız olmuşdursa, onda bizim ədəbiyyatımızda sentimentalizmin yaranmasına, bunun ədəbi cərəyan kimi qəbul olunmasına mane olan nədir?

Bundan başqa prof. P.Xəlilov özü də “sentimental əsər yaradan” sənətkarlar sırasında A.Divanbəyoğlu, A.Şaiq, C.Cabbarlı kimi sənətkarların adlarını çəkir.Bəs onda görəsən, Azərbaycan ədəbiyyatında sentimentalizm cərəyanı anlayışını qəbul etməklə biz nəyə xələl gətirmiş olarıq? ”(4, 28)

B.Babazadə eyni zamanda “ Azərbaycan sentimentalizmi” kitabında qeyd edir ki: “ Nədənsə tədqiqatçılar C.Cabbarlı yaradıcılığından bəhs edərkən bu anlayışdan imtina və ehtiyyat edirlər. Hətta bəzi ədəbiyyatşünaslar C.Cabbarlı yaradıcılığında sentimentalizm məsələsindən söhbət düşəndə “ sentimentalizm yox, sentimentallıq var” deyərək etiraz edirlər. Qeyd etməliyik ki, ədibin yaradıcılığında sentimentallığın olmasını, hətta az olması fikrini qəbul etmək də nəzəri fikrimizdə uğurlu bir addım hesab olunmalıdır. Çünki bütün nəzəriyyəçi-ədəbiyyatşünasların qəbul etdikləri bir fikir əsasdır ki, müxtəlif cərəyanların əmələ gəlməsində bədii üslubların, inikas tiplərinin rolu əsas olmuşdur. Odur ki, realist və romantik inikas tipləri ədəbi inkişafın daha sonrakı dövrlərində realizm və romantizmin yaranması üçün əsas olmuşdur. Bu baxımdan yanaşsaq, görərik ki, sentimentalizmin nəzəriyyəçiləri özləri də qeyd edirlər ki, ədəbiyyatda sentimental meyllər, üslublar qədim və ən qədim ədəbiyyatda da mövcud olmuşdur.”(4,78) Yeri gəlmişkən bunu da qeyd edək ki, Timuçin Əfəndiyev bu haqda belə yazır: “... bəlkə də Azərbaycan ədəbiyyatında sentimentalizmin qaynaqlarını orta əsrlər poeziyasında – M.Füzulinin, Ş.Xətayinin, Qurbaninin, Sarı Aşıqın, hətta ilkin realizmin banisi M.P.Vaqifdə, Vidadi və Nəbatidə axtarmaq doğru olardı. Onların qəlb göynədən lirikası ilə sentimental povest, xatirə və dram arasında nə qədər oxşar cəhətlər var.”(7, 411) Sentimental əsərin ən yaxşı nümunələrindən biri də A.Divanbəyoğlunun “Can yanğısı” povestidir. Müəllifin kəndi şəhərə qarşı qoyması, kəndlinin mənəvi, əxlaqi təmizliyini şəhər pozğunluğu ilə müqayisəsi sentimentallığa işarədir.Təkcə bu yox, təbiətin hissi coşğunluqla əlaqəsini, insanıncəmiyyətdən qaçıb təbiətə üz tutması, qəhrəmanın xarakterini və s. misal göstərmək olar. Bununla yanaşı Abdulla Şaiqin yarımçıq qalmış “Vicdan və əzab” romanında sentimentalizm özünü aydın göstərir. Lakin onlar həmişə romantik

ədəbiyyatın nümayəndələri kimi təqdim olunurlar. Bütün bunlara əsasən bunu deyə bilərik ki, Sentimentalizm Azərbaycan ədəbiyyatında təsadüfi hadisə deyil.

Sentimentalizmin ideya-fəlsəfi əsasını insana ,təbiətə, cəmiyyətə sensualist baxış təşkil edir. Sentimentalizmə görə insanın iç aləminin, qəlbinin dialektikasınının, onun hiss və duyğularının açılmasına meyl daha güclüdür.Bu baxımdan yanaşsaq insan qəlbinin təsvirinə, şəxsi taleyinə, fərdi aləminə həssaslıq göstərilməsi onun psixoloji aləminin açılması Azərbaycan yazıçı və şairlərinin əsərlərində həmişə əsas yer tutmuşdur. Düzdür, sentimentalizm Azərbaycan ədəbiyyatında realizm və romantizm kimi böyük bir dövrü əks etdirmir, ardıcıl surətdə inkişaf edən sistemli bir cərəyan olmamışdır. Lakin bu elmi həqiqətdir ki, Azərbaycan ədəbiyyatında sentimentalizmin üslub və pafos, daha geniş anlamda ədəbi cərəyandır.

Sentimentalizm haqqında bütün araşdırmalarda maarifçiliklə müqayisə edilmiş, müştərək və fərqli cəhətlərə toxunulmuşdur. Bilirik ki, maarifçilər üçün zəka, ağıl , idrak hər şeyin təyinedicisidir. Onlar cəmiyyəti maarif, elm, idrak, ağıl vasitəsilə inkişafını irəli sürürdülər. Onlar xeyirli, sağlam cəmiyyətin yolunu bunda görürdülər. Bu nöqtədə sentimentalistlər ilə maarifçilərin dünyagörüşündəki fərqlər aydın seçilir. Çünkü, sentimentalistlər insanın ağıl və zəkasının əksinə olaraq, onun hisslərinin, duyğularının təsvir və tərənnümünə üstünlük verirdilər. Digər bir tərəfdən sentimentalistlər insanı onun yaşadığı mühitlə,cəmiyyətin qlobal hadisələri ilə birgə təsvir etmirdilər. Onlar hər bir inasana fərdi yanaşmaqla onun daxili aləminin, şəxsi həyatının açılmasına çalışırdılar. Bu o demək deyil ki, sentimentalistlər insanı cəmiyyətdən təcrid edirdilər. Sadəcə onları cəmiyyət həyatı yox, ayrı-ayrı insanların fərdi taleyi maraqlandırırdı.Yəni maarifçilərdən fərqli olaraq, insanı ictimai planda yox ,təbii mahiyyətdə verirdilər. Sentimentalist yazıçılar maarifçilik ənənələrini də davam etdirir, sadə xalqa simpatiya bəsləyir, burjuaziyanın ürəksizliyini tənqid edirdilər. C.Cabbarlının yaradıcılığında da həm maarifçiilik, həm də sentimentalizmin vəhdətini görürük.

Cəfər Cabbarlının yaradıcılığı ədəbiyyatımızda yeni mərhələdir. Böyük sənətkarın yaradıcılığı müxtəlif tədqiqatların obyekti olmuşdur. Onun yaradıcılığı müxtəlif

cərəyanları əks etdirir. Tədqiqatçılar onun yaradıcılığında sentimentalizm ünsürlərini ilk görən akad. M.Arifi qeyd edirlər. O, yazırdı: "Cabbarlının ilk hekayə və pyeslərindəki sentimentalizm təsirləri də bu əhval-ruhiyyə ilə əlaqədardır. "Gərdişi-gəcmədarın" qurbanı olan məzlumların halına heyfslənmək, oxucularda rəhm və şəfqət oyatmaq, məzlumları zalimlərin pəncəsindən xilas etmək üçün dua etmək – bütün bu motivlər ədibin ilk əsərləri üçün xarakterikdir. İctimai ədalətsizliyin səbəbini dərk etməmək nəticəsində ədibin üslubunda bir mücərrəd şikayətçilik və nəsihətçilik nəzərə çarpır." (7, 398)

C.Cabbarlının yaradıcılığında "Vəfalı Səriyyə, yaxud göz yaşı içində gülüş"(1915), "Solğun çiçəklər" pyeslərində, "Aslan və Fərhad", "Mənsur və Sitarə", "Əhməd və Qumru", "Gülzar" hekayələrində sentimentalizm ünsürlərini görmək olar. Bu hekayələrdən "Aslan və Fərhad", "Mənsur və Sitarə" də hadisələr məhəbbət xətti üzərində qurulmuşdur. Hər cür əzaba qatlaşıb qardaşı Fərhadı böyüdən savadlandıran Aslanın saflığı müqabilində xəyanət görməsi, sevgilisi Mənsuru atıb sərvəti bol Həsənlə ailə quran Sitarənin hərəkətləri burjua cəmiyyətinin iç üzünü açmağa xidmət edir. Hər iki hekayədə qəhrəmanlar öz hərəkətlərinə görə peşman olur. Günahsız qurbanların ardınca Fərhad öldüyü kimi, Sitarə də intihara əl atır.Yazıçı bu hekayələrdə Aslan, bacısı Züleyxa, Mənsur surətlərini yaratmaqla onların təmiz hissiyyatını diqqət mərkəzində saxlayır, həmçinin Fərhad və Sitarənin keçirdiyi narahat ovqatı, sarsıntıları sənətkarlıqla canlandırır. C.Cabbarlının yaradıcılığında sentimentalizmdən bəhs olunan da "Vəfalı Səriyyə yaxud göz yaşı içində gülüş"(1915), "Solğun çiçəklər" (1917) pyeslərinin təhlilinə daha çox yer verilir. "Vəfalı Səriyyə" dramaturqun ilk qələm təcrübəsi olmasına baxmayaraq, əsərdə bir tərəfdən maarifçilik və digər tərəfdən romantik, sentimental ünsürlər özünü göstərir. Əsərin məzmunundan məlum olur ki, Səriyyə və Rüstəm bir-birini sevirlər. Lakin Səriyyənin anası Çimnaz qızını zorla dayısı oğluna ərə vermək istəyir. Beləliklə gənclərin həyatında pul, mal, dövlət kimi amillər əsas rol oynamış olur. Bu cəhətdən pyesin sentimental pafosu da güclənmiş olur. Bu sentimental pafos birinci növbədə özünü surətlərin fərdi

aləmində, əhval-ruhiyyəsində özünü göstərir. Əsərdə xarakterlərin kədərli əhvalının açılmasına xidmət edən monoloqlar dialoqlar da var. “Solğun çiçəklər” pyesi də ailə-məişət məsələlərindən bəhs edən sentimental ruhlu bir əsərdir. B.Babazadə əsərin sərlövhəsindən onun sentimental əsər olması fikrini ifadə edir. O yazır: “ “Vəfalı Səriyyə” əsərinin sərlövhəsində verilən “göz yaşı” ifadəsinin özü də pyesin sentimental istiqamətindən, pafosundan, xəbər verir. Eyni zamanda “Solğun çiçəklər” pyesinin sərlövhəsi əsərin sentimental pafosunun müəyyənləşməsində rəmzi- simvolik rol oynayır. Əgər “göz yaşı” məsum, günahsız Səriyyənin həyatının təyinedicisidirsə, “Solğun çiçəklər” də yeganə günahsız, talesiz Saranın solmuş, sönmüş, iztirablarla, əzablarla dolu taleyinə işarədir. Bu baxımdan, hər iki əsərin sərlövhəsi, simvolikası, obrazları və forma-məzmun xüsusiyyətləri tamamilə sentientalizmin estetikasına, nəzəri prinsiplərinə cavab vermiş olur”. (4, 84). Əsas tədqiqat obyektimiz olan “Mənsur və Sitarə” hekayəsinin mövzusu əvvəldə qeyd etdiyimiz kimi məhəbbət üzərində qurulmuşdur. Hekayənin əvvəlində yazıçı Aslanın bağını xoş sözlərlə tərif edir. Sentimentalizmdə təbiətin təsvirinin, insanın təbiətlə hisslərinin həmahəng olmasının bu cərəyanın əlamətləri olduğunu qeyd etmişdik. Yazıçı hekayənin əvvəlində Sitarənin gözəlliyi, gənclik təravəti ilə bağçanın zərifliyini böyük sənətkarlıqla vəhdətdə göstərmişdir. Yazıçı bu gözəlliyi təsvir etməkdə qələmin aciz olduğunu deyir. Hekayənin sonunda isə Sitarənin pərişan halını da təsvir etmək üçün təbiətlə müqayisə də verir: “ Odur, Ay çıxıb, Sitarə olan yeri işıqlandırdı. Baxın, hələ iki il bundan qabaq zəriflikdə gül ilə rəqabət edən yanaqlar nə hala düşmüş? Payız yarpaqları kimi sarımtıl bir rəng çalır. Xəzan yeli solduran bir yarpaq kimi solmuş. Baxın, iki il bundan qabaq gördüyünüz o abdar ləblər, o zərif, qırmızı dodaqlar ki, hər baxan, indicə qanı axar deyərdi, indi nə hala düşmüş? Şəhdi zalım zənburun nişi ilə sorulmuş güllər kimi ağarıbqurumuşdu.”.(5, 230) Bu qız Aslanın tək övladıdır. Aslan yetim qardaşı oğlu Mənsurla Sitarəni bir böyüdür, onların təhsilinə ciddi yanaşır. Gələcəkdə bu qayğıkeş ata Mənsur və Sitarənin xoşbəxt ailə qurmalarını arzulayır. İllər keçir, bu iki gənc böyüyür, Sitarə müəllimlik senzi alır, Mənsur isə təhsilini başa vurmaq üçün beş il daha

oxumalıdır. Sitarə Mənsurla olan əhdini sındırır, qonşuluqdakı dövlətli Salmanın oğlu Həsənə üstünlük verir. Bu hadisə Mənsuru dərindən yaralayır. O, nə qədər ağlayıb, göz yaşı töksə də Sitarəni fikrindən döndərə bilmir. Mənsurun sentimental monoloqları onun həssas qəlbə malik, məsum insan olduğunu göstərir. Bu monoloqlar onun sentimental obraz olduğunun əlamətləridir. Timuçin Əfəndiyev “Vəfalı Səriyyə” dramını təhlil edərkən qəhrəmanın pərişanı-halı izhar üçün istifadə olunan “ah” və “uf”lar, “ahü-zarlar”a əsasən bu dramı “ah-uf”lar dramı da adlandırır. Bu cəhət fikrimizcə, “Mənsur və Sitarə” hekayəsinə də uyğundur. Mənsurun uzun- uzadı monoloqu buna misaldır. “Ah! Zalım zəmanə! Kəcmədar dövran! Bivəfa tale!!! Ey çərxi-kəcmədar! Əcəba, mənim bu bədbəxtliyimdən sənə bir səmərə varmı ki, məni bu qədər dərdü möhnətə, əzabü əziyyətə düçar elədin? Əcəba, mənim ölümümdən sənə bir səmərə varmı ki, hənuz dünyadan kam almamış, hənuz həyat və səadətin zərrin piyalələrə doldurulmuş şərbətini içməmiş mənə ölüm zəhərini içdirirsən? Əcəba, tamam cövrü cəfa, zülmü əzablarını məndən ötrü saxlamışdın ki, əvvəl yetim, səfil, sərgərdan buraxıb, indi də belə bir bəlaya düçar edibən, məni bir kənara ataraq, yarımı əğyara nəsib edib, qanıma susadın! Ah, zalım zəmanə! Bivəfa Sitarə! İndi rahat olun! Mən dəxi dünyanın şirin-şirin ümidlərini görməmiş, dünyaya əlvida deyib gedirəm. Rahat olun ki, mən gülzari-fərəhfəzalarm, seyrü-səyahətin, vəxti-səadətin, nəvazişi-fərəhbəxşasın layıqincə görməmiş, o ləbi-abidarın şəhdi-şərbət-misalın doyunca əmməmiş, dünyaya əlvida deyib gedirəm. Rahat olun! Gəl, gör, Sitarə, xar etdiyin Mənsuru!” (5, 228)

C.Cabbarlı sentimental əsərlərində qadınları kişilərə nisbətən daha güclü yaradır. Bu da fikrimizcə onun bütün yaradıcılığından qırmızı xətt kimi keçən qadın azadlığı-emansipasiya ilə bağlıdır. Eyni xüsusiyyətə “Mənsur və Sitarə” hekayəsində də rast gəlirik. Mənsur sevgilisindən mərhəmət istəyəndə, yalvaranda Sitarənin qüruru buna misaldır.

Sentimental qəhrəmanı səciyyələndirən cəhətlərdən biri də pərişanlıq məqamında ötən günlərin həsrəti ilə yaşamaqdır. Mənsurun dilində bu qabarıq verilir.“Hanı o

keçən günlər ki, səninlə bu ağacın dibində və saf hovuzun kənarında şirin-şirin söhbətlərə, dərin-dərin işrətlərə məşğul olub, yüksək bir həyat ilə yaşayırdıq? Onları unutdunmu? Ah, biinsaf Sitarə, bimərhəmət Sitarə! Əğyarı bu həqir əmin oğlunun üstünə ayaqlandırmaq rəvamı?!.
Göz yaşı Mənsura danışmağa mane olurdu. Mənsur isə tamam gücü ilə çalışırdı ki, onu sakit edib, fürsət var ikən sözlərini desin. Lakin Mənsur nahaq çalışırdı. Göz yaşları bir seyli-xüruşan kimi cuşə gəlib, Mənsuru sükuta məcbur edirdi. Axırıncı gücünü yığıb, qanlı göz yaşları arasından:
- Sitarə! Bivəfa olma! Əhdə vəfa et! Məni yandırma! Gəl, gəl ey həyatımın zöhreyi-şəşəədan! Gəl! Gəl! Gəl, ey istiqbalımın şəmipərtövnisan! Gəl, gəl bivəfalığı tərk et! Mənimlə bağladığın əhdi sındırma! Əğyarı kənar et! Məni yandırma! Gəl! Gəl!..”(5, 227) Hekayənin sonlarında Sitarənin peşmançılıq hissləri, keçmiş günləri yad etməsini də misal göstərə bilərik. “Sitarə həyatından bezikmiş, zəlil bir halda durub, ağlaya-ağlaya hündür çinar ağacının yanına gələrək, ağaca dırmaşdı. Bir budağın üstə oturub, bir qədər ağlayandan sonra, şərfin boğazından açıb buraraq, bir ucunu ağacın budağına, bir ucunu da ilmək eyləyib öz boğazına salıb, budaqdan asılmaq istədikdə, gözü ağacın altında, hovuzda üzən balıqlara sataşıb dayandı. Gözləri yaş ilə dolub, tamam keçmiş günləri gəlib gözünün qabağında durdu. Ürəyininən dərin guşəsindən bir ah çəkib:
– Ey bivəfa dünya! Ey bivəfa tale! Sən də bietibarmışsan ki, iti tilovun ucuna keçirdiyin bir parça ləziz təamına aldanıb toruna düşdüm. Sən insana mərhəmət edən olmayıb, zalım bir səyyadsan ki, insanları aldadıb, öz toruna salırsan!” (5, 227)

Lakin gənclərin münasibətində pul, mal, dövlət əsas rol oynayır. Sitarə Həsənin bahalı hədiyyələrinə aldanır. Mənsurun sevgisini mal-dövlətə dəyişir.

Yazıçının bu hekayədə yaratdığı ata obrazı- Aslan qızını təhsil almasına çalışır, onun seçimlərinin əleyhinə olmur. Qızının Həsəni seçməklə səhv yol tutduğunu ona başa salmağa çalışsa da, qızının fikrində qəti olduğunu görüb onunla razılaşır. Sitarəni arzusuna qovuşduraraq Həsənlə evləndirir. Bununla da ədib XX əsr

valideynlərinin hamısının heç də cahil, nadan olmadığını ,onların haqlarını müdafiə etdiklərini qeyd edir. Bu cür qadının şəxsiyyətinə qiymət verən, onun azadlığını əlindən almayan ərlər, atalar mövcud idi. Aslan Sitarənin düzgün seçim etmədiyini, Həsənin onu xoşbəxt edə bilməyəcəyini bilirdi. Bununla belə ata inadkar qızının fikrinə hörmətlə yanaşır. Belə də olur Sitarə evlənənəndən sonra xoşbəxt olmur. Əvvəlcə ata-anasını, sonra qayınatası Salmanı itirir. Bütün malını qumarda itirən Həsən, Sitarəni acınacaqlı vəziyyətə salır, ac qaldıqları günlər olur. Ədib hekayədə xüxususi qeyd edir ki, Sitarə təhsilli müəllim olmasına baxmayaraq Həsən onun işləməsinə imkan vermir. Sitarə yanlış seçiminin fərqində olur və yenidən Mənsurun sevgisinə möhtac olur. Rəhim Əliyev Sitarənin bu dönüşünü belə açıqlayır: “Sitarə hekayədə iki dəfə dəyişimə uğrayır. Birinci dəfə yaxşı adamdan pis adama çevrilir. Mənsurdan üz döndərib daha varlı Həsənə ərə gedir. İkinci dəfə isə əks dəyişmə baş verir, mənəvi təmizlənmə keçirib yenidən yaxşı adama, Mənsuru sevən əvvəlki Sitarəyə çevrilir.”(19, 92)

Burada müəllif insanları başqalarının hissləri ilə oynamamağa, hər zaman addım atarkən daim düşünərək düzgün yol seçməyə çağırır. Sitarənin cavabsız eşqi Mənsuru ucaltdığı halda, Mənsurun yumşaq qəlbi, saf hissləri Sitarəni məhv edir. “Bilirəm! Gələr bir zaman ki, mənə də fürsət düşər, sən də mənə möhtac olarsan. O vaxt mən sənə pislik etmərəm. Get, bivəfa Sitarə, get!.. Artıq mən də səndən gözümü çəkib, səni unutdum. Get, xoşbəxt olub səadətə yetəsən! Amma bilirəm ki, bu zülmün cəzasını görəcəksən, get!!!”(5, 227) Mənsurun dediyi kim Sitarə sonda onun sevgisinə möhtac olur. Lakin Sitarə Mənsurun evli olduğu, onların artıq qovuşma imkanı olmadığını anlayır və özünü öldürmək istəyir. Amma mərhəmətli Mənsur əmisinin yadigarı, keçmiş günlərin xatirinə Sitarəni sevindirmək üçün onu ikinci arvad kimi qəbul etməyə hazır olduğunu bildirərkən özünü ağacdan asan Sitarə artıq son dəqiqələrini yaşayırdı.

“Amma, heyhat!.. Vaxt keçmişdi. Sitarənin həyatına dəxi ümid yox idi. Axırıncı sözləri eşidəndə, gözlərini biixtiyar surətdə açıb, qollarını dilsiz və zəif bir hərəkətlə qaldırıb, Mənsurun boynuna salaraq, boğuq və həzin bir səslə:

- Mənsur, səndən axırıncı xahişim, sənə axırıncı vəsiyyətimdir... - Burada Sitarə dayanıb, yenə kəsmə-kəsmə təkəllümə başladı. - Barı, bu bir sözümü yerə salma. Axırıncı arzum: məni həmin çinar ağacının dibində dəfn et! Mənsur, hərçənd Sitarənin axırıncı sözlərini eşidirdi, lakin danışmağa qüdrəti yox idi. Gözlərindən axan yaş Sitarənin yanaqlarına toxunurdu. Sitarə axırıncı dəfə hərəkətə gəlib: - Vəsiyyətimə əməl et, məndən çəkdiyin cəfaları mənə halal et...”(5, 235) Sitarə vəsiyyət edir ki, onu çinar ağacının altında dəfn etsin. Hansı ki, bu çinar ağacı onların məhəbbətinin şahidi idi, bu ağacın altında onlar br-birilərinə heç vaxt ayrılmayacaqlarına söz vermişdilər. Sitarə bunu nə üçün istəyir? Çünki o, gec də olsa başa düşdü ki, Mənsurla onun məhəbbəti ən saf hiss idi.

R.Əliyev ikiarvadlılıq məsələsinə belə aydınlıq gətirirdi: “bu ikiarvadlılıq əxlaqsızlığın yox, humanizmin təntənəsidir, şəhvət düşkünlüyündən irəli gələn bir hal deyil, əksinə cavabsız sevgidən imtihar edəcək zavallı bir qadını xilas etmək məqsədi daşıyır.”(19, 93) həsənova rəna. Onun etdiyi bütün zülmlərə baxmayraq, Mənsur Sitarənin son anında onun yanında olur, onun xoşbəxtliyinə çalışır. Sitarə ailəsi tərəfin dən heç bir zorakılığa məruz qalmayıb,atası həmişə onun səadəti üçün çalışıb, onun sonunun belə olmasının günahkarı yalnız özüdür. Sitarənin səhv seçimləri ona bu sonu hazırladı. Hekayədə digər bir qadın obrazı da var. Bu Mənsurun həyat yoldaşı Saradır. Sara gözəl, mərhəmətli bir qadındır. O, Sitarənin çəkdiyi əzabları başa düşür, əvvəl rəqibəlik hissi onu düşündürür. Sonra Mənsurun ondan xahişini yerə salmamaq üçün, həmçinin insaniyyət hissi də qalib gəlir və Sitarənin ikinci arvad kimi qəbul edir. Bu cəsarətli addım bir insan kimi Saranın necə incə və böyük qəlbə malik olduğunu göstərir.

Hazırkı dövrdə Azərbaycanın təhsil sistemində zəruri islahatın aparıldığı bir şəraitdə tədris proqramlarının təkmilləşdirilməsinə, yeni dərsliklərin yazılmasına böyük ehtiyac duyulur. Dünyada gedən qloballaşma və Azərbaycan təhsil sisteminin Avropa təhsil sisteminə inteqrasiyası təhsil sistemində yeni təlim texnologiyalarından, fəal və interaktiv təlim metodlarından, yeni dərs tiplərindən istifadə edilməsini tələb edir. Təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri

Təhsil haqqında Azərbaycan Respublikasının Qanununda aşağıdakı kimi müəyyənləşdirilmişdir: humanistlik, demikratiklik, bərabərlik, millilik və dünyəvilik, keyfiyyətlilik, səmərəlilik, fasiləsizlik, vəhdətlik, daimilik, varislik, liberallaşma (təhsil sahəsində və təhsil fəliyyətinin açıqlılığının genişləndirilməsi), inteqrasiya (milli təhsil sisteminin dünya təhsil sisteminə səmərəli formada qoşulması, uyğunlaşması və qovuşması əsasında inkişafı). Təhsil haqqında Qanunun dördüncü maddəsində göstərilir ki, Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratikliyi prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən vətənpərvərlik və Azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək.(34, 72)

XXI əsrdə həm cəmiyyətin, həm də onun hər bir üzvünün yaşaması və inkişafında başlıca dəyər yaradıcı, özünü inkişaf etdirən şəxsiyyətidir. Pedaqoji sistemin yeniləşməsi çox vacib və aktual ideyadır. Çünki təhsil cəmiyyətin simasıdır. Cəmiyyətin inkişafı təhsildə də öz əksini tapmışdır. Ölkədə siyasi sistemin dəyişməsindən sonra cəmiyyətdə olduğu kimi təhsildə də yeniliklər baş vermişdir. İndi yeni tip məktəblər yaranmışdır. Alternativ təhsil planları, dərslikləri, dərs vəsaitləri yaranmışdır. Təhsilə investisiyalar qoyulur. (34,45)Burada təhsilin üzərinə böyük yük düşür. Təhsil prosesi uşaqda özünüinkişaf qabiliyyəti formalaşdırmalıdır. Bu da öz növbəsində aşağıda göstərilən fəallığa, dərketmə tələbatına və qabiliyyətinə əsaslanır:

Məntiqi düşünmə; Ətraf aləmin cisim və hadisələrinə tənqidi yanaşma; Müstəqil olaraq qərar çıxarma; Ətrafda olanları yaradıcı surətdə dəyişmə; Bilikləri müstəqil əldə etmə; Praktiki problemləri həll etmə ; Şəxsiyyətin inkişafına dair yeni məqsədlər qarşıya qoyma.

Bugün ənənəvi təlim bunun öhtəsindən gələ bilirmi? Təhsil məktəblərində geniş yayılmış, lakin şəxsiyyətin hərtərəfli inkişaf etməsində imkanları məhdud olan ənənəvi təlim texnologiyaları XX əsrin sonunda bir çox yaradıcı, yenilikçi pedaqoqlar tərəfindən təhsildə effektiv olmayan, hətta zərərli nəticələr verən

texnologiyalar kimi qiymətləndirilməyə başlandı. Bu cür qiymətləndirmə inkişaf etmiş ölkələrdə cəmiyyətin məlumatlılıq səciyyəsinin kifayət qədər yüksək olması ilə qiymətləndirilirdi. Tədris prosesində təhsil alanın hərtərəfli şəxsiyyət kimi formalaşması üçün yeni pedaqoji texnologiyalardan məqsədəuyğun və kompleks şəkildə istifadə edilməsi daha yüksək nailliyyətlər əldə etməyə imkan verir. Ənənəvi pedaqoji prosesi təsvir edəndə biz ilk növbədə lövhənin qarşısında duran müəllimi və onun sakit dinləyiciləri olan şagirdləri görürük. Bu təlimdə müəllimin rolu aparıcı idi. Müəllimin monoloqu əsas hesab olunduğu üçün, müəllim nə qədər çox, əhatəli, cəlbedici danışsa, təlim materialını daha yaxşı mənimsətmiş olar. Bu zaman müəllim çalışır ki, bilikləri çatdırsın, şərh etsin və misallar gətirsin, şagirdlər isə bu məlumatları passiv şəkildə mənimsəyirlər. Sonra bilikləri yaddaşda möhkəmləndirmək üçün şagirdlər bunları təkrarlama və ya məsələlərin həlli prosesində tətbiq edirlər. Yəni, ənənəvi dərsdə şagirdlər məlumatları yalnız yadda saxlayır və nəticələri özü çıxarmır, necə deyərlər, biliyi hazır şəkildə alır. Öyrədici fəaliyyət ilk növbədə müəllimin fəallığı əsasında həyata keçirilir.

Hamıya məlum olduğu kimi məlumatlar o zaman bilik kimi çıxış edir ki, onlar real həyatda tətbiq edilsin. Şagirdin cavabına qoyulan tələblərin əsasını əslində biliklərin mənimsənilməsinin yoxlanılması yox, verilən məlumatların yadda saxlanılması təşkil edir. Eyni zamanda ənənəvi təlim prosesində biliklərin praktiki tətbiqini təsəvvür etmək üçün şagirdə müvafiq imkanlar yaradılmır. Dərsin məzmunu adətən çox nəzəri öyrənilir və həyatın tələbatlarına uyğunlaşdırılmır. Şagirdin şəxsi təcrübəsi, onun tələbatları, maraqları, qabiliyyətləri və fərdi xüsusiyyətləri nəzərə alınmır. Bu cür prosesin nəticəsində heç kim əmin ola bilməz ki, bütün şagirdlər bu bilikləri lazımi səviyyədə dərk edəcək. Şagirdin hazır biliklərin mənimsənilməsi nəyin ki, təfəkkürün inkişafı üçün stimul yaratmır, eyni zamanda idrak prosesini kütləşdirir, yaradıcılıqdan, sərbəstlik, müstəqillik, təşəbbüskarlıq kimi keyfiyyətlərdən məhrum edir. Bunun nəticəsi olaraq təlimin səmərəliliyi azalır, çünki onun keyfiyyəti şagirdin əqli qabiliyyətlərin və hafizənin inkişaf səviyyəsi, idrak motivasiyasının olub/olmaması kimi psixoloji amillərdən birbaşa asılı olur. Ənənəvi təlim sisteminin ən mürəkkəb problemlərindən biri

istifadə olunan pedaqoji texnologiyaların qeyri-çevik olmasıdır. Müasir informasiya – kommunikasiya dövründə təhsilin əsas problemi belə bir faktla şərtlənir ki, elmin müxtəlif sahələrində toplanmış bilik kütləsi elə sürətlə artır ki, təlimin ənənəvi sxem və prinsipləri əsasında bunları həm çatdırmaq, həm də mənimsəmək əslində qeyri-mümkün işə çevrilir. Əgər qabaq bilikləri əldə etmək üçün şagirdi iki əsas bilik mənbəyi (müəllim və dərslik) qane edirdisə bu gün onlar çoxsaylı məlumat mənbələri ilə müqayisədə uduzur. Bu səbəbdən müasir təlimin başlıca vəzifələrindən biri öyrənməyi öyrətməkdir, yəni şagirdləri biliklərin müstəqil əldə edilməsinə yiyələndirməkdir. Yalnız təlim metodlarının keyfiyyətcə dəyişdirilməsi, onların şəxsiyyətə, onun tələbatlarına yönəldilməsi, bilikləri mənimsəmə zamanı yaradıcı təfəkkürdən fəal istifadə edilməsi şəraitində təlim böyük səmərə verə bilər. Eyni zamanda şəxsiyyətyönümlü tədris prosesi həmçinin tərbiyəvi proseslərin keyfiyyətinə də təsir edəcək: idrakı və sosial fəallığı, şəxsiyyətin dəyərləri və vərdişlərini formalaşdıracaq. Ənənəvi təhsildən fərqli olaraq müasir təhsil modellərinin, konsepsiyalarının əsas ideyaları sadəcə olaraq təhsil alanların yaddaşını nəzəri faktlarla doldurmağa yönəlməmişdir. Ənənəvi təhsildə fakt və hadisələri əzbərləməyə diqqət yetirilirdisə, müasir məktəbin əsas məqsədi isə rəqabətə qabil, tənqidi təfəkkürə malik, çevik idarəetmə təfəkkürünə malik, onu əhatə edən təsirlərə tənqidi yanaşmaq bacarığına malik, sərbəst qərar qəbul etmək qabiliyyətinə malik, dəyişən şəraitə çevik uyğunlaşmaq qabiliyyətinə malik, əməkdaşlıq etmə, "ünsiyyətqurma", müstəqil öz fikrini ifadə edə bilən şəxsiyyət formalaşdırmaqdır. Müasir təhsil sisteminin əsas tərəfi təhsilalana subyekt kimi yanaşmaqla yeni insanın formalaşmasını cəmiyyətin əsas məqsədinə çevirməkdir. Bu isə insanların öz bacarıq və qabiliyyətlərinin reallaşması üçün maksimum şərait yaratmağı tələb edir. Müasir şəraitdə ölkələrdə tərbiyə işinin əsas məqsədi böyüyən nəsildə əsil vətəndaşlıq keyfiyyətlərini formalaşdırmaqdan ibarət olmalıdır. Çünki, təhsil insanın özünü və dünyanı dərk etməsinin təminatçısı rolunda çıxış edir. Təhsilin hərtərəfli və ahəngdar inkişafına təkan verir. Buna görə də, təlim təhsil vasitəsilə şəxsiyyətin yetkinləşməsi prosesində daha üzvi amilə çevrilir. İlk növbədə, təhsil vasitəsilə şəxsiyyətin inkişafı və tərbiyəsinin daha

optimal, səmərəli, daha düzgün elmi əsaslarla qurmaq barəsində düşünmək lazım gəlir.

Bu təlimdə şagirdlərin idrak fəallığının təmin edilməsi hər şeydən üstün tutulur. Yaradılmış fəallığın şagirdin təlim fəaliyyətinin bütün məqamlarında, mərhələlərində saxlanması, davamlı olması da vacibdir. Şagirdin fəallaşması üçün ilk növbədə, onun, bir şəxsiyyət kimi təlim prosesinin mərkəzi obyekti kimi çıxış etməsi vacibdir. Təlim uşağın maraq və tələbatlarına, onun bilik səviyyəsinə, imkan və qabiliyyətlərinə yönəlməlidir. Təlimdə hər zaman uşaqların yaş xüsusiyyətləri, cinsi xüsusiyyətləri, qavrama qabiliyyətləri nəzərə alınmalıdır. Müəllim tərəfindən şagirdə şəxsiyyət kimi yanaşılmalı, onun fərdi cəhətləri nəzərə alınmalı və ona hörmət əsasında münasibət göstərilməlidir. Müəllim şagirdlərin işlərinə müdaxilə etmədən problemləri qoyur, istiqamər verir, nəzarət edir, axtarış strategiyasını hazırlamağa kömək edir, amma təlim tapşırıqları üzərində uşaqlar özləri birlikdə öz aralarında mübahisə edərək, diskussiya apararaq işləyirlər. Bununla yanaşı, hər bir şagirdin öz fikri, ideyası olur. Mübadilə nəticəsində fikirlər dəyişir, ideyalar təzələnir. Beləliklə, psixoloji abu-hava dəyişir. Qrupdakı zəif şagirdlər də müzakirədə fəal iştiraka qoşulurlar: məsələlərin müzakirəsi və kollektiv müzakirənin gedişində biri-birini dinləməyə alışırlar.Tədris prosesi elə təşkil olunmalıdır ki, o, idrak fəallığı, təbii öyrənmə fəaliyyəti doğursun, şagirdə «ilk kəşf» sevinci yaşamağa imkan versin, onda yeni biliklərə, bacarıqlara yiyələnmək həvəsi yaratsın. İdrak fəallığı ilk növbədə təfəkkürün fəallaşdırılması əsasında yaranır. Buna nail olmaq üçün birinci növbədə təlim prosesində idrak fəallığını stimullaşdıran problemli situasiyalar yaradılmalıdır. Uşaqda bu problemin həlli tələbatının yaranması nəticəsində bütün idrak prosesləri də fəallaşır, o, yeni bilikləri kəşf etməyə yönəlir. Müasir dövrdə baş verən sürətli dəyişikliklər təlimin qarşısında şagirdlərin həyata hazırlanması məsələsini daha kəskin qoyur. Bunun üçün ilk növbədə təlim cəmiyyətin inkişaf meyillərini əks etdirməli və yeni nəsli yaxın gələcəkdə həyat şəraitinə hazırlamalıdır. Məktəb şagirdə baza bilik, bacarıq və vərdişləri verməklə kifayətlənməməlidir. O, eyni

zamanda onda idraki fəallığı, hər şeyi öyrənmək həvəsi və digər zəruri keyfiyyətləri formalaşdırmalıdır. Təlim şagirdə zəruri olan informasiyanı müstəqil əldə etməyi, onu yenidən işləməyi, düzğün istifadə və tətbiq etməyi öyrətməlidir. Təlim-tərbiyə sisteminin çevikliyi ilk növbədə onun real şəraitə uyğunlaşmaq qabiliyyətidir. İctimai mühitin və şagirdlərin dəyişən tələbləri nəzərə alınmaqla, tədris planları və proqramlarının məzmunu, təlim-tərbiyə prosesinin təşkili, pedaqoji texnologiyaların seçilməsi sistematik olaraq təzələnməlidir. Çevik təlim-tərbiyə sistemində, daha çox təlimin diferensiallaşmasına, şagirdlər tərəfindən müxtəlif məlumatların işlənilməsi və mənimsənilməsinə üstünlük verilir. Buna nail olmaq üçün müəllim hər bir şagirdə fərdi yanaşmağa, təlimdə müxtəlif bilik mənbələrindən və məlumatı təqdimetmə formalarından (görmə, eşitmə, hiss etmə və s. duyğulara əsaslanan) istifadə etməyə çalışmalıdır. Təlim-tərbiyə sisteminin çevikliyi bir nəticə olaraq biliklərin daha çox yaradıcı və tətbiqi olmasında öz əksini tapır, şagirdlər təlim məqsədlərini qoymağa özləri cəhd edirlər. «Müəllim-şagird» qarşılıqlı münasibətləri sistemində bu subyektlərin hər biri təlim prosesində tərəf müqabili kimi iştirak etməlidirlər. Əməkdaşlıq ilk növbədə təlim prosesinin kollegial və dinamik keçməsində öz əksini tapır. Əgər şagird təlim prosesində müəllimlə bərabərhüquqlu şəxs kimi çıxış edirsə, bu onun fəaliyyətində yeni bir keyfiyyət yaradır: şagirdin özünə inamı artır, o öz fikrini çatdırmağa qorxmur, öz potensial imkanlarını gerçəkləşdirir. Əməkdaşlıq prinsipi müəllimdən tələb edir ki, o, şagirdin qiymətləndirilməsində daha çox dəstəkləyici qiymətlərdən istifadə etsin. Əməkdaşlıq təlim mühitini şagird üçün daha əlverişli, fəallaşdırıcı və ruhlandırıcı edir. Məsələlərin birgə həlli gedişində özünün və qrup üzvlərinin fikirlərini, imkanlarını və təcrübələrini bölüşə bilmək və bundan qarşılıqlı faydalanmaq məqsədi ilə hər bir şagirdin müzakirələrdə və qrupun işində iştirakı təmin edilməlidir. Təlim prosesində bütün şagirdlərin müxtəlif nöqteyi-nəzərlərini və fikirlərini nəzərə almaqla, dialoji təlim fikir müxtəlifliyinə, tədrisin məzmununu daha da zənginləşdirməyə imkan yaradır, nəticəçıxarma prosesinə müsbət təsir edir.

Bu prinsiplərin həyata keçirilməsi sagirddə səmərəli həyat fəaliyyətinin

formalaşması və onun aramsız dəyişən şəraitə uyğunlaşması üçün təsiredici zəruri bacarıqların əldə olunmasına şərait yaradır. Bütün bu prinsiplərin təlim prosesində ən dolğun şəkildə tətbiqi fəal(interaktiv) təlim metodları vasitəsilə mümkündür. interaktiv təlim dedikdə, dərsdə yaranan, təlim prosesində meydana çıxan, şagirdlərarası öyrənmə ünsiyyəti və əməkdaşlığı, müəllim – şagird birliyi nəzərdə tutulur.

Hər iki (ənənəvi və fəal-interaktiv) təlimin mərhələlərinə nəzər salaq. Ənənəvi dərsin mərhələləri dedikdə aşağıdakılar nəzərdə tutulur.

1. Sinfin təşkili
2. Keçmiş dərsin sorğusu və yekunlaşdırılması
3. Keçmiş mövzu ilə yeni mövzü arasında əlaqə
4. Yeni mövzunun izahı
5. Yeni mövzunun möhkəmləndirilməsi
6. Ev tapşırıqlarının verilməsi(39, 53)

Fəal interaktiv təlimlə aparılan dərslərin mərhələləri və təxmini vaxt bölgüsü belədir:

| | |
|---|---|
| “Motivasiya | 3 dəq. |
| Tədqiqatın aparılması | 12 dəq. |
| Məlumat mübadiləsi | 10 dəq. |
| Məlumatın müzakirəsi və təşkili | 7 dəq. |
| Nəticələrin çıxarılması | 5 dəq. |
| Yaradıcı tətbiq etmə | 8 dəq. |
| Refleksiya ( və ya qiymətləndirmə, | |

bütün mərhələlərdə aparıla bilər) 3 dəq.”

Cəmi 45 dəq.(39, 65)

Bu mərhələrin hər birində müəllim və şagirdlərin əməkdaşlığı nəticəsində müəyyən bilikvə bacarıqlar əldə olunur. Müəllim çalışmalıdır ki, dərs müddətində şagirdlərdə yaradıcı, məntiqi, tənqidi təfəkkür formalaşsın.

C.Cabbarlının “ Mənsur və Sitarə” hekayəsinin tədrisi

Mövzu: C.Cabbarlının “ Mənsur və Sitarə” hekayəsinin təhlili.

Məqsəd : hekayənin ideya-bədii xüsusiyyətlərinin mənimsənilməsi

- Yaradıcı təfəkkürün inkişaf etdirilməsi
- Kollektivlə işləmək bacarığının formalaşdırılması
- Kiçik qruplarla iş

Metod, priyom və

iş növləri : müəllimin izahı, müsahibə, əqli hücüm, problemin həlli.

Təchizat: Cəfər Cabbarlı. Seçilmiş əsərləri. I cild. Bakı. Şərq-Qərb. 2005

Problemli vəziyyətin yaradılması və problemin qoyuluşu.

Müəllim sinfə müraciət edir :

Siz peşmançılıq hissi haqqında bilirsiniz. Kim deyər bu hiss nə zaman yaranır, insan nə zaman peşman olur? Peşmançılıq bu anlayışı izah edə bilərsinizmi?

Şagirdlər öz fikirlərini bildirmək istəyirlər. Cavablar isə bir qayda olaraq fərqli olur. Şagirdlərin səsləndirdikləri fikrləri dinləyir və sonda ümumiləşdirmə aparıram. Deməli peşmançılıq insanın törətdiyi hər hansı bir əmələ görə heyfslənməsidir. Müəyyən bir zaman sonra insanın etdiyi əməlin nəticələri xoşuna gəlmir. Fikirləşir ki, kaş zamanı geri qaytarardım bu qərarımı dəyişərdim. Bunun üçün ataların bir sözünü yada salaq “ Yüz ölç bir biç”. Deməli insan bir addım

atmazdan öncə yaxşı fikirləşib nəticələrini nəzərə almalıdır. Heç kim səhv etmək istəməz. Amma səhv etmək insana xas xüsussiyyətdir. İnsan səhv edərək öyrənir və çox vaxt da bir hərəkətin səhv olduğunu onu etdikdən sonra anlayır. Səhv insanın ayrılmaz bir hissəsi olduğuna görə bu mövzu haqqında daha geniş şəkildə düşünmək lazımdır: «Səhv etdikdən sonra o səhvi bir də etməmək üçün nə etmək lazımdır?»

Sonra şagirdləri tədqiqat sualının formalaşmasına yönəldirəm.

Tədqiqat sualı:

“ Sonrakı peşmançılıq fayda verməz” fikrinə münasibətiniz, bu fikri doğru saymaq olarmı?

Şagirdlər sualla bağlı mövqelərini açıqlayırlar. Onların fərziyyələri dinlənilir və təkrara yol verməməklə qeyd edilir.

Müəllim sinfə müraciət edir:

Səslənən fikirlər fərqlidir. Qarşıda duran başlıca vəzifə tədqiqatın və axtarışların köməyi ilə problemin həllidir. Keçən dərsdən mözusu bizə bəlli olan C.Cabbarlının “ Mənsur və Sitarə” hekayəsini təhlil edəcəyik. Nəzəri hissədən isə sentimentalizm cərəyanı haqqında məlumat əldə etmişik. Sizə tapşırılan ədəbiyyat siyahısı vasitəsi ilə əldə etdiyiniz məlumatlar köməyinizə çatacaq.

Tədqiqatın aparılması.

Şagirdləri dörd qrupa bölürük.  Bunu müxtəlif üsullarla etmək olar. Sininifdə şagirdlərin sayı nəzərə alınmalıdır.20 nəfərlik sinifdə kiçik qrupu formalaşdırmaq üçün belə bir üsula əl ata bilərik. Şagirdlərə təklif oluna bilər ki, 1-dən  4-ə qədər saysınlar. Sonra 1-lər, 2-lər, 3-lər, 4-lər hərəsi bir stolun ətrafında əyləşirlər. Hər qrupa şagirdlərin köməyi ilə ad verilə bilər. Eyni zamanda hər qrupun lideri də təyin olunur. Yaxşısı budur ki, qrup liderləri hər zaman eyni şagirdlərdən seçilməsin. Qrup lideri olmaq şansı hər şagirdə verilməlidir. Bu şagirdlərdə

özünəinamı gücləndirəcək. Bundan sonra müəllim əvvəlcədən hazırladığı iş vərəqlərini qruplara paylayır. Hər qrupa tapşırıqların olduğu iş vərəqləri paylanıldıqdan sonra vaxt elan olunur və tədqiqata başlanılır. Tədqiqata təxmini 12 dəq vaxt ayrılır. Bu vaxt ərzində şagirdlər bir-biri ilə əməkdaşlıq edərək suallara cavab tapmalıdırlar. Beləliklə qrupların tapşırıqlarına nəzər salaq:

Birinci qrup:

-C.Cabbarlının "Mənsur və Sitarə" hekayəsində sentimentalizm ünsürlərini müəyyənləşdirin .

-Sentimentalizmin əsas xüsusiyyətlərini müəyyən edin və əsərlə müqayisə edin

-Hekayədə yazıçı sənətkarlığı özünü necə göstərir.

- Yazıçının obrazlara, hadisələrə olan münasibətini müəyyənləşdirin, bu, əsərin əsas ideyasının aydınlaşmasında əhəmiyyətli rol oynayırmı?

İkinci qrup:

-Hekayədəki Sitarə obrazının təhlili,

-Sitarənin xarakterindəki başlıca xüsusiyyətlər,

-Sitarənin Həsənlə evlənməsinin səbəbi,

-Sitarənin atası Aslanın qızına münasibəti,

Üçüncü qrup:

-Sara obrazının təhlili,

-Sitarə və Sara obrazlarının xarakterindəki fərqlər,

-Saranın Sitarəni ikinci arvad kimi qəbul etməsinə münasibətiniz, onu bu qərarı verməyə nə məcbur etdi,

-Mənsur və Sara obrazının bir-birinə olan əlaqəsi, onlara bir ailə kimi yazıçının yanaşması,

Dördüncü qrup:

-Mənsur obrazının təhlili,

- Hekayənin əvvəlində Mənsurun xarakterini aydınlaşdırın, Sitarəyə olan məhəbbəti cavabsız qalan Mənsurun vəziyyətinə münasibətiniz,

-Mənsurun Sitarədən sonra həyatında, xarakterində hansı fərqləri görürsünüz?

Bundan sonra şagirdlər dərslik və digər çap materiallarından istifadə edərək tapşırıqları yerinə yetirirlər.

Məlumat mübadiləsi:

Bu mərhələdə hər qrup əldə etdiyi nəticəni təqdim edir. Qrupların iş vərəqlərinə nəzər salaq.

Birinci qrupun iş vərəqi:

Sentimentalizm XVIII əsrin ikinci yarısında Qərbi Avropada yaranan ədəbi cərəyandır. “Sentiment” fransız sözü olub, mənası “hissiyyat” deməkdir. Bu cərəyanın əsas xüsusiyyətlərindən biri də insanların təbii hisslərini ədəbiyyata gətirməklə insanların bərabərliyi ideyalarını göstərmək idi. Sentimentalistlər insan psixologiyasını, fərdi hisslərinin, duyğularının mübaliğəli təsvirinə üstünlük verirdilər. Sentimentalistlər öz qəhrəmanlarını əhalinin orta təbəqəsindən, feodal-patriarxal zülmündən əziyyət çəkən, əzilən, alçaldılan təbəqələr, kəndlilər, məsum insanlar içərisindən seçirdilər. Sentimental əsərlərdə qəhrəmanların əzabları, iztirabları, keçirdiyi sarsıntılar diqqət mərkəzində olur. Fikrimizcə, hekayədəki Mənsur obrazında sentimental qəhrəmana xas xüsusiyyətlər mövcuddur. Beləki, onun Sitarəyə olan məhəbbəti qarşılıqsız qalanda keçirdiyi hisslər, əzablar, sarsıntılar, keçmiş günlərin həsrəti və s. buna misaldır. Eyni zamanda yazıçının təbiəti təsvir etməsi sentimentalizmdə yaradıcılıq üslublarından biridir. Digər bir cəhət C.Cabbarlının sentimental üslubda yazdığı əsərlərində qadınların kişilərdən güclü yaradılmasıdır. Qadın emansipasiyasına həmişə əsərlərində yer verən

sənətkar burada da qadın obrazlarını xüsusi diqqətlə yaratmışdır. Hər iki qadın obrazı təhsilli, müstəqil, öz qərarlarını verən insanlar kimi təsvir olunur.

İkinci qrupun iş vərəqi:

Sitarə Mənsura xəyanət edib, əhdinə vəfa çıxmır. Mal-dövlət onun gözünü bürüyür. Bahalı hədiyələrə aldanır, Həsənin əsl simasını görə bilmir. Ədib hekayədə xüxususi qeyd edir ki, Sitarə təhsilli müəllim olmasına baxmayaraq Həsən onun işləməsinə imkan vermir. Sitarə yanlış seçiminin fərqində olur və yenidən Mənsurun sevgisinə möhtac olur. Əsərin əvvəlində qürurlu Sitarə sonda Mənsurdan məhəbbət, şəfqət dilənir. O, öz əməllərinə görə peşmançılıq çəkir, lakin heç bir şey əvvəlki kimi olmur. Aslan bir ata kimi qızına doğru yolu göstərməyə çalışır, onu fikrindən döndərə bilimir. O, qızının təhsil almasına diqqətlə yanaşan, onun gələcəyi üçün çalışan ata obrazıdır. Bununla da ədib XX əsr valideynlərinin hamısının heç də cahil, nadan olmadığını ,onların haqlarını müdafiə etdiklərini qeyd edir.

Üçüncü qrupun iş vərəqi:

-Hekayədə digər bir qadın obrazı da var. Bu Mənsurun həyat yoldaşı Saradır. Sara da təhsilli , müstəqil qadın obrazıdır. Sara gözəl, mərhəmətli bir qadındır. O, Sitarənin çəkdiyi əzabları başa düşür, əvvəl rəqibəlik hissi onu düşündürür. Sonra Mənsurun ondan xahişini yerə salmamaq üçün, həmçinin insaniyyət hissi də qalib gəlir və Sitarənin ikinci arvad kimi qəbul edir. Bu cəsarətli addım bir insan kimi Saranın necə incə və böyük qəlbə malik olduğunu göstərir. Sara Sitarədən fərqli olaraq mal-dövlət onun üçün əsas deyil. O, Mənsurun məhəbbətinə nail olması onun üçün ən önəmli şeydir. Saranın Sitarəni ikinciarvad kimi qəbul etməsi də onun humanistliyi ilə bağlıdır. Bir gənc ailə necə olmalıdır. Yazıçının gənclərə nümunə olcaq ailə kimi göstərir Mənsur və Saranın ailəsini. Bir aildə məhəbbətlə yanaşı, hörmət də , bir-birinə qarşı inam da olmalıdır. Buna görə Sara Mənsurun Sitarəni ikinci arvad kimi almasına razılıq verir.

Dördüncü qrupun iş vərəqi:

-Mənsur hekayənin əvvəlində Sitarənin məhəbbətinə qarşı biganəliyi görəndə çox aciz, zəif xarakterli insan kimi görsənir.Onun iztirabları, çəkdiyi əzablar yazçı tərəfindən çox ustalıqla verilmişdir. O, hətta intihara da əl atır. Lakin bir hiss ona mane olur. Bu işdən əl çəkir. Sonra təhsilini bitirib, həyatda müəyən mövqeyə gələn insan görürük. Artıq Mənsur zəif xarakterli insan deyil, o, indi həyatda hər şeyə nail olmuşdur. Yaxşı iş, gözəl ailə səadətinə sahib olub.

Bütün qruplar bir-birilərinin işlərinin məzmunu haqqında təsəvvür qazanırlar. Qrupların liderləri təqdimat zamanı öz qruplarının işini sinfə təqdim edirlər. Digər şagirdlər qrup liderinə suallarla da müraciət edə bilərlər. Bu mərhələdə müəllim şagirdləri bir-birilərinə diqqətlə qulaq asmağa səfərbər etməlidir. Bu mərhələ iş vərəqlərinin lövhəyə yapışdırılması ilə bitir. Beləliklə qrupların işləri ilə tanış olduqdan sonra əldə etdiyimiz bilikləri ümumiləşdirməliyik.

Məlumatın müzakirəsi və təşkili. Bu mərhələdə təqdim olunan işlərə nəzər salınır. Fərqli cəhətlər müəyyən olunur, yekun bir rəyə gəlinir.

Müəllim sinfə müraciət edir. Bu hekayədən nə nəticə çıxara bildik. Əsərlə bağlı əhatəli bilik qazanan şagirdlər müəllimin yekun sözünə ehtiyac olmadan nəticə çıxarırlar. Şagirdlərin fikrləri əsasən belə olur:

1. Yazıçı bizi mal-dövlət hərisi olmamağa çagırır.

2. Valideynlərimizin məsləhətlərinə qulaq asmağa çağırır.

3. Bir qərar verməzdən əvvəl diqqətli olmağa, nəticələrini nəzərə almağa çağırır.

4. Yazıçının maarif və təhsilə çağırışına da diqqət etməliyik.

5. İnsanı yaxşılığa dəvət edir.

6. Başqalarının zəifliklərindən faydalanmamağa çağırır.

Nəticələrin çıxarılması mərhələsində yeni biliyin əldə olunması özünü göstərir. Motivasiya mərhələsindəki tədqiqat sualı və ona dair irəli sürülmüş fərziyyələr tutuşdurulur.

Yaradıcı tətbiq etmə mərhələsində əldə olunmuş yeni bilik yaradıcı şəkildə tətbiq olunur. Burada şagirdlərə əldə etdiyiniz biliklərlə əsasən aforizm, atalar sözləri, və ya öz fikirlərini yazmaları tapşırıla bilər. Bütün bunlardan sonra refleksiya mərhələsi vardır ki, burada məlumatın, biliyin əldə olunması yollarına nəzər salınır. Sonuncu mərhələ isə qiymətləndirmə mərhələsidir. Qiymətləndirmə üçün aşağıdakı meyar cədvəlindən istifadə edilir:

| Meyar | Qrup | | | |
|---|---|---|---|---|
| | I qrup | II qrup | III qrup | IV qrup |
| Dərsdə fəaldır | | | | |
| Tapşırıqları yerinə yetirir | | | | |
| Öz fikirlərini ifadə Edir | | | | |
| Yoldaşlarını dinlə-yir və suallar verir | | | | |
| Əhəmiyyətli əlavə-lər edir | | | | |
| Ümumi nəticə | | | | |

Qrupların işindən asılı olaraq meyarların qarşısında "+", "-" işarələri qoyulur.

Deyilənlərdən aydın olur ki, " Mənsur və Sitarə" hekayəsinin tədrisi böyük diqqət, qayğı tələb edir. Beləki, şagirdlər həm sentimentalizm cərəyanı haqqında bilik əldə edirlər, həm də bunu hekayə üzərində təhlil apararaq, bildiklərini tətbiq edirlər.

# II FƏSİL

## CƏFƏR CABBARLININ "MÜFƏTTİŞ", " ASLAN VƏ FƏRHAD", "ÇOÇUQ" HEKAYƏLƏRİNİN TƏDRİSİNDƏ FƏAL TƏLİM TEXNOLOGİYALARININ TƏTBİQİ

Cəfər Cabbarlı Azərbaycan ədəbiyyatının, xüsusən dramaturgiyasının ən görkəmli nümayəndələrindən biridir. O, qısa ömür sürsə də, dövrünün ən qüdrətli qələm sahibi kimi xatirələrdə qalmışdır. Bu böyük sənətkar cəmi 35 il ömür sürmüş, 20 il ədəbi yaradıcılıqla məşğul olmuşdur. C. Cabbarlı lirik və satirik şeirləri, poema və hekayələri, tərcümələri, dram əsərləri, resenziya, libretto, məqalələləri, ssenariləri, ilə ədəbiyyatımızda böyük şöhrət qazanmışdır. Sovet dövründə C.Cabbarlının əsərləri, xüsusən dramaturgiyasının təhlilində müəllifin mövqeyi, məramı, əsərlərinin alt qatındakı dərin məna üzə çıxarılmamış, ideyası açılmamışdır. Bu zəngin yaradıcılığa məxsus ədibin mirası dar sosializm çərçivəsinə sığmırdı. Günümüzdə bu əsərlər bu cəhətdən daha da önəm qazanır. Müstəqillik dövründə ədəbi tənqid bu qiymətli əsərlərə yenidən müraciət etməli olmuş, onun əsərləri hərtərəfli və obyektiv təhlil obyektinə çevrilmişdir.

Yaradıcı insanların əsərləri həyatla, xalqla yaxından bağlı olmalıdır. Belinskinin bu haqda fikirlərini yada salmaq yerinə düşər. " Öz lövhələrinizin məzmununu sizə əhatə edən həyatdan götürün, onu bəzəməyin, təzədən düzəltməyin, əslində necədirsə, eləcə də əks etdirin, həm də ona canlı müasirlik gözü ilə baxın. Əsərləri üçün qırx gün, qırx gecəlik məsafələri padşahın məmləkətində, yaxud çox uzaq və qədim keçmişdə axtarırlar, yaradıcılıq fantaziyası ilə birlikdə dərin ağıl və zəka sahibi olan şairlər isə öz ideallarını ətrafdakı həyatda tapırlar."(27,50)

Bu baxımdan C.Cabbarlının yaradıcılığı mövzu etibarilə rəngarəngdir. Ədib yaxşı başa düşürdü ki, cəmiyyətin yazıçı qarşısına qoyduğu tələblər, onların təsviri ilk növbədə düzgün mövzu seçimi ilə bağlıdır. Bununla bağlı C.Cabbarlı yazırdı: " Hər bir yazıçı və dramaturqun ən böyük məziyyətlərindən birisi onun mövzu seçməyi bacarmasıdır. Yazıçının seçdiyi mövzu ona ilham gətirməli, onun

gördüklərini, duyduqlarını, dövrünün ondan tələb etdiklərini, başqalarının hələ müşahidə etmədiklərini və ya müşahidə edərək bu barədə danışa bilmədikləri şeyləri oxucuya söyləmək imkanı yaratmalıdır.” (27,51).

Göründüyü kimi, C.Cabbarlı dövrünün ictimai sifarişini gözləmirdi. Yaradıcılığı boyu yalnız təqdir etdiyi hadisələri, insanlığa, əxlaqi-mənəvi dəyərlərə təsir edəcək ünsürləri əsərlərinə mövzu seçmişdir. Odur ki, dəyişkən ictimai-siyasi, qlobal hadisələr dövründə yaşayıb yaradan, dərin müşahidə qabiliyyətinə malik sənətkarlar dövrün nəbzini tutmağı bacarmalı, ictimai naqislikləri tənqid etməklə oxucu və tamaşacıların diqqətini həlli vacib olan problemlərə yönəltməlidir. Bu səbəbdəndir ki, C.Cabbarlının müraciət etdiyi mövzular hər zaman aktuallığını qoruyan məsələlərdir. Mövzular içərisində dövrünün ictimai-siyasi probelmlərini, ailə-məişət problemlərini, təhsil, gənclərin tərbiyəsi, qadın hüquqları və s. bu kimi əhəmiyyətliləri qeyd edə bilərik. O, bu problemləri yalnız ifşa edib, nöqsanları göstərmir, eyni zamanda bunların həlli yollarını da axtarır. Yazıçının hekayələri bu cəhətdən xüsusilə maraqlıdır. Onun “Müfəttiş” hekayəsi həcmcə kiçik və tamamlanmamış bir əsərdir. Buna baxmayaraq bir çox məsələ işıqlandırılmışdır. Beləki hekayənin qəhrəmanı Həmid kiçik yaşlarında yetim qalır. Onun atası qan davasının qurbanı olur, düşmənləri tərəfindən öldürülür. Bundan sonra böyük qardaşı Bağır və bacısı ilə çətin günlər onları gözləyir. Bacıları düşmənlər tərəfindən qaçırılır, Bağır divan dərəyə müraciət etsə də düşmənlər güclü olduğundan heç bir şey əlindən gəlmir. Ədibin təsvir etdiyi mühit realdır. Bu cəmiyyətdə pul bir çox şeyi həll edir. Yetim qalmış uşaqlar divan-dərəyə müraciət etsələr də onların şikayətini nəzərə alan olmur. Çünki zəngin düşmənlər pul ilə qalib gəlirlər. Ədib əsərdə aydın şəkildə cəmiyyətdəki özbaşınalığı tənqid hədəfinə tutur.Yetim qalmış uşaqlar əziyyət verilməsini ,qan davası pisləyir. Qardaşlar burada qala bilməyəcəklərini anlayır və Bakıya gəlirlər. Hekayənin bundan sonrakı hissəsində biz “Aslan və Fərhad” hekayəsinə oxşar fədəkarlıq hekayəsi görürük. Bağır qardaşı Həmidə həm ata, həm bacı, həm də qardaş olur. Onun səadəti üçün özünü fəda edir. Gündüzləri işləyir, gecələri də xörək bişirir, qardaşının sıxıntı

çəkməsinə yol vermir. Həmid qardaşının bu çətinliklərini görür, oxuyub qulluğa girəcəyinə, onu rahat dolandıracağına söz verir. Lakin hər şey belə asan olmur. 1917-ci il sentyabr hadisələrindən sonra məktəb komitəsi tərəfindən Moskvaya göndərilmiş Həmid orada qalmağa məcbur olur. Bu vaxta qədər qardaş himayəsində yaşayan Həmid Moskvada çətin günlər keçirir. Amma həyat ona mübarizə aparmağı, yaşamağın yolarını öyrədir.

“Həmid indi gecələr əvvəlki kimi məktəb dərslərini deyil, bütün dünya siyasətini düşünür və bu siyasət arasında vətəndaşları üçün nicat yolu arayırdı. Bununla Həmidin bir millətpərəst olduğu anlaşılmasın. İki il bilaaram qəzet sütunlarından, əhalinin ağzından, əsgərlərin mahnı səsindən, hətta topların səsindən, moskitlərin vızıltısından, çəkiclərin cingiltisindən belə gözlərinə, qulaqlarına çarpan “internasional” sözü onun iliklərinə işləmiş, tam mənasilə bir beynəlmiləlçi olmuşdu.”(5,246) Təsadüfi deyil ki, ədib burada Həmidin millətpərəst olmadığını xüsusi qeyd edir. Bu əlbəttə dövrün tələbindən, siyasi rejimindən irəli gəlirdi. Hekayədə inqilab mövzusu da diqqətdən yayınmır. Əsərdə inqilab mövzusu Sovet quruculuq dönəmi ilə bağlıdır.Yazıçı yaradıcılığı boyu inandığı, təqdir etdiyi hadisələri əsərlərinə mövzu seçmişdir. İnqilab mövzusu da bunlardan biridir. Müəllif “iqtisadiyyatda inqilab”, “insan şüurunda inqilab” şüarını əsərlərində də işıqlandırmışdır. “İki il bundan əvvəl, sadəcə, buraxıb getdiyi Bakıya o indi başqa bir əhəmiyyət verirdi. O, indi ona siyasi və hərbi nöqteyi-nəzərlə baxır, onu bütün Şərq inqilabının qapısı kimi görürdü. Xüsusən bu şəhərin divarları arasında keçirdiyi məktəb həyatını, çocuqluq günlərini düşündükcə, hissiyyatı daha da coşur, doğma bir ruzigar saçlarını oxşadıqca, vapordan enmək, Bakının torpaqlarını öpmək istəyirdi.”(5,246-247)Lakin o, hər zaman qürbətdə vətənini xatırlayır, qazandığı təcrübələrlə xalqına faydalı olacağına inanır. Burada “Aslan və Fərhad” hekayəsindən bizə tanış olan fədakarlıq məsələsini görürük. Bu iki obrazın bir-birilə oxşar cəhətləri çoxdur. Həm Bağır, həm də Aslan kiçik qardaşlarına baxmaq üçün olmazın əziyyətlərə, çətinliklərə dözürlər. Onlar özlərini fəda edirlər. Fərhad qardaşına xəyanət edir, bacısının və qardaşının ölümünə səbəb

olursa, Həmid qürbətdə olduğu, vətəninə , qardaşına həsrət qaldığı günlərdə onları düşünür, vətəninə, qardaşına qovuşacağı günün həsrəti ilə yaşayır. Beləliklə, Azərbaycanda inqilab xəbəri onu vətəninə qovuşdurur. Gələn kimi vəzifə başına keçir, Əmək Müfəttişi olur. Qardaşını isə axtarır, lakin ondan bir xəbər ala bilmir. Həmidin simasında yazıçı oxucuları mübarizəyə səsləyir. Həmid gənc olmasına baxmayaraq, çalışır və sonda cəmiyyətə, vətəninə xeyirli insana çevrilir.Hekayə burada yarımçıq qalmış, tamamlanmamışdır. Ədibin hekayəni necə bitirəcəyi də oxucu tərəfindən ayrıca marağa səbəb olur.

Əsərin qısa məzmununa nəzər saldıqdan sona bunu deyə bilərik ki, “Müfəttiş” hekayəsinin orta məktəbdə tədrisi zamanı “Aslan və Fərhad” hekayəsi ilə müqayisəli şəkildə təhlil edilə bilər. Beləki, bu zaman Venn diaqramı, Konseptual cədvəl kimi iş üsullarından istifadə məqsədə uyğundur. Venn diaqramının əsas cəhəti məlumatların oxşar və fərqli cəhətlərinin dairələr formasında əlaqələndirilməsi, əyaniləşdirilməsidir. Əsərin surətlərinin təhlili zamanı Bağır obrazı ilə Aslan obrazının, Fərhad ilə Həmid obrazının təhlilini venn diaqramı ilə müqayisəli şəkildə tətbiq etmək olar. Bu zaman A dairəsində Aslanın şəxsi keyiyyətləri, B dairəsində isə Bağırı səciyyələndirən xüsusiyyətlər verilməlidir. Dairələrin kəsişdiyi yerdə isə onları birləşdirən əlamət və ya keyfiyyətlər qeyd edilir. Məsələn A dairəsində qeyd olunur: Aslan qardaşı Fərhad üçün çəkdiyi əziyyətlərə, fədakarlıqlarına baxmayaraq Fərhad tərəfindən xəyanətə uğrayır. Bağır obrazı isə əsərdə qardaşı ilə Moskvadan döndükdən sonra qarşılaşmasa da hekayənin məzmunundan Həmidin qardaşına olan müsbət münasibəti, gələn kimi qardaşını axtarması onun qardaşına olan münasibətini aydınlaşdırır. Dairələrin kəsişdiyi yerdə isə onların hər ikisinə aid olan xüsusiyyətlər qeyd olunur. Beləki hər iki qardaş ailələri üçün canlarından belə keçməyə hazırdılar, özlərindən balaca bacı və qardaşları üçün həm ana, həm ata olurlar. Həm Aslan , həm də Bağır bir müddət qardaşlarından uzaqda qalmağa məcbur olur. Aslan bu müddət ərzində qardaşına həm maddi, həm mənəvi cəhətdən dəstək olursa, Bağır və Həmidin belə münasibətləri olmur.

Fərhad və Həmid obrazlarının təhlilində isə yenə Venn diaqramına müraciət edirik. Burada da A dairəsində Fərhadın Həmiddən fərqli xüsusiyyətləri qeyd olunur. Müəllim şagirdlərdən gələn cavabları dairələrdə qeyd edir. Şagirdlərin fikirləri təkrara yol verilmədən dairədə yazılır. Beləliklə A dairəsində bunları qeyd edə bilərik. Fərhad qardaşının onun üçün çəkdiyi əziyyətləri qiymətləndirmir, ona xəyanət edir. Məktəbdə oxuduğu müddətdə müxtəlif bəhanələrlə qardaşından pul alır, mənasız yerlərə xərcləyir. Aslanın bu pulu bin bir əziyyətlə qazanması isə onu maraqlandırmır. Kievdə təhsil aldığı illərdə də o, bir çox gənc kimi həm oxuyub, həm işləyə bilərdi lakin Fərhad yenə də qardaşından maddi kömək tələb edir. B dairəsində isə Həmidin xüsusiyyətlərinə bunları yaza bilərik: O, qardaşının onun üçün etdiyi  fədakarlıqlarının fərqindədir. Moskvada yaşadığı illərdə həm təhsil alır, həm oxuyur. Qardaşına və vətəninə qovuşacağı günü gözləyir. Fərhaddan fərqli olaraq vətənpərvər obrazdır. Xalqının, vətəninin tərəqqisi üçün çalışır. Kəsişən dairələrdə isə hər iki obrazın uşaqlıqdan yetim qalması, məhrumiyyətlərlə böyüməsi, qardaşlarının himayəsində böyümələri, bir müddət vətəndən uzaqda yaşamaları oxşar xüsusiyyətlərdir.




Bu obrazların müqayisəli təhlilini konseptual cədvəllə də verə bilərik. Konseptual cədvəl də müqayisə ediləcək obyektlər müəyyən edilir və sütunun birində yazılır. Digər sütunda isə onları hansı keyfiyyətlərinə görə müqayisə etmək lazım gəldiyi qeyd olunur. Nümunə kimi cədvəli təqdim edirik.

| Müqayisə ediləcək obrazlar | Müqayisə ediləcək xüsusiyyətlər | |
|---|---|---|
| | Şəxsi keyfiyyəti | Qardaşına olan münasibəti |
| Aslan | | |
| Fərhad | | |
| Bağır | | |
| Həmid | | |

Böyük sənətkarın digər maraqlı hekayələrindən biri də " Qara Qənbər" hekayəsidir. Hekayə mövzu etibari ilə çox maraqlıdır. Yazıçı hər zaman pula, var-dövlətə hərisliyi, vəzifəpərəstliyi tənqid etmişdir. Hekayədə pulun insan xarakterinə təsiri ön plana çəkilir. Hətta ayrı-ayrı səhnələrdə cəmiyyətə göstərdiyi pozucu təsir də ifşa olunur. C.Cabarlı həm ailə çərçivəsində, həm də geniş ictimai şəraitdə qəhrəmanını təsvir edərək onun xarakterini oxucuya büsbütün açır.

Burada yazıçı Şura işçisi Qara Qənbərin simasında pulun, vəzifənin insanı necə dəyişdiyini göstərir. Yazıçı böyük sənətkarlıqla Qənbərin dəyişməsinə səbəb olan amilləri işıqlandırır. Pul və vəzifə əldə edəndən sonra Qənbərin xarakteri tamamilə dəyişir. Onun ailəsinə, işinə, dostlarına, qohumlarına qarşı dəyişən münasibətini aydın görülür. Onun bütün əlaqələrində pul, vəzifəpərəstlik əsas rol oynayır. C.Cabbarlının qəhrəmanın xarakterini açmaq üçün onu öz dili ilə ifşa edir. "Bən böyük mərtəbəyə sahibəm, qanacağım var, inteligent adamlarla günüm keçir, ancaq... bu arvad ilə bilmirəm nə edim."(5,257) Artıq özünü intiligent adam hesab edən Qənbər arvadını bəyənmir. Xanımı isə mübarizə aparmır, bunu çoxdan gözləyirdi. Çünki qulluq onu dəyişmiş, gözünü kor etmişdi C.Cabbarlı yalnız yazıçı, dramaturq deyil həm də insan psixologiyasının yaxşı bilicisi idi. Qənbərin də xarakterinin açılması oxucu tərəfindən maraqla izlənilir.

“Paltarı da gərək dəyişəm, fasonlaşdıram. Daha “NEP” zamanıdır. Bir neçə gündən sonra Qara Qənbəri kim görsəydi, tanımazdı. Bundan sonra Qara Qənbər tanışlarının yanına getdikdə daha utanmazdı. Amma bir şey onu çox sıxardı: böylə ki, hamu qonaqlar gəldikdə məclisdə olan xanımların əlini öpərdi, ancaq Qara Qənbər bilməzdi ki, nə etsin. Çünki ömründə böylə şeyə rast gəlməmişdi. Əvvəllər çox sıxılırdı, bəlkə bərk də qızarırdı. Amma sonra gördü ki, hamı böylə edir, bu adi bir işdir, həm də gözəl işdir. O da axırda qonaq gəldikdə xanımların yumşaq əllərini qalın dodaqlarına aparırdı. Amma Qara Qənbər yalnız əvvəllərdə böylə edərdi, dişarıda ehtiyat edərdi.” Yazıçının yüksək sənətkarlığı ilə təsvir etdiyi bu səhnədə Qənbər gülüş hədəfinə çevrilir. Biz C.Cabarlının əsərlərində acı gülüşün şahidi oluruq. Cəmiyyətdə baş verən eybəcərliklərinn qarşısını almaq üçün bədii ədəbiyatın imkanları böyükdür. C,Cabbarlı da məharətlə bundan istifadə etmişdir.

Beləliklə Qənbər pulun, vəzifənin hesabına ətrafına yalançı dostlar yığır. Lakin o, bu insanların əsl məqsədini anlamaqda acizdir. Onun fikrincə vəzifə adamı olmaq çox çətindir. Bütün günü qonaqlıqlarda iştirak etmək, məclislərdə tost söyləmək onu həddindən artıq yorur. Artıq tanışları da onu tanımaqda çətinlik çəkirlər. “Köhnə yoldaşları və tanışları daha Qara Qənbəri tanıya bilmiyordular. Bədəni dolmuşdur, qarnı yavaş-yavaş şişməyə başlıyordu və onu çox təşəxxüslü edirdi. Qara Qənbər hərdən bir tanış fələyə rast gələndə sir-sifətini turşudub şikayətlənərdi. “Vəzifəm çox ağırdır. Yoldaş, yorulmuşam, istəyirəm bu işdən çıxam, buraxmıyorlar... Fələlərlə bir dil ilə, qulluqçularla başqa dil ilə danışardı. Qara Qənbər böylə məsələlərdə böyük diplomat olmuşdu. Bununla da işi xod idi. Güzəranı da xoş keçirdi. Qara Qənbər paxıl deyildi, öz qohumlarını da unutmazdı.”(5, 256)

Böyük ədib ədalətə inanırdı. Çox keçmir ki, Qənbər ədalət qarşısında cavab verməli olur. “Bir gecə gecənin yarısı idi. Qara Qənbəri Çekanın avtomobili nerəyə isə aparırdı. Qara Qənbər əsirdi, bütün dünya bunun başına o halda dolanmağa başladı. Sabahı günü hamı deyordu ki, daha qudurqanlıq bitdi...”(5, 258)

Bellələliklə, yazıçı göstərir ki, insanlar etdikləri əmələ görə məsuliyyət daşıyırlar, gec də olsa bir gün ədalət qarşısında cavab verəcəklər.C.Cabbarlı oxucusunu

inandırmağa çalışır ki, heç bir var-dövlət, kağız pullar şərəf, ləyaqət və namusun yerini doldura bilməz.

Növbəti maraqlı hekayələrdən biri də "Parapetdən Şamaxı yoluna qədər" dir. Yazıçı burada öz prototipini yaratmışdır deyə bilərik. Hekayə müəllifin təhkiyəsi ilə nəql olunur. Əsərdə yağışlı bir gündə evlərinə getməyə çalışan qəzet işçilərinin başlarına gələn maraqlı hadisələrdən söhbət gedir. Yazıçının hadisələrə yumoristik baxışı da diqqətdən yayınmır. " Lakin bütün diplomatlar kimi, bizim də diplomatik danışıqlarımızın nəticəsi qətiyyən müsbət olmadı: birisinin elə indicə avtomobilinin təkərləri partlamışdı, digərinin elə bu saat ayağı burxulmuşdu, üçüncüsünün sevimli qayınanası "ispanka" xəstəliyinə tutulmuşdu, dördüncüsü isə təzə təşkil edilmiş hökumət tərkibinə nazir təyin olunmuşdu və özünə münasib ərazi tapa bilməyən hökumətin "xüsusi ərazi" düzəltməkdən ötrü torpaq sahəsi icarəyə götürmək hayına qalmışdı. "(5, 239) Qədərində, yeri gəldikcə işlədilən yumorlar əsəri daha da maraqlı edir. Həmişə olduğu kimi ictimai problemləri diqqət mərkəzində saxlayan yazıçı burada da ənənədən uzaqlaşmayıb. Güclü yağışın nəticəsində küçələri belə demək olarsa sel basır. Redaksiya işçiləri nazirlikdən başlamış adi faytonçuya qədər hamıya zəng edirlər, lakin hərə bir bəhanə uydurur, köməyə gələn olmur. Yaradıcılığında qadın obrazlarına xüsusi diqqət yetirən sənətkarın bu hekayədə yaratdığı qadınlar da maraqlı xarakterə malikdir. Tez-tez qadınların həyat tərzini, hüquqlarını, təhsili məsələsini gündəmə gətirən sənətkar qadınların psixologiyasına da yaxşı bələddir. C.Cabbarlı qadınların ictimai həyata cəlb olunması, istehsalatın müxtəlif sahələrində, mədəni-maarif ocaqlarında çalışmalarını mühüm tələb kimi irəli sürürdü. Qadınların müəyyən sənətə, peşəyə yiyələnmələrini, oxuyub təhsil almalarını, gələckdə əri ilə bərabər işləyib ailənin maddi ehtiyyaclarını təmin etmək üçün əmək sərf etmələrini zəruri sayırdı. Bunu da qeyd edək ki, yazıçının həyat yoldaşı Sona xanım xatirələrində bəhs edir ki, : " Cəfər boş vaxtlarında küçəyə çıxar, evlərinin qabağında toplaşan, kişilərlə söhbət edərdi, hətta evimizə gələn xarrat, bənna, mantyor, daşyonan... və sair sənətkarlarla uzun-uzadı danışardı. Qadınların yasxanalarda oxşamaları laylaları onu çox maraqlandırırdı."(2, 82) Bunun

nəticəsidir ki, yazıçının insanları, həyatı müşahidəsi nəticəsində unudulmaz obrazlar yaradırdı. Hekayədəki qadın obrazları da yazıçının xarakter analizi nəticəsində yüksək sənətkarlıqla yaratdığı obrazlardır. Bu qadınlar digər hekayələrdəki obrazlardan fərqlidir. Yazıçı qadınların kişilərdən daha çox sənətlərinə hörmətlə yanaşdıqlarını qeyd edir. “Bircə çarəmiz qalırdı: redaksiyada gecələmək. Özümüzü köhnə qəzet qalıqlarından rahat yatacaq düzəltməyə başladıq. Ancaq hər şeyə şəxsi münasibətləri olan qadınlar (redaksiya həmkarlarımız) buna qəti etiraz edib bildirdilər ki, özlərini Bakını basmış dəniz və okean sularına atarlar, amma azad mətbuat üstündə yatmazlar.” (5, 238). Buradan görünür ki,yazıçı həm qadınlara, onların sənət eşqinə rəğbətlə yanaşır, həm də bunu yumoristik tərzdə ifadə etməsi daha da maraqlı olur. Lakin müəllifin qadınlarla imtahanı bununla bitmir. “Əvvəl gözlərimizə inanmadıq. Sonrakı dəqiqədə isə artıq püşk atmışıq: qadınları müşayiət etmək xoşbəxtliyi, yaxud bədbəxtliyi kimə qismət olacaqdı? Hərçənd, həmin səadət bu sətirlərin müəllifinin payına düşdü, amma kişi həmkarlarıma hər ehtimala qarşı uzun müddət mütəəssiranə cavab verdim. Qadınları, – üç nəfər idi – faytona mindirməkdə redaksiyanın, mətbəənin və ekspedisiyanın bütün heyəti iştirak etdi.”(5, 239) Bundan sonra da müəllifin qadınlarla bağlı müxtəlif çətinliklər yaşayır. Lakin problemləri özünəməxsus şəkildə, onları qırmadan həll edir. C.Cabbarlı insanlar arasındakı qarşılıqlı münasibətləri, dostluq, yoldaşlığın rolunu yüksək qiymətləndirirdi. Ədibin bədii yradıcılığı ilə tanışlıqdan görünür ki, ədib yoldaşlıq münasibətlərində hörmət , qarşılıqlı məsuliyyət və yardım, həssaslıq, tələbkarlıq, bir-birini müdafiə etmək, bir-birinə məsləhət vermək, yol göstərmək kimi əsas cəhətləri vacib saymışdır. Hekayədə diqqət olunası məqamlardan biri də yol boyu onlara rast gələn müəyyən məmurların heç birinin kömək etməməsidir. Hətta yazıçı onları səhv anlayan məmurun vəzifəsinə diqqətlə yanaşdığını da dırnaq arası qeyd edir.

“Yolda rastımıza çıxan qarodovoylar şübhəli baxışlarla bu qəribə karvanı süzür, tez-tez bizi saxlayıb sorğu-suala tuturdular. Onlardan öz qulluq vəzifəsini həddən artıq səy ilə yerinə yetirən birisi isə, hətta bizə bu görkəmdə məntəqəyə getməyi

təklif etdi (guya qadınları zorla apardığımız üçün). Əlindən güc-bəla ilə qurtardıq.”(5, 242)

“Altun heykəl” məhəbbət mövzusuna həsr olunmuşdur. Məhəbbət mövzsu ədəbiyyatda ən çox müraciət olunan məsələlərdən biridir. C.Cabbarlı yaradıcılığında bu mövzunu geniş işləmişdir. Bu hekayənin mövzusu isə qarşılıqsız məhəbbətdir. Ədib burada qarşılıqsız məhəbbətin insanı nə vəziyyətə salmasını ürək ağrısı ilə göstərir. Əsərin qəhrəmanları sadə xalq içindən seçilən obrazlardır. Yazıçı hekayədə obrazların düşdükləri vəziyyətlər ilə, keçirdikləri hisslər ilə təbiət təsvirlərini, epitet, təşbehləri ustalıqla işlədir.“Xeybərinin yaxınlığındakı bulaqdan su aparmağa gələn əlvan bəzəkli, sağlam vücudlu qızlar, təbiətin gözəlliyi içərisində bu təbii gözəllər, onların azadə quşlar kimi bir-birilə qonuşub-gülüşmələri, axşam günəş dəydikcə min dürlü rənglərlə çağlayan bərraq suyun gurultusu insana bütün qəmlərini unutdurur, ixtiyarlar ruhən belə gəncləşir, eşq-məhəbbət öz-özünə insanın qəlbinə dolur, insanı bayğın edir. Burada hər ağacın kölgəsi, hər bir kol, bir eşq yuvası, bir məhəbbət aşıyanıdır. Ufaq bir budaqda iki quşun qanad-qanada sürtərək quculdaşaquculdaşa danışması tamamilə bir eşq dastanı deyilmidir?(5, 253) Və ya Müzəfferi altun heykələ bənzətməsi ilə yaratdığı inandırıcılıq onun bədii ifadə vasitələrinə nə qədər yaxından bələd olduğunu sübut edir. Hekayədə iki obrazın adı çəkilir. Bunlar Müzəffər və Ceyran obrazlarıdır. Müzəffər gənc, sağlam vücudlu, ucaboy bir oğlandır. O, Ceyranı bulaq başına gələndə izləyir, ona olan eşqini söyləməyə fürsət axtarır. Ceyran isə onu izləyən bu gəncdən ehtiyyat edir, hətta bulaq başına da gec-gec gəlməyə başlayır. Nəhayət bir gün Müzəffər Ceyrana olan məhəbbətini izhar edir. Lakin Ceyran gəncliyindən irəli gələn ürkəkliyi ilə qeyri-ciddi yanaşır. Bunun nəticələrini ciddi düşünə bilmir. Valideynləri hadisələrdən xəbərdar olub onu xilas etmək üçün bir qohumlarına ərə verirlər. Bundan sonra gənc altun heykələ bənzədilən o insanı eşq acısı tamamilə dəyişir. Vaxt keçdikcə Ceyran böyüyür, onun fikirləri, qazandığı təcrübələri onun xarakterini dəyişir. Lakin artıq səadət üçün gec idi. “Ceyran məsum günlərini xatırlamış, acı fikir və xəyalatdan qurtulmaq üçün bir axşam bulaq başına getmişdi və dilənçi qiyafəsində özünü günəşə vermiş olan bir xəstəyə təsadüf etmişdi... Bu

zaman arslan, igid Müzəffərin, vaxtilə altun heykəl kimi təsəvvür edilən sağlam vücudlu gəncin son halı idi. Həyatdan təcrübə almış Ceyran, zavallının bu hala düşməsinə məhəbbət bais olduğunu dərk etdiyindən, bu dəfə Müzəffərə rəhmi gəlmişdi. Xəstə Müzəffərin əllərini öz əllərinə alıb, bundan sonra özünün ona ömür yoldaşı olacağını vəd və Müzəffərdən əski məhəbbət naminə bu təklifdən baş qaçırmamasını rica etmişdi. Qəlbini ələ gətirmək məqsədi ilə Müzəffərin əllərini öz əlləri arasında sıxı-sıxı tutmuşdu. Sənələrlə arzusunda bulunduğu bu məhəbbət, Müzəffərin həyatının son dəqiqəsinə təsadüf etmişdi...” (5,255) Yazıçı yaradıcılığındakı metod, cərəyan rəngarənliyini bildiyimiz üçün burada da sentimentalizm ünsürlərini aşkarlamaqda çətinlik çəkmirik. Fikrimizdə Müzəffərin məhəbbət acısını, əzablarını, daxili təlatümlərinin yadda qalan olması sentimentalizm metodlarına bələd olması ilə əlaqədardır.

“ Çoçuq” hekayəsi ədibin dövrünün qabaqcıl insanlarından biri olduğunu , təhsilə , maarifə necə önəm verdiyini göstərən ən gözəl nümunələrdən biridir. Cəmiyyətin inkişafında ən böyük xidmətləri olan peşələrdən biri də müəllimlikdir. Müəllimlik müqəddəs peşədir. Əsərin əsas qəhrəmanı da gənc müəllimdir. Fikrimizcə, əsərdə obraza ad verilməməsi də yazıçının yaradıcılıq priyomlarından biridir. Sanki ədib bütün müəllimlərin belə vətənin gələcəyini, həmvətənlilərinin rifahını arzulayan insan olmasını istəyir. Bugün biz təhsildə innovasiyalar, yeni metodlaradan danışırıq. Çünki hamıya məlumdur ki, əgər bir cəmiyyət inkişaf, tərəqqi etmək istəyirsə bu yalnız kütləvi maariflənmə, savadlanma ilə mümkündür. Böyük sənətkar da həmişə fəaliyyətində bunu işıqlandırmışdır.

Yazıçının əsərdə müəllimin dili ilə irəli sürdüyü fikirlər bugün də təhsildə müzakirə olunan məsələlərdəndir. Hələ XX əsrin əvvəllərində C.Cabbarlı təhsildə çatışmayan cəhətləri müşahidə edib, ənənəvi təhsilin yararsızlığını dəlillərlə sübut etmişdir.

“– Bizdə daima çocuqlarda oxudana qarşı dinməz bir itaət yaradılmasına, oxudanların oxuyanlarda kamil, yenilməz bir qüvvət görülməsinə, çocuqlarda müəllimə qarşı bir acizlik duyğusu vücuda gətirilməsinə, bir çox müəllimlərimizin təbirincə deyəcək olursaq, müəllimə qarşı çocuqda bir etimad yaradılmasına çalışır.

Bu, doğru bir üsul deyildir: çocuğun mənliyi əzilməməli, onda bir mütəşəbbüslük yaradılmalı, hər şeyə qarşı bir arayıçılıq, bir şübhə, bir tənqid istedadı vücuda gətirilməlidir. Çocuq daima öz müəllimini bir rəqib kimi görməli, onda müəllimindən daha artıq bilmək, bilməyə çalışmaq həvəsi oyatmalıdır. Bu hal, bu qətiyyət oxuyanda ta çocuqluqdan tərbiyə edilməlidir." (5, 250)

Gənc müəllim yeni dərs üsulu təklif edir. Çünki o da bu köhnə təhsildə oxumuş onun mənfi cəhətlərini yaxından müşahidə etmişdir. Yazıçı müəllim obrazının gənc olduğunu ona " çocuq" deyə xitab etməsi diqqətdən yayınmır. Ədibin gənc nəslə olan inamı güclüdür. O, gənc nəsildən çox şey gözləyir. Sanki gənc müəllimin simasında gəncləri ürəkli olmağa, onları yeniliklərə can atmağa səsləyir. Yazıçı gənc natiqin dilində bugün də aktual olan müasir təhsil problemini qoymuşdur.

"– Biz başqaları tərəfindən hazır qanunlar bəkləməyə heç də haqlı deyilik. Biz öz mühitimizi aramalı, öz məktəblilərimizi, öz çocuqlarımızı öyrənməli, dərslərimizi onların ümumi vəziyyətinə uyğun xüsusi üsullar düzəltməliyik. Xatırlamadığım bir nəfərin dediyi kimi, bu gün Avropada bir nəzəriyyə halında irəli sürülən fikirlər bizdə bir qanun kimi qəbul edilir." (5, 249)

Gənc natiqin çıxışından fərəhlənən bir insan da var ki, o, gəncin təhsilində, dünyagörüşündə təsiri güclü olan ixtiyar müəllimdir. Yaşlı müəllim tələbəsinin nitqinə diqqətlə qulaq asır. Onu ətrafdakılara tərifləyir, sevincini hamı ilə bölüşür. Təklif olunan fikirlərin qəbul olunmamasına baxmayaraq ixtiyar müəlim tələbəsi ilə qürur duyur, onu təbrik edir. "Çocuq gözlər ilə tanış bir adam tapmaq, nə danışdığını soruşmaq, daha doğrusu, bir təqdir etmək istəyirdi. Olduqca yorğun və əzgin olduğunu ancaq indi hiss edirdi. Bu aralıq bir nəfər böyük bir gurultu ilə adamları yarıb gənc müəllimin boynuna sarıldı. "Bərəkallah, əhsən, afərin, yaxşı danışdın, əməklərimi hədərə vermədin, başımı ucaltdın", – deyə arası kəsilmədən saymağa başladı. Bu, bayaqkı Ixtiyar müəllim idi. Başının ağ tükləri arasından süzülən tər damcıları biixtiyar gözündən axan yaşlara qatışmış, tühaf görkəm vücudə gətirmişdi.(5, 251)

Təkliflər qəbul olunmasa da gəncin nitqi uzun müddət yaddaşlardan silinməyəcək.

Yazıçı bu yenilikçi, mütərəqqi  fikirlərin qəbul olunmamasını göstərməsi əbəs deyil. Ədib daim tərəqqidən ,yenilikdən, quruculuqdan danışan Sovet siyasətini tənqid edir. Belə nəticə çıxarmaq çətin deyil ki, Sovet cəmiyyətinə vəd edilən inkişaf, tərəqqi əsl mahiyyətindən uzaqdır.

Sonda əsərin məzmununa nəzər saldıqdan sonra bu əsərin tədrisi ilə bağlı bir neçə məsələyə də aydınlıq gətirək.

Mövzu: C.Cabbarlının "Çocuq" hekayəsinin məzmunu üzərində iş.

Məqsəd: -Hekayənin məzmununun mənimsənilməsi,

- Şagirdlərin müasir təhsil sistemi ilə bağlı fikirlərini öyrənmək,
- Məntiqi, yaradıcı təfəkkürün inkişaf etdirilməsi,
- Kollektivlə işləmək bacarığının formalaşdırılması.

İş forması: kiçik qruplarla iş

Metod, priyom və iş növləri: müəllimin izahı, klaster (şaxələndirmə), karusel, əqli hücum

Təchizat: Cəfər Cabbarlı. Seçilmiş əsərləri. I cild. Bakı. Şərq-Qərb. 2005

Motivasiya mərhələsi.

Bu mərhələdə mövzunun adını şagirdlərə tapdırmaq üçün müxtəlif üsullardan istifadə etmək olar. Şagirdlərə əvvəlcədən hazırlanan slayd materialı təqdim edilir. Burada birinci slayd olaraq "Azad qadın" heykəlinin şəkli təqdim olunur. Bu zaman şagirdlərə belə bir sualla müraciət olunur: Rəsmdə gördüyünüz heykəlin adını bilirsinizmi? Bu haqda nə deyə bilərsiz? Bu heykəl sizə ədəbiyyatımızdakı hansı obrazı xatırladır? O əsərin müəllifini deyə bilərsinizmi? Şagirdlər C.Cabbarlının adını çəkirlər. Burada müəllim heykəl haqqında şagirdləri bir xüsusda məlumatlandırır. Heykəl 1960- cı ildə Fuad Əbdürrəhmanbəyov və memar Mikayıl Hüseynov tərəfindən ərsəyə gətirilmişdir. "Azad Qadın" heykəlini Cəfər Cabbarlının "Sevil" pyesindəki Sevilin daşlaşmış forması zənn edilir. Heykəlrtaraş heykəllə bağlı xatirələrində bu haqda heç nə deməyib. Amma sənətşünaslar və elit ziyalı cəmiyyət heykəlin məhz, Sevilin protipi olduğunu vurğulayır. Qeyd edək ki,

motivasiya üçün C.Cabbarlının heykəlini də göstərilə bilər. Bu zaman Cəfər Cabbarlı meydanında yerləşən sənətkarın əzəmətli heykəlinin rəsmindən istifadə olunması məqsədə uyğundur. Fikrimizcə şagirdlər arasında bu heykəli tanıyanlar olacaq, doğru cavab səsləndiriləcək. Motivasiya mərhələsində aydın olur ki, bu dərs Cəfər Cabbarlı haqqındadır. Hekayənin mövzusu müəllim haqqdında olduğundan motivasiya mərhələsində belə bir üsuldan da istifadə etmək olar. Şagirdlərin diqqəti slaydda göstərilən şeir parçasına yönləndirilir. Şeir B.Vahabzadənin " Ey hörmətli müəllim" şerindən bir parça təqdim olunur. Şagirdlərə də şeir parçasından aydın olur ki, bugünki dərs müəllim haqqında olacaq.

*Ey hörmətli müəllim!*
*Hər könüldə yerin var.*
*Hər kəddə hər şəhərdə*
*Sənin meyvələrin var.*
*Əkdiyin ağacların,*
*Gülü, çiçəyi solmaz.*
*Sənin kimi dünyada*
*Barlı bağban tapılmaz.*

Şagirdlərin sənətkar haqqında fikirlərini bilmək üçün klaster üsulundan istifadə etmək olar. Bu zaman şagirdlərə belə bir sualla müraciət olunur: Cəfər Cabbarlını sənətkar kimi necə səciyyələndirmək olar? Müxtəlif fikirlər səsləndirilir. Mərkəzi dairədə Cəfər Cabbarlının adı qeyd olunur. Yeni dairələrdə isə şagirdlərin səsləndirdiyi fikirlər qeyd olunur: nasir, dramaturq, şair, tərcüməçi, rejissor, teatşünas, kinoşünas,jurnalist, aktyor. Daha sonra şagirdlərə bugün tədris olunacaq mövzunun adı açıqlanır: "Cəfər Cabbarlının "Çocuq" hekayəsi" . Hekayənin həcmcə az olduğunu nəzərə alaraq əsərin sinifdə oxusu təşkil edilir. Bunun üçün təxmini 15 dəqiqə kifayət edər. Vaxt bitdikdən sonra isə şagirdlərin əsər haqqında təəssüratlarını öyrənmək üçün "əqli hücüm" dan istifadə olunur. Şagirdlərə bu suallar ünvanlanır: Əsərdə nədən bəhs olunur? əsərin əsas qəhrəmanı kimdir, o hansı peşənin sahibidir? O məruzəsində nədən bəhs edir? Qəhrəmanın Təhsil

sistemi ilə bağlı fikirlərinə münasibətiniz necədir? Sizcə müəllifin bu mövzunu seçməkdə məqsədi nə idi?Bugün bu mövzunu aktualldırmı, bu haqda fikirləriniz. Suallar cavablandırıldıqdan sonra isə əsərin şagirdlər tərəfindən mənimsəmə səviyyəsi bəlli olur. Bundan sonra şagirdlər qruplara bölünür. Şagirdlər qarşısına belə bir tədqiqat sualı qoyulur: Müasir təhsil sistemindən gözlədikləriniz? Sizcə yeni dərs tipi necə olmalıdır? Fikirlərinizi əsərdən nümunələr gətirməklə əsaslandırın. Bu mərhələdə "karusel üsulu"nda istifadə olunur. Sinif bir neçə qrupa bölünür. Hər qrupa eyni tapşırıq verilmişdir. Tapşırığın yerinə yetirilmə vaxtı elan olunur. Qruplar işi yekunlaşdırır və müəllim elan edir ki, hər qrup öz iş vərəqini saat əqrəbi istiqamətində yaxınlıqdakı yerləşən o biri qrupa ötürsün. Qruplar vərəqi alan kimi qeyd olunan fikirlərə öz əlavələrini edir və təkrar fikirlərin yazılmasına yol verilmir. Sonda iş vərəqləri liderlər tərəfindən təqdim edildikdə əlavələrə də münasibət bildirilir. Əldə olunan məlumatlar ümumiləşdirildikdən sonra isə yaradıcı tətbiqetmə mərhələsinə keçilir. Dərsin məzmununa uyğun şagirdlərə müəllim haqqında bir şeir parçası, hekayə,aforizm və s. yazmaq tapşırılır. Bundan başqa "söz assosiasiyası" iş üsulundan da istifadə etmək olar.Burada müəllim "müəllim" sözünü səsləndirir və şagirdlər həmin sözlə daha çox bağlı olan digər sözləri səsləndirirlər.

İstər mövzu seçiminə görə, istər işıqlandırdığı məsələlərə görə yazıçının hekayələri dram əsərlərindən geri qalmır. Hekayə janrının həcminin imkanlarının əl verdiyi qədər o, bu janrda mükəmməl əsərlər yaradır. Dövrünün, siyasi təbləri nə qədər güclü olsa da yazıçı böyük fədakarlıq, cəsarət göstərib bəzi həssas mövzulara da yaradıcılığında yer vermişdir. "Əhməd və Qumru" mövzu etibarilə belə əsərlərdəndir. Qeyd edək ki, bu hekayə tədqiqatçılar tərəfindən sentimental əsər kimi qiymətləndirilir. Əsər məhəbbət xətti üzərində qurulmuşdur. Lakin yazıçı bununla kifayətlənməyib, 1918-ci il mart soyqrımı hdisəsinə də yer vermişdir. Əsərin qəhrəmanı Qumru Hacının bircə qızı idi. Atası onun sıxıntı çəkməsinə yol verməz, onu çox sevərdi. Uşaqlıqdan ərköyün böyüdülmüş, heç bir istəyi təxirəsalınmamışdır. Yazıçı Hacının simasında var dövləti olan lakin özündən kasıblara yuxarıdan aşağı baxmayan ata obrazı yaradıb. "Varlığına lüzum yox, bir

qızım var, o da bir oğlum olur”, – deyə Əhmədin elçilərini yola salmışdır. Iki gənc iki təsadüfdən sonra ilk baxışın ta sınırlarına qədər yerləşdiyi sevgi yalovları kəndilərini isidir və Hacının razılığından sonra gələcəklərini bir cənnət, kəndilərini isə birər mələk təsəvvür edib, ayrı-ayrı yakında olacaq toyu bəkləyirlərdi.” (5, 236) Lakin Mart qırğını bütün bu arzuların, xoş günlərin üzərindən xətt çəkir. Yazıçı ermənilərin törətdiyi bu vəhşilikləri yad edir, xalqının vəziyyətinə ürək ağrısı ilə yanır. 1918-1920-ci illərdə ermənilərin azərbaycanlılara qarşı vəhşiliklərindən bəhs edərkən nədənsə bugün onların Şamaxı şəhəri və Şamaxı qəzasında törətdikləri vəhşiliklərin ifşası hələ də diqqətdən kənardadır. Ermənilərin toplu halda yaşadıqları yerlərdən tamamilə uzaqda, yüzlərlə Azərbaycan kəndinin əhatəsindəki Şamaxı şəhərində ermənilərin azərbaycanlıların başına açdığı müsibətlərlə tanış olduqda dəhşətə gəlirik.Onlar onlarca Azərbaycan kəndini tar-mar etmiş, on minlərlə günahsız əhalini qətlə yetirmişlər. Şamaxıda azərbaycanlılara qarşı ermənilərin düşmənçilik hərəkətləri hələ Birinci Dünya müharibəsi başlandığı vaxtlardan özünü büruzə verməyə başlamışdır. Azərbaycanlılara qarşı onlar özlərini çox təkəbbürlü aparır, onların milli və dini heysiyyətlərini açıqca təhqir edirdilər. 1917-ci il fevral çevrilişindən sonra ermənilər daha açıq və cəsarətlə hərəkət etməyə başlayırlar. Bütün bu məlumatlar arxiv sənədlərində qorunub saxlanılır. Bir sənətkarın vəzifəsi isə xalqının başına gələn müsibətlərin unudulmasına yol verməməkdi. C.Cabbarlı belə sənətkarlardandır. Bu sadə ilk baxışdan məhəbbət hekayəsində yazıçı xalqının tarixindən önəmli bir hadisəyə yer verib. Mart qırğınının şahidi kimi törədilən hadisələrin acınacaqlı nəticələri də hekayədə belə təsvir edir:

“Böyük pəncərələri qara kömürlərə dönmüş, altun divarları matəmlərə bürünmüş Ismailiyyənin önündən keçərkən xarabalıqlara, daha doğrusu əti tökülmüş baş iskletlərinə bənzər bu möhtəşəm bina, bu canavarlığın, bu cinayətin macərasını ərz edincə, bir çox kəsilmiş yoldaşlarım və bir çox müdhiş şeylər yadıma düşdü. Müdhiş mart – deyə gözlərimi yumdum. Yürəgim, ruhum, zehnim, əqlim, hissim, düşüncəm, bir kəlmə, vücudumda nə qədər hissedici şeylər varsa, hamısı inlədi. Başım kəndikəndinə köksümə sallandı.”(5,237) Əhməd və Qumru Mart qırğınında

məhv edilən ailələrin timsalıdır. “Hər ikisinin yüzü ölü rəngi qəbul edib yalnız Qumru! – deyə inildəyib səndələyərək yıldırım mağazasının pilləsinə, eyni vaktda qız: veriniz! Veriniz ona, bən istəməm, bən keçinərəm! – deyə getmək istəyirmiş gibi döndüsə də, haman nələr düşündüsə bilməm, dönüb bərkdən ağlayaraq: “Əhməd! Atamı, anamı öldürdülər, evimizi dağıtdılar, yalnız bən qaldım” – deyə nə üçünsə bir qolunu qaldırdı. Kim bilir bəlkə də sevdiyini qucmaq istəyirdi. Amma bunu yapmadı. Daha doğrusu, yapammadı, zira yazıq Qumrunun martda bir qolu kəsilmiş, yalnız bir qolciyəzi varmış.”(5, 238)

Bu əsər bir daha sübut edir ki, yazıçı xalqının taleyinə, onun qan yaddaşına biganə qalmamış, onun faciələrini ürək ağrısı ilə qeyd etmişdir. Bir azərbaycanlı kimi millətini düşmənlərinə qarşı ayıq-sayıq olmağa çağırır. Sonralar tarix göstərdi ki, fikirləri ilə əsirləri qabaqlayan sənətkarın narahatlığı əbəs deyilmiş. XX əsrin sonlarından ermənilər öz çirkin planlarını həyata keçirməyə təşəbbüs göstərməkdədirlər. Həmin problem bugün də öz həllinin gözləyir. Düşünürük ki, belə mövzulara müraciət etmək , onun təhlilinə qayıtmaq Azərbaycanın qan yaddaşının öyrənilməsi baxımından da önəmlidir.

Yazıçıların yaradıcılığında yaşadığı dövrün dini-əxlaqi görüşlərini, ictimai, ailə-məişət problemlərini əks etdirməsi təbii haldır. C.Cabbarlının da yaradıcılığını rəngarəng edən yaşadığı dövr idi.

“Papaq”da mövzu etibarilə maraqlı əsərdir. Ədibin əsərə bu adı seçməsi də ironiyadır. Papaq qədim adətlərə görə qeyrət, kişilik rəmzi sayılır. Əsərin qəhrəmanı da bu fikirlərdən uzaq deyil. Müxtəlif hadisələr baş verməsinə baxmayaraq o tez-tez papağını yoxlayır, papağının itəcəyindən narahat olur. Bu hərəkətləri ilə də o, gülüş hədəfinə çevrilir.“Çəkmələrimin qaytanlarını sarıdım belimin qayışına, pencəyimin ətəklərini sancdım şalvarımın nifəsinə, papağımı sancdım pencəyimin qoltuq cibinə... Qorxdum, birdən iş qaçmağa müncər olar, papağım düşər. Özü cəhənnəmə, biabır olaram. Genə şapka-mapka olsa, dərd yarı idi. Mənimki xalis Buxara dərisindəndi. Deyərlər, qiryəti qoydu, qaçdı.” Obrazın dilindən verilən bu sözlər onun xarakterinin açılmasına kömək edir. İlk baxışdan bizə qorxaq insan təsiri bağışlayan qəhrəmanın dili ilə ədib məhəllə sakinlərinin,

onların çətin, problemli həyatlarına işıq tutur. Bunları edərkən yazıçı ironiyadan, yumordan istifadə edir.

Hətta burada böyük sənətkar Şeksprin "Hamlet" əsərindən məşhur sitatı gətirməklə hadisələrə yeni bir pəncərədən baxır. "– Olum, ya ölüm! Budur əsl məsələ. Nə etməli? Oğul-uşaqdan əl çəkib onları ölülərin əlində, o boğuşmanın içində qoyub şəhər içinə enmək və orada tinbaşı dəstə ilə durub "Hüseyn kürd"3 nağılını danışan milisionerlərin nağıllarına qulaq asmaq və yaxud canımı dişimə tutub o əsrarəngiz kisənin yanından keçmək, ya evə yol tapmaq, ya da biryolluq ölmək... Əvət, biryolluq ölmək bu palçığın, bu çamurun üzündən, bu işıqsız, kooperativsiz, klubsuz, yolsuz, mostovoysuz, səkisiz, milissiz və qarovulçusuz küçələrin əlindən xilas olmaq..."(5, 284)Yazıçı həmçinin Bakının baxımsız yollarını, yağışdan sonrakı vəziyyəti adi vətəndaş kimi bu problemləri yaşadığından unutmur. Bu problemi də işıqlandırır. lazımı qrumların öz işlərini görmədiklərini,insanlara qiymət verilmədiyini tənqid edir.

"Neçin şəhərin döşənmiş küçələrində yer tapmayan və bu zavallı məhləyə sığışan minlərlə ən yoxsul türk, rus, erməni işçi və əməkçilərinin, vodniklərin, qazan təmizləyənlərin, daş yonanların, qruzçiklərin, həmmalların və sairənin bu ağır halına baxan yoxdur? Neçin bunların Bakı şurasında danışan bir nümayəndələri yoxdur ki, onların dərdlərini Bakı şurasına bildirsin və desin ki, kommunxoz lığlı küçələrdə qənbər üstündən asfalt salanda bizim də bu küçədə palçığın için beş-altı daş atmayır, heç olmazsa, adamlar daşdan-daşa hoppanaraq gedə bilsinlər. O, kommunxoza desin ki, bu məhlədə yaşayanlara da müalicəxana, məktəb, klub və sairə lazımdır. Heç olmazsa, uşaqların şəhərdəki məktəblərə gedə bilməsi üçün onlara kiçicik bir yol lazımdır..." Belə ciddi aktual məsələlərə diqqət çəkən sənətkar yumordan istifadə etdiyi üçün hekayənin dili, üslubu çox maraqlı olur. Qəhrəmanın qorxaqlığı gördüyü hadisələri başqa cür qavramasına səbəb olur.

"Özümə gələ bilmirdim. O qarzinkalı arvad kim idi və nə köməkbazlıq idi? Yanımdan qaçan əlibıçaqlılar və ağ kəfənli ölülər kim idi. Hələ dalanımızdakı boğuşma, hələ atılan beşatılanlar... Kimi öldürürlərdi. Hələ dalanımızın lap ağzında atılan, ayaq üstündə duran o əsrarəngiz kisə... nə isə daşı altına qoyub oturdum və

papağımı pencəyimin qoltuq cibindən çıxarıb Hamlet kimi qabağıma qoydum və düşünməyə başladım: Özümə gələ bilmirdim. O qarzinkalı arvad kim idi və nə köməkbazlıq idi? Yanımdan qaçan əlibıçaqlılar və ağ kəfənli ölülər kim idi. Hələ dalanımızdakı boğuşma, hələ atılan beşatılanlar... Kimi öldürürlərdi. Hələ dalanımızın lap ağzında atılan, ayaq üstündə duran o əsrarəngiz kisə... nə isə daşı altına qoyub oturdum və papağımı pencəyimin qoltuq cibindən çıxarıb Hamlet kimi qabağıma qoydum və düşünməyə başladım"(5, 285) Hekayədə bir qrup kəfənli insanın qaçması da həm gülüş, həm də qorxu yaradır. Sonradan məlum olur ki, bunlar ölü deyilmiş.

"Ölü yaxınlaşdı, gördüm ölü ölü deyilmiş. Bu yazıq bizim qonşumuzdakı invaliddir ki, bir tuman, bir köynəklə oğrunun dalınca çıxıbdır. Işi anladım. Yanımdan, keçən oğru imiş. Odur ki, səmimi, yavaşca yumşaldım. Nə lazım, xətası çıxar. Olmadı belə, oldu elə..."(5, 287)  Əsərdə yazıçı işini icra etməyən polis idarələrini də satirik tənqid atəşinə tutur. Beləki baş verən oğurluqlara, cinayətlərə məhəl qoymayan idarələr müxtəlif bəhanələrlə onları başlarından edirlər. "Məlum oldu ki, iş yumruq davasına müncər olanda rayona zəng çalıb milis çağırırlar. – Kimsən? Adın nədir? Hansı kənddənsən? Anan neçə yaşında ərə gedib? Atan neçə yaşında evlənib? Hələ rayonda adam yoxdur. Gələndə göndərərik, – deyirlər. Gözləyirlər gələn olsun. Iş ağac davasına çatınca, bir də zəng çalırlar. Yenə də rayondan həmin o sözlər: Kimsən? Adın nədir? Hansı kənddənsən? Xalan qızı çarşaflı gəzir, çarşafsız? Bibin oğlunun bir arvadı var, iki arvadı... Yaxşı göndərərik..."(5, 289) Bakı küçələrinin pis vəziyyəti xəstələri , yaralıları xəstəxanaya aparmaq üçün də əl vermir.

Ümumilikdə bu hekayə quvvətli, xarakterik tiplərlə zəngin əsərdir.

Yazıçı "Aslan və Fərhad" hekayəsini 1915-ci ilin sonu 1916-cı ilin əvvəllərində yazmışdır. Birinci Dünya müharibəsi illərində Azərbaycanda kapitalizmin törətdiyi rəzalətlər , intəhasız pul hökmranlığının təzyiqi altında  inləyən , bu hökmranlığa nifrət edən , eyni zamanda bu hökmranlığı əbədi hesab edən , ondan xilas olmaq yollarını dərk etməyən insanların əhvali-ruhiyyəsini , dünyagörüşünü əks etdirir bu hekayə. Fərhadın simasında yazıçı insanda xeyir və şər qüvvəsinin mübarizəsini

göstərir. İnsan təbiətcə xeyirxahdır, şər elementlər isə insana sonradan təsir edir. Lakin insan bu şər quvvələrin onun iradəsinə hakim kəsilməsinə izin verməməlidir.

Bir ailənin faciəsi və buna səbəb olan qüvvələr hekayədə çox bariz şəkildə göstərilir.Yazıçı Aslan kimi humanist bir qardaşın himayəsində böyüyən Fərhadı xəyanətə cinayətə sövq edən səbəbləri real cizgilərlə əks etdirir. Cabbarlı insanı daim mərd qorxmaz olmağa çağırır, güclü düşmənnən mübarizə aparmaq asandır lakin insanın hiyləgər düşmən ilə mübarizəsi çətindir. Cabbarlı bu hekayədə Aslanı zəhmətkeş , mərhəmətli insan ,insan surətində göydən enmiş bir mələk adlandırır . Fərhad isə qardaşından fərqli olaraq bu xüsusiyyətlər onun üçün yaddır. O, oxumuş, savadlı ola bilər lakin insan olaraq qəddarlığı onu sadə fəhlə işləyən Aslandan cahil edir.Yazıçı çox önəmli məqama toxunmuşdur. Təhsil insanı hər cəhətdən müsbət tərəfdə dəyişməlidir.. " ..Əsla !Aslan elmli deyildi , amma insaniyyətin tam mənası ilə axırıncı pilləsinə yetişdi və hamını özü kimi zənn edirdi. Hətta Fərhad oxumuş olduğu üçün onu özündən daha mərhəmətli , insaniyyətpərvər və safdil zənn edirdi. Odur ki, Fərhadın belə bir xəyanət edəcəyini ağlına da gətirmirdi.

Məlumdur ki, Fərhad qardaşından elmli və bilikli idi. Lakin insan üçün xas olan mərhəmət ailə üzvlərinə sevgi, ona həm ata , həm də ana olan ,varlığını onun yolunda xərcləyən qardaşı Aslana hörmət, mərhəmət hissi onda yox idi. Aslan mərhəmətli və əxlaqı düzgün bir şəxs idi. Həmişə təcrübə olunsa görünər ki,insan ola bilər ki, ziyalı olsun , mədəni olsun və bununla belə pozğun bir əxlaqa malik olsun. Dərin bir ağla malik olan ,elm və bilik sahibi olan bir şəxsə demək olmaz ki, hökmən bu şəxs əxlaqən və vicdanən düzgündür. Ola bilər ki,insan aqil olsun və bilikli olsun, amma öz əql və biliyini pislik tərəfinə çevirsin."(5,200) Nümunədən də göründüyü kimi, ədib insanın fəaliyyətində şüurla davranışın , biliklə mənəvi təcrübənin vəhdət təşkil etməsini nəinki lazım bilmişdir, hətta bunu son dərəcə mühüm hesab edir, savad, biliklə yanaşı insanlığın gözlənilməsini zəruri sayırdı. Məhz qardaşına olan məhəbbəti Fərhadda yaranmış eqoizmi, riyakarlığı görməkdə Aslana mane olur.Aslan ata, anasının ölümündən sonra o, balaca bacısına da , qardaşına baxır, onları böyüdür, xoşbəxt olmaları üçün əlindən gələni edir. O, hətta

qardaşını dostları yanında təhqir edir, onu qulluqçu adlandırır. Aslan isə qardaşına o qədər etibar edir ki, onun bu hərəkətlərini də pis yozmur.

Fərhad isə qardaşının fədəkarlığına, məhəbbətinə xəyanətlə cavab verir. Aslanın daxili saflığı, Fərhadın əxlaqi naqisliyinin görünməsinə şərait yaradır və beləliklə, Fərhadın daxili eybəcərliyi bütün dəhşətləri ilə təzahür edir. Aslanın ölüm səhnəsi ən təsirli hissələrdən biridir. Son anında da Aslanın yanında bu həyatda onu qarşılıqsız sevən bacısı Züleyxa var idi.Onlar çətin günlər keçirdilər, Züleyxa bir övladının həsrəti ilə, Aslan qardaşının və arvadının xəyanəti ilə üzləşdiyi zaman bir-birilərinə dayaq oldular.

Hekayədə əxlaqı, həyata baxışı, davranışları baxımından bir –birinin tam əksi olan iki qadın obrazı da var-Züleyxa və Gülzar. Züleyxa pak, nəcib,sadəlövh bir qızdır.Onun simasında nasir Azərbaycan qadınlarının bir qisminin faciəsini əks etdirir.O, qardaşlarının maddi imkanı yaxşı olmadığından onlara yük olmamaq üçün ərinin etdiyi bütün zülmlərə dözür. Bir ana kimi oğlu Kamilə ən gözəl xüsusiyyətləri aşılayır. Gülzar isə Züleyxanın əksinə olaraq bu nəcib xüsusiyyətlərdən məhrumdur. Şər, intiqam onun iradəsini ələ keçirmişdir. Məsum insanlara zərər verməkdən onların ölümünə səbəb olmaqdan çəkinmir. Hətta bunların heç biri onu yolundan döndərmir. Amma yazıçı hər kəsin bir gün ədalətə tabe olacağını, törətdiyi əməllərinə görə cavab verəcəyini göstərir. Beləliklə bu qadın Fərhad tərəfindən cəzasını ölümlə ödəyir. Bu iki insan arasında nə qədər fərq olduğu aydın görünür. Bir tərəfdə fədakar ana, bacı olan Züleyxa , digər tərəfdə pulun, ehtirasının qurbanı olan Gülzar. Yazıçı ər və arvad münasibətlərində saflığı, vəfanı, qadının isməti məsələlərinə diqqət edir. Gülzarın ərinə xəyanət etməsini kəskin tənqid edir. Gülzarın xəyanətini eşidən qardaşlarının bu hadisəyə münasibətlərinə də yer verir. Gülzarın qardaşı Əhməd bacısının xəyanətindən, Aslanın başına gələn hadisələrdən sonra tez-tez ona baş çəkərdi. Bir gün əlinə fürsət düşəndə isə onların cəzasını vermək istəyir, lakin buna nail ola bilmir. Əhmədin dili ilə yazıçı Fərhad və Gülzarı kəskin tənqid edir.

“– Binamus bacı, namussuz qardaş, heç tələsməyin, həyatda nə qədər mən varam, ləkədar edilmiş namusumun intiqamını sizdən alacağam. Əgər intiqam almamış

ölərsəm, qoy xəlayiq desin ki, namusu ləkələnmiş bir binamus dünyadan getdi."(5, 217)

Yazıçının əsərlərində cəmiyyət, insan münasibətlərindəki, xarakterindəki nöqsanlar təsvir olunur. Əgər insan kamilləşmək istəyirsə, onda öz naqis əməllərindən qurtulmalıdır. İnsan iradəsi, mənəviyyatı buna qadirdir. Hər bir insan kamillik mərtəbəsinə çata bilər. Fərhad nə qədər xəyanətkar, vəfasız insan olsa da sonda öz əməllərindən peşman olur. Hər şey insanın mənəvi gücündən, iradəsindən asılıdır. Fərhad da belə demək olarsa, metamorfoz keçirir.Sonda pis insandan yaxşı insana çevrilir.

Bütün bu təhlil olunan surətlər, əsərlər bizə bunu deməyə imkan verir ki, C.Cabbarlı əsərləri mövzu etibarilə zəngin, rəngarəngdir. Bugün də müasir cəmiyyət bu əsərlərin aşıladığı mənəvi, tarixi, əxlaqi, psixoloji, tərbiyəvi təsirə möhtacdır.

# III FƏSİL

# CƏFƏR CABBARLI HEKAYƏLƏRİNDƏ QADIN AZADLIĞI-EMANSİPASİYA MƏSƏLƏSİ

Cəfər Cabbarlının XX əsr Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin təşəkkülündə əvəzsiz xidmətləri olmuşdur. O, görkəmli dramaturq, nasir, şair, jurnalist, tərcüməçi, kinossenarist, tənqidçi, teatrşünast, qüdrətli sənətkardır. Cəfər Cabbarlı qələmini bədii yaradıcılığın müxtəlif sahələrində sınamış, şeir, hekayə, dram, poema, libretto, resenziya, və məqalələr yazmışdır. Görkəmli şairimiz Səməd Vurğun onun haqqında belə söyləmişdir. "Cabbarlı XX əsr Azərbaycan ədəbiyyatı tarixinin ən nadir simalarından biridir. Cabbarlı öz yaradıcılığının vüsəti, sənət xəzinəsinin zənginliyi etiarilə Mirzə Fətəli Axundov və Cəlil Məmmədquluzadədən sonra XX əsr Azərbaycan ədəbiyyatının ən görkəmli simasıdır."(19, 68)Onun zəngin və təkrarsız ədəbi irsi zaman-zaman ədəbi tənqidin diqqət mərkəzində olmuşdur. Çox az yaşadığına, cəmi iyirmi ilə yaxın yaradıcılıqla məşğul olmasına baxmayaraq o, zəngin ədəbi irs qoyub getmişdir. C.Cabbarlı məhz orijinallığı , yüksək bədii ustalığı, çox şaxəli yaradıcılıq üslubu ilə seçilən sənətkarlardan biridir. Onun əsərləri əks etdirdiyi hadisələrin ictimai fəlsəfi, psixoloji mahiyyətinə, xarakterinə görə milli həyatımızın geniş bir dövrünü əks etdirir. C.Cabbarlı bütün yaradıcılığı boyu Azərbaycan qadınının hüquqsuz vəziyyətini düşünmüşdür. Bu mövzuya ədəbiyyatımızda müxtəlif dövrlərdə müraciət olunub. Hələ XII əsrdə yaşayıb-yaradan Nizami Gəncəvi yaradıcılığında qadın emansipasiyası məsələsinə rast gəlmək mümkündür. Böyük klassikimiz Füzuli və digər mütəfəkkirlərimiz qadın problemini bu və ya digər şəkildə işıqlandırmış ona, müxtəlif baxış bucaqlarından yanaşmışlar. Sonralar M.F.Axundzadə mərd, qorxmaz, cəsarətli qadın obrazları yaratmış, C.Məmmədquluzadə "Molla Nəsrəddin"in səhifələrində bu məsələni işıqlandırmış, ədəbiyyatımızda, mədəniyyəimizdə qadın emansipasiyası həllini gözləyən problemə çevrilmişdir.

XX əsrin əvvəllərində Azərbaycanda müsəlman qızların oxuması üçün "Nicat" qadın maarifçilik cəmiyyəti yaradılıb,eyni zamanda ilk qadın jurnalı "İşıq "dərc olunub. Bunun üçün cəmiyyətin ziyalıları, xüsusən, C.Məmmmədquluzadə çox çalışıb. Oxumaq –yazmaq bilməyən, qadınların başıaşağı olduğu bir cəmiyyətdə ilk qadın jurnalının çap olunması mühüm hadisədir. Bununla yanaşı 1908-ci ildə H.Zərdabinin həyat yoldaşı Hənifə Məlikovanın təşəbbüsüylə yaradılmış Azərbaycanda ilk qadın xeyriyyə cəmiyyəti azərbaycanlı zəngin qadınların topladığı ianə ilə bir qrup müsəlman qizlarının oxumasına xərclənirdi.Vətənini sevən,ziyalı təbəqə inkişafın tərəqqinin olması üçün qadınların maariflənməsinə ciddi yanaşırdılar. Lakin maarifçilik uğrunda aparılan işlər cətin idi. İlk qadın məktəbinin açılmasından 25 il sonra ölkədə əhalinin 81 faizi savadsız idi, qadınını, qızını evdən bayıra buraxmaq istəmirdi. Bu çətin mübarizə yoluna, sələflərinin fəaliyyətinə bələd olan C.Cabbarlı hələ yaradıcılığının ilk illərində qadın emansipasiyası məsələsinə toxunmuşdur. Əsərlərində yaratdığı qadın obrazları Azərbaycan qadınının ümumiləşmiş obrazıdır.

XX əsrin əvvəllərində Azərbaycanda mütərəqqi ziyalılar yetişirdi və bu ziyalılar da öz növbəsində qadın azadlığını Azərbaycan ictimai-siyasi mühitinin, azadlıq hərəkatının ayrılmaz bir hissəsi hesab edirdilər. Bu baxımdan Azərbaycan qadınlarının təhsil alıb öz hüquqlarını başa düşməkdə həmçinin, cəmiyyətin həyatında mühüm rol oynamasında onlara yardımcı olur və onları ruhlandırırdılar. Qadınlar yavaş-yavaş öz hüquqlarını şikayət şəklində də olsa da onları bu həyata məhkum edən kişilərdən tələb edirdilər. Bu dövrdə Azərbaycan qadının yalnız təhsil almaqla kifayətlənmir, eyni zamanda, savadlı qadın ordusunun yaranmasında əvəzolunmaz rol oynayır, cəmiyyətlər təşkil edir, xalqın tərəqqi yolunda aparıcı qüvvəni yetişdirirdilər. Bu isə köhnə fikirli adamlar tərəfindən qəbul edilmirdi. Məzlum qadınlar nə qədər yaxşı olsalar da, analıq ləyaqətini şərəflə yerinə yetirsələr də, zalım kişilər onları insan yerinə qoymur, öz hüquqlarından məhrum edirdilər. C.Cabbarlı əsərlərində belə düşüncəyə malik insanları kəskin tənqid atəşinə tuturdu. Böyük sənətkar qadınları köləlikdə, avamlıqda saxlayan cəmiyyətiqınayır, həm də onların ərləri və qardaşları ilə bərabər ictimai həyatın

müxtəlif sahələrində fəal çalışmalarını arzulayırdı.C.Cabbarlı hələ yaradıcılığının ilk illərində qadın emansipasiyası məsələsinə toxunmuşdur. Onun keçdiyi inkişaf mərhələlərini, müxtəlif zaman prizmalarında rəngarəng qadın obrazlarını yaratmışdır.Bu obrazlar qalereyası XX əsrin əvvəllərində qadının aləmini, dərdini, həyatını bütün ziddiyyətləri ilə əks etdirirdi. Onun yaradıcılığında qadın taleyi, hüquqsuzluğu geniş və real cizgilərlə verilmişdir.Onun dramaturgiyası ilə yanaşı hekayələrində də bu mövzunun aktuallığını görürük. Qadınlara həsr olunan hekayələrində istər onların ailə-məişət problemləri, təhsil problemləri, qadın azadlığına mane olan bütün qüvvələr kəskin tənqid atəşinə tutulur. Cəfər Cabbarlı 1924-cü ildə qələmə aldığı "Gülzar" hekayəsində mövhumatın bədbəxt etdiyi qızların tipik surətini yaratmışdır. Bu hekayə yazıçının sentimental üslubda yazdığı əsərinlərdən hesab olunur. "Məlum olduğu kimi, sentimentalizmin ideya-fəlsəfi əsasını insana, təbiətə, cəmiyyətə sensualist baxış təşkil edir. Sensualizmə görə insanın iç aləminin, qəlbinin dialektikasının, onun hiss və duyğularının açılmasına meyl daha güclüdür."(4, 32)Azərbaycan ədəbiyyatında sentimentalizm bir ədəbi cərəyan kimi geniş şəkildə araşdırılmamışdır.Ədəbiyyatşünasların fikrincə Azərbaycan ədəbiyyatında sentimentalizm cərəyanı olmamışdır. Lakin XX əsrdə yaşayan, romantik ədəbiyyatın nümayəndələri kimi təqdim olunan Abdulla bəy Divanbəyoğlu, Abdulla Şaiqin və Cəfər Cabbarlının yaradıcılığında bir sıra nümunələr sentimentalizmin örnəkləri kimi dəyərləndirilir. Bu haqda daha geniş üçüncü fəsildə bəhs olunacaq. C.Cabbarlının bu hekayəsinə nəzər salsaq əsərin qəhrəmanı Gülzar təbii, əxlaqca saf, sadə kəndli obrazıdır. Xatırladaq ki, sentimentalist yazıçılar əsərlərində əsas qəhrəman olaraq əxlaqca pozulmamış, sadə, təbii insanlara yer verirdilər.Yazıçılar bu qəhrəmanların sadəlövlüyünə, sarsıntılarına və yaşantılarına ürək ağrısı ilə yanaşır, onların insanlıq ləyaqətinə hörmətlə yanaşırdılar. Bu xüsusiyyətlər "Gülzar" hekayəsinə də xasdır. Yazıçı qəhrəmanın daxili iztirablarına, hiss və düşüncələrinə tez-tez yer verir. Əsərin baş qəhrəmanı Gülzar saf, təmiz ürəkli, kövrək bir qızdır. O, kor anası, kasıb qardaşı ilə birgə yaşayır. Əxlaqı, ədəb-ərkanı ilə bütün kənd gənclərinə nümunədir.

“ Bu, on beş-on altı yaşlarında, ortaboylu, qara gözlü, uçqun yanaqlı, sarımtraq bənizli bir qızcığazdı. Altı-yeddi ay bundan əvvəl deyər, gülər, çalar, oynar şux bir afət idi. İlk baxışda bir o qədər də gözəl görünmürdü. Lakin bir qədər diqqətlə baxdıqda onda başqa bir gözəllik görmək mümkündü... Baxışları altına düşən hər kəsi ildırım kimi sancan iri, qara gözləri, bu qara gözlər üstündəki incə, uzun qaşları, qanı axacaq qədər qırmızı, çiçək yarpaqları qədər zərif, incə və titrək dodaqları, hətta ağzının böyüklüyü və siması arasındakı incə bir tənasüb, - onu seyr edən hər bir kəsdə anlaşılmaz bir həyəcan oyadırdı.Xüsusilə, əlində bir çomaq, dünya malını təşkil edən iki keçisini dağdan endirərkən, dağınıq saçları, oynaq və şux görkəmi ilə elə ilahi bir heyət təşkil edirdi ki, bu gözəlliyə qarşı kimsə dayanmaz, pərəstiş etməyə bilməzdi.”(5, 259)

Amma bir gün hər şey onun həyatında alt-üst olur, fəxr etdiyi nə varsa əlindən zorla alınır. Kənddə yüksək ismət, namus mücəssəməsi olan Gülzar fəlakətli bir gecəni –namusuna təcavüz olunan gecəni yaşamaq məcburiyyətində qalır.

Paklığı, məsumluğu ilə dillər əzbəri olan Gülzarın son ümidi, pənahı Allah və köhnə qabıqlı  Qurandır. Daxilində təbəddülatlar keçirən Gülzar aqibətinin necə olacağını bilir, bununla belə ümidini üzmür, bütün varlığı ilə Allahdan və Qurandan kömək diləyir.

“Hətta qızlardan bir neçəsi maraqlanmış, soruşmuş və cavab kimisi bu zavallı qızcığazın öz nişanlısını sevmədiyindən, kimisi tərsinə olaraq, çox sevdiyindən və sevincindən ağladığını, kimisi də "adətdir", "qızlar gəlin gedərkən ağlarlar", - deyə yenidən özlərini bir susmaz gurultuların ağuşuna atırdılar. Lakin kimsə bu öksüz yavrucuğun ruhuna girə bilmir, oradakı cəhənnəm kimi coşan müdhiş iztirabları, kiçik vücudunu sarsıdan, ürəyini, duyğularını, bir kəlmə, bütün varlığını çeynəyən dəhşət və fəryadları görə bilmirdi. Yalnız o özü bunları görür, hiss edir və əski qabıqlı Quranını bağrına basaraq: "Ey Quran, ey Quran sahibi, sənə pənah gətirmişəm", - deyə için-için ağlayır, göz yaşlarını tökürdü... ”(5, 259)Toy günü başına gələn bədbəxt hadisəni  nişanlısı Mənsura danışır. “Mənsur düşünürdü. Sanki bu sözlərin doğruluğunu Gülzarın üzündə oxumaq istəyirmiş kimi, bıçaq kimi iti baxışlarını onun üzünə dikdi: önündə iki uçqun, süzgün göz gördü ki,

məsum baxışlarında odlu bir fəryad inləyir, tam dərinliklərində bir doğruluq, bir səmimiyyət, bir paklıq, bir günahsızlıq gülümsəyirdi. Gülzarın iki damcı göz yaşı yuvarlanmış, solğun yanaqlarında durmuşdu; indi dodaqları hənuz əsəbi bir həyəcanla titrəyir və bütün bu həyəcanlarla, bütün bu solğunluqlarla Mənsur qarşısında pak və olduqca gözəl bir qız görürdü. Bu sevimli qızın məsum ruhuna toxunmaq, qəlbini qırmaq, incitmək, heç də insafdan deyildi. O, təbiətin azad qoynunda bəslənmiş bir çiçək idi ki, ruzigarın xəfif bir ağırlığından solacaq, töküləcək, məhv olub gedəcəkdi... Halbuki o, ən tutqun bir həyati süslədə bilər, həyatın ən dərin qaranlıqlarını bir səadət şəfəqilə işıqlandira bilərdi. Xüsusilə bu dəqiqədə Gülzar elə bir görünüş almışdı ki, ona kimsə acimaya bilməz. Eyni zamanda onun bu vəziyyəti ilə aldığı məhzun bir gözəlliyə qarşı kimsə pərəstiş etməyə bilməz, onu sevməyə bilməzdi. Bəli, Gülzar kim olursa olsun, indiki dəqiqəsində gözəl, sevimli, ən pak bir qızcığaz idi.”( 5, 269)Sanki döyülən qapı onu bu düşüncələrdən ayırdı. Mühitin həqiqətləri ilə üzləşməyə məcbur oldu.

Burada Mənsurun birdən-birə çöhrəsi dəyişdi. Çox dərin bir yuxuda imiş kimi diksindi. Bütün düşüncələri alt-üst oldu, sanki yeni bir şeylər xatırladı: "Adətən, qızlar belə deyir, and içirlər". O, çox eşitmişdi. O, başqalarına çox gülmüş, istehza etmişdi. "Bəlkə də o adam həmin kəndlilərdən biridir?.. Bəlkə də Gülzar yalan deyir?.. Bəlkə də tanıyır, demək istəmir?.. Bəlkə də bir neçə nəfərdirlər?.. Yəqin kənd içinə çıxarkən, ona baxıb gizlincə güləcəklər. İndi yengəyə nə söyləyəcəkdir?” Burasını heç düşünməmişdi. “Bəli, bu qız o qədər hiyləgərmiş ki, hər işi görmüş, eyni zamanda özünü pak qələmə vermişdir". Bir dəqiqədə bilməm nə qədər taqsir onun fikrindən keçdi; nədənsə bir az əvvəl bunların heç birisi fikrinə gəlmirdi.(5, 269)

Mənsur ona inanmır, onu namussuz, üzüqara adlandırıb qovur. Gülzar mövhümatın, vəhşi patriarxal adətlərin qurbanı olur. Gülzarı bürüyən fəlakətin səbəbi onun günahsızlığı və o dövrün insanlarının vəhşiliyi, azğınlığı ilə əlaqələndirilir.Bu kiçik qızcığazın keçirdiyi iztirablar, sarsıntılar Azərbaycan qadınlarının yaşadığı ən böyük faciələrdən, fəlakətlərdən biri idi. Qadınların həyatını bütün gerçəkliyi ilə əks etdirən sənətkar hər daim rast gəlinən qadınlara

qarşı zorakılığı tənqid etmişdir. Bu hekayədə də bədbəxt qızların acı taleyi əks etdirilmişdir.

Görkəmli cabbarlışünas Asif Rüstəmlinin "Gülzar" hekayəsi haqqında fikirləri çox maraqlıdır.O, hekayəyə tam fərqli bir prizmadan baxmışdır.

"Azərbaycanın müstəqilliyinə təcavüzü, işğal faktını Sovet dönəmində yüksək sənətkarlıq və böyük cəsarətlə ilk dəfə bədii ədəbiyyata gətirən də Cəfər Cabbarlı olmuşdu. "Bu baxımdan onun "Qızıl qələm" jurnalının 1924-cü il 3-cü və 4-cü saylarında çap olunan "Gülzar" hekayəsi xarakterikdir və ilk baxışdan "zavallı talelər" silsiləsindən realist mənzərə ovqatı yaratsa da, fikrin alt qatı rəmzlər sistemi ilə zəngindir. Müəllif Gülzar adını da əsərinə sərlövhə olaraq təsadüfi seçməmişdir. Hekayədəki təbiət hadisəsini cəmiyyətdəki ictimai-siyasi hadisələrin bədii əksi də adlandırmaq olar. Hadisələrin inkişafına diqqətlə yanaşdıqda müəllifin əsərdə 1920-ci il 27 aprel gecəsini təsvir etməsi şəkk-şübhə doğurmur. Bədii ədəbiyyatda geniş işlədilən "gülzari-vətən" deyimini yada salsaq, C.Cabbarlının eyniadlı hekayəsində də Gülzar - vətən, onun istiqlalının rəmzi kimi verilmişdir."

"Gülzar" da inamın doğurduğu aldanış, yetimliyin, məhrumiyyətlərin qadınlar üçün törətdiyi bədbəxtliklər ön plana çəkilirdisə, "Dilbər" hekayəsində qadınların təhsili, hüquqsuzluğu problemi diqqət mərkəzindədir. Yazıçı burada məktəbdə oxuyan ,gələcəkdə həkim olmaq istəyən Dilbərin həyatını əks etdirir. Zavallı Dilbərin gələcəyə olan arzularının qarşısını mövhumatdan hörülmüş divar kəsir. Hekayədə Həsən kişi qızının oxumasını istəyən, onu bu həyatda güclü görmək istəyən ata obrazıdır. O, yaşadığı dövrdə təhsilin önəminin fərqindədi, qızını oxutmaq, onu savadlı, cəmiyyətə xeyirli biri kimi görmək onun ən böyük arzusudur. " Filani... o ki var, avam... mənim kimi heyvan, o heç... Bizim daha vaxtımız keçmişdir. Dünyaya heyvan gəlmişik, heyvan da gedəcəyik. Bundan sonra avam adam bir pula dəyməz. Mən əhd eləmişəm, günümə bir gün qalmış o uşağı oxudacağam. Pul bir şey deyildir. Adam gərək dünyada yaxşı ilə yamanı bilsin, - deyə Həsən kişi elmin faydasını anlatmaq istəyir, ancaq deyə bilmirdi."( 5, 276)Lakin Həsən kişi cahil,geri düşüncəli insanlar qarşısında təkdir.Hər kəsi özü

kimi dürüst olduğuna inanır, verilən sözlərə aldanıb, onların əsl simasını görmür. “Ay Həsən kişi, daha köhnə kəndə təzə dəb qoymayacaqsan ki... Maşallah... Allah saxlasın, uşaq da yaşa-boya dolmuşdur... Qız xeylağını evdə çox saxlamaq da bir şey deyildir. Mirzə Kərim də, Allaha şükür, özgə deyil, özün yaxşı tanıyırsan... Allah xeyir versin...”(5, 276)

Beləliklə Həsən kişi borcunun qarşılığında qızını Mirzə Kərimə ərə verməyə məcbur olur. Həsən kişi günahkar olsa da bütün bəlalar yoxsulluqda, kasıbçılıqdadır. Dilbəri ərə verərkən təhsil alması üçün şərt kəssə də yoxsulluq bir ata tək qızının hüquqlarını müdafiə etməyə imkan vermir. Cabbarlı ilk hekayələrində əsasən maarifçilik görüşlərini də əks etdirmişdir. Yazıçı hekayədə eyni zamanda yalançı din xadimlərini də ifşa etmişdir. Kəbin yaşına catmamış qızlara min bir hiylə ilə kəbin kəsilməsi o dövrdə çox rast gəlinən haqsızlıqlardan biri idi. “Qızın yaşı dekret yaşına çatmamışdı. Zaqs üçün o yandan-bu yandan kağız düzəldi. Axund kəbin kəsdi. Dilbər atası ilə, bacısı ilə və dilsiz-ağızsız anası ilə vidalaşıb ər evinə getdi.”(5, 278)

Əsərdə ədib qızların zorla ərə verilməsi məsələsinə toxunur, buna qarşı cıxır, öz etirazını bildirir. Yalançı din xadimləri öz vəzifələrindən istifadə edib, rüşvət qarşılığında nikah yaşına çatmayan qızlara kəbin kəsirdilər. İslam dinində “Qurani Kərim” də qadınlara üstünlük verildiyi halda bu heç də olduğu kimi təqdim olunmur. Şəriəti təmsil edən yalançı din xadimləri onu özlərinin qəbul etdikləri, maraqlarının mənbəyi kimi təqdim edirdilər. Böyük yazıçı belə axundların din şəriət haqqındakı təsəvürlərini tənqid edir, onları kəskin tənqid atəşinə tuturdu. Yazıçı yalançı ruhanilərin pula satıldığını, canilərlə əlbir olduğunu, maarifə qarşı çıxdığını, cəhalət və nadanlığa rəvac verdiyini bu hekayəsində də inandırıcı boyalarla təsvir etmişdir. Bu insanlar fərqində də olmadan neçə-neçə qadınların məhvinə səbəb olmuşlar.

Dahi sənətkar insanların bəd əməllərinin, pis tərbiyənin, onların düçar olduqları faciələrin səbəbini savadsızlıqda, cəhalətdə görür. Hekayədə dövrünün cahil, mövhümatçı təbəqəsinə görə ziyalı sayılan Mirzə Kərim əslində həqiqi elmdən, təhsildən uzaq şəxsdir. Dilbərlə evlənəndən sonra Mirzə Kərimin qadının təhsil

almasına , inkişafına olan həqiqi münasibəti oxuyucuya aydın olur. Dilbərin həyat tərzi Azərbaycan qadınlarının çəkdiyi əzabların ən bariz nümunəsidir.

Zavallı Dilbərin vəziyyəti evlənəndən sonra çox ağır olur. O şən, həyat dolu qız günü-gündən solur.Yazıçı kinayə ilə Mirzə Kərimi “yaxşı adam” adlandırır. Mirzə Kərim altı yüz manat borc hesabına Həsən kişinin qızını alıb incidir, təhsilinə mane olur. Sonda isə bu zavallı qızı intihara məcbur edir. XX əsr olmasına baxmayaraq bu cəmiyyətdə qızın təhsil alması önəmsiz, hətta xəcil bir vəziyyət hesab olunurdu. “Məktəb” sözünü dilə gətirmək, əlinə qələm almaq qadın, qız üçün ən böyük qəbahət sayılırdı.Yazıçı Molla Gülsümü simasında bunun bariz nümunəsini yaratmışdır. Ədib belə təzyiqlərə məcbur qalan qızların ümumiləşmiş obrazını isə Dilbərin şəxsində yaratmışdır. Ailədə, cəmiyyətdə olmazın məhrumuyyətlərə məruz qalan bu qadınlar çıxış yolunu, azadlığı ölümdə görürdü.Yazıçı “Gülzar” və “Dilbər” hekayələrində qadın hüquqsuzluğunun faciəsini əks etdirir. Zavallı qadınlar ölüm ilə bu zorakılıqlara qələbə çalmaqla özlərini mənən azad hiss edirdilər. Hekayənin sonunda yazıçının Dilbəri “ölülər məzarlığı” adlandırdığı evdən qurtarması məhz bununla əlaqədardır. Dilbərin faciəsində cahilliklə yanaşı, yoxsulluq da mühüm rol oynayır.

“ Dilbər” hekayəsinin məzmunu üzərində işi belə qura bilərik.

Mövzu: C.Cabbarlı “ Dilbər “hekayəsinin məzmunu üzərində iş

Məqsəd: -hekayənin məzmununun mənimsənilməsi;

-şagirdlərin “qadın azadlığı” , “gender bərabərliliyi” haqqında təsəvvürlərinin zənginləşdirilməsi;

-məntiqi və yaradıcı təfəkkürün inkişaf etdirilməsi;

-kollektivlə işləmək bacarığının formalaşdırılması.

İş forması: kiçik qruplarla iş.

Metod, priyom və iş növləri: əqli hücüm, müəllimin izahı

Təchizat: C.Cabbarlı “Seçilmiş əsərləri” IV cilddə, I cild, Bakı 2015.

Motivasiya mərhələsi. Bu mərhələdə mövzu haqqında şagirdlərdə təsəvvür yaratmaq üçün onlara slayd təqdim olunur. Slaydda "Molla Nəsrəddin" jurnalında dərc olunan bir karikatura nümayiş olunur. Şagirdlərə belə bir sual ünvanlanır:Rəsmdə nə görürsünüz? Sizcə müəllif bu rəsmlə nəyi izah etməyə çalışır?

Şagirdlər uyğun olaraq rəsmdə müsəlman qızların təhsil alması ilə bağlı problemin işıqlandırıldığını qeyd edirlər. Bundan sonra müəllim dərsin mövzusunu elan edir:" Mövzumuz C.Cabbarlının " Dilbər" hekayəsi olacaq." Bu hekayə XX əvvəllərində qadınların təhsil hüququnun tapdalanması,qanunsuz nikah, cəmiyyətdə qadınların rolu və s. kimi məsələlər işıqlandırılır.

Tədqiqat sualı olaraq "Sizcə XX əsrin əvvəllərində qadınların cəmiyyətdə rolu, qarşılaşdığı problemlər nələr idi?" sualı şagirdlərə ünvanlanır. Fərqli fikirlər səsləndirilir.Tədqiqat aparmaq üçün əsərin məzmunu ilə tanış olmaq lazımdır. Hekayənin oxusu sinifdə təşkil edilir. Hekayə həcmcə az olduğundan 15 dəqiqə vaxt kifayət edər. Bu müddət ərzində şagirdlər hekayənin məzmunu ilə tanış olurlar. Vaxt bitdikdən sonra tədqiqat aparmaq üçün şagirdlər qruplara bölünür və iş vərəqləri paylanılır.

Birinci qrupun iş vərəqi:

- Yazıçının təsvir etdiyi cəmiyyəti necə səciyyələndirmək olar?
- Yazıçının obrazlara, əsas hadisələrə münasibəti.
- Yazıçı XX əsrin əvvəllərində qadın azadlığına mane olan qüvvələri işıqlandıra bilmişdirmi?

İkinci qrupun iş vərəqi

- Dilbər obrazını təhlil edin.

-Onun xarakterində başlıca cəhətlər.

-Onu intihara məcbur edən nə idi?

-Dilbərin başqa carəsi var idimi?

Üçüncü qrupun iş vərəqi:

- Mirzə Kərim obrazını təhlil edin
- Sizcə yazıçı onu "yaxşı adam" adlandırmaqda məqsədi nə idi?

- Onun Həsən kişidən borcunun əvəzinə qızını almasına münasibətiniz?

Dördüncü qrupun iş vərəqi:

- Həsən kişi obrazını təhlil edin
- Onu günahlandırmaq olarmı?
- Həsən kişinin qızını ərə verməsinin səbəbini nə ilə bağlayırsınız?
- Sizcə Həsən kişinin başqa çarəsi var idi?

Beləliklə tədqiqatın aparılması mərhələsi başlayır. Hər qrup öz işlərini fərqli şəkildə qurur. Elan olunan vaxt bitdikdən sonra şagirdlər liderlər vasitəsi ilə tədqiqat işlərini təqdim edirlər. Tədqiqatda əldə olunan məlumatlar ümumiləşdikdən sonra qazanılmış biliklərin müzakirəsi və formalaşdırılması üçün müəllim tərəfindən müzakirə üçün hazırlanan suallar şagirdlərə ünvanlanır bu mərhələdə müəllim "əqli hücüm" iş üsulundan istifadə edir. Müzakirə üçün təqdim olunan suallar aşağıdakılardır:

1. Yazıçı XX əsrin əvvəllərində təsvir etdiyi mühit haqqında nə deyə bilərsiniz?
2. Sizcə bugün cəmiyyət bunlardan arınmış hesab oluna bilərmi?
3. Əsərdəki dövr ilə bugünümüzü müqayisə edin?

Daha sonra yekun nəticə uçün ümumiləşdirmə aparılır və meyar cədvəli vasitəsilə şagirdlər qiymətləndirilir.

Yaradıcı tətbiq etmə kimi qadınlara həsr olunan aforizmlərdən bir neçəsini yazmaq və ya şagirdlərin öz lakonik fikirlərini yazmaq təklif olunur.

"Dilarə" hekayəsində balaca qızını oxutmaq istəyən atanın faciəsi əks olunub. Belə ki qızını məktəbə yazdıracağı günü səbirsizliklə gözləyən ata gözlənilməz hadisə nəticəsində şikəst olur və qızı üçün arzuladığı gələcək bəlkə də tamamilə məhv olur.

"Küçədən, müəllimləri başda olmaq üzrə, təmiz geyimli, gülərüzlü kiçik-kiçik qızlar, uşaqlar böyük bir intizam və əzəmətlə haraya isə gedirlərdi. Bəşir durdu, baxdı: nə qədər də dinc, gözəl, təmiz, sevimlidirlər!.. Qızını xatırladı: "Zavallı ayaqyalın, köhnə, çirkli bir köynəklə gəzir. Bu cür geyinərsə, belə görünərmi? Dilarə bunlardan da yaraşıqlıdır. Belə geyinərsə, lap gözəl görünər... O

da bu uşaqların arasında olsaydı, nə olardı?" (5, 272.)Cabbarlı nə qədər qadınların azadlığının əlindən alındığı, onların olmazın iztirablarla qarşılaşdığı bu dövrü tənqid etsə də, belə ataların da olduğunu fəxrlə yazırdı.Bəşir obrazı dövrün kişilərinə nümunə ola biləcək obrazdır. Çox kasıb həyat tərzi keçirən Bəşir borclarını ödədikdən sonra artıq qalan kiçik məbləğlə qızına məktəbə getmək üçün bir cüt çəkmə, bir dəst paltar alır. Bu onun mərhəmətli, fədakar ata olduğunu göstərir.

"Böyük bir zəhmətlə Dilarəni öz əli ilə geyindirdi. Çıxdılar, Evdən beş-altı addım ayrılmışlardı. Dar küçə elə palçıq idi ki, keçmək mümkün deyildi. Bəşir tez-tez Dilarənin çəkmələrinə baxır, kiçik bir palçıq ləkəsi qanını qaraldırdı. Bir qədər keçincə, 4-cü Təzəpir dalanında yol büsbütün kəsilməz oldu. Bəşir çarəsiz qalıb, Dilaranı qucağına aldı, 2-3 addım getməmişlərdi ki, zavallı Bəşirin ayaqqabısı palçığa batdı. Ayağını çixarmaq istərkən, birdən büdrəyib üzü üstə yerə çırpıldı. Artıq uşaq da palçığa bulaşmış, özü də dizindəki ağrının şiddətindən tərpənməz bir hala gəlmişdi. Böyük bir şüşə ayağına batmiş, qan axmağa başlamışdı. Ölə-ölə evə qayıtdılar. "(5, 274)

Bəşirin adi palçıqçı olmasına baxmayaraq təhsilin vacibliyini başa düşməsi,qız, oğlan, övlad ayrıseçiciliyini etməyib qızını məktəbə aparmaq üçün hər çətinliyə sinə gərməsi təqdirə layiq xüsusiyyətdir.

"İyirmi gündən sonra zavallı Bəşiri evə gətirib, kirli yorğan-döşəyə saldılar. Ayağı artıq bir o qədər ağrımırdı, çünki dizdən yuxarı qılçasını kəsmişdilər.. "Ox... bundan sonra bu zavallıların günü nə olacaqdır?" Bəşir utancaq gözlərini bir tərəfə qaçırtdı. Bu aralıq baxışları taxçada qoşa qoyulmuş çəkmələrə ilişdi. Birdən-birə nə isə xatırlayaraq, özünü saxlamayıb, hönkürtü ilə ağlamağa başladı... Ox, səadət nə qədər yaxın idi!.. Lakin...."(5,276)

Lakin hekayənin sonu müsbət sonluqla bitmir. Cabbarlının yaratdığı bu müsbət, fədakar ata obrazı məqsədinə çata bilmir. Xatırladaq ki, Cabbarlının əsərlərində bədbinlik onun yaradıcılığının ilk dövrü üçün xarakterikdir.Yazıçının əsərlərində

maarifçi düşüncə ilə mühitin, ictimai problemlərin , maddi çətinliklərin toqquşması yaradıcılığına xas xüsusiyyətlərdən biridir.

Azərbaycan mədəniyyətinin, teatrının tərəqqisi üçün çalışan, teatr səhnəsində Azərbaycan qadınlarının fəal iştirakını arzulayan C.Cabbarlı 1918-1920-ci illərdə ADR dövründə qadınların incəsənət tarixində oynadığı rolu yüksək qiymətləndirirdi. Çar hökuməti illərində isə köhnə fikirli insanlar qadınları teatr səhnəsinə buraxmır və teatra gedən qadınlara yaxşı nəzərlərlə baxmırdılar.Beləki belə bir mühitdə yalnız yuxarı təbəqənin nümayəndələrinin xanımları, bacıları teatra gedə bilərdilər.Bütün əsərlərində qadın hüquqsuzluğuna etirazını bildirən yazıçı bu məsələni də əsərlərində işıqlandırmışdır.Böyük sənətkar Azərbaycan qadınlarının teatr və kino səhnəsində taleyini, onların səhnə aqibətini əks etdirən əsərlər də yazmışdır.Beləki müəllifin bu mövzuya həsr olunmuş "Oqtay Eloğlu" və "Dönüş" pyeslərini misal çəkmək olar.1934-cü ildə yazmış olduğu "Gülər" hekayəsi də mövzu etibarilə "Dönüş" əsərini xatırladır.Lakin burada teatrdan deyil, kino üçün aktrisa axtarışından bəhs olunur.Ədib "Gülər" hekayəsini yazdığı illərdə "Almaz" və "Sevil" ssenariləri üzrə filim çəkilişləri üçün azərbaycanlı qız, aktrisa axtarırdı. Bu işdə yaxından iştirak edən yazıçı bütün çətinliklərə baxmayaraq azərbaycanlı qızların teatr səhnəsində və kinoda parlayacağı günlərin yaxın olduğuna inanırdı.

O, kino və teatrda çalışanlar haqqında gəzən söz-söhbət və pis fikirlərə, tərəddüdlərə, şübhələrə etiraz səsini ucaldır, cəmiyyətdəki mövhümatı,geriliyi tənqid edirdi.Hekayənin qəhrəmanı Gülər də istedadlı, kino və teatra can atan 16-17 yaşlarında gənc bir qızdır. Hekayədə təsvir olunan kino işçisi yazıçının prototipidir. Bu obraz vasitələ biz ədibin bir kino işçisi, teatrşünas kimi fəaliyyətinə, bu yolda çəkdiyi əziyyətlərə qısa da olsa nəzər sala bilirik. "Kino tamaşaçıları bu bircə qızın da azərbaycanlı olmadığını öyrənincə, nə düşünə bilərlər? İkicə gün də gözləyin, mən azərbaycanlı qız taparam,-dedim.

Rejissor razı oldu.

Şəhərə düşdük. Şəkildə çəkilməyə razı olan qızlar gözəl deyildi. Az-çox gözəl olan qızlar da razı olmurdu, daha doğrusu onları qoymurdular.”(5, 294) Yazıçı hekayənin ilk sətirlərindən bu axtarışın müsbət nəticə ilə bitməyəcəyinə işarə edir. “Bizə bir adres verdilər, “orada gözəl bir qız yaşayır”, - dedilər. Getdik. Qapını döydük. Açdılar. Bu, mənim Gülər ilə olan ilk görüşüm idi. İlk baxışda mənim diqqətimi özünə topladı. Bu, demək olar ki, faciəmizin başlanğıcı idi.”(5, 294) Əsərdə iştirak edən digər bir obraz Məryəm kinoya çəkilmək təklifini sevinclə qarşılayır. Lakin atası susmaqla, qonaqlarla üzləşməməklə öz etirazını bildirir.

“-Ata evdə yoxdur, axşam soruşaram, sabah gələrsiniz, hər nə deyərsə sizə deyərəm.Ya istəsəniz özü ilə danışarsınız.” Beləliklə ədib Məryəmin simasında qızların sərbəst, azad olmadığını, ailədən, xüsusilə atadan asılı olduğunu qabarıq şəkildə nəzərə çatdırır. Bundan sonra kino işçiləri Gülərin həvəsli olduğunu görüb sevinirlər.
-İstəsəniz mən gələrəm. Mən məktəbdə də xırda səhnəciklərdə oynamışam, - dedi, - o gəlməzsə, mən gələrəm, -deyə əlavə etdi və gülümsər gözlərini Məryəmdən qaçıraraq, cavab gözləyirmiş kimi mənə dikti.” (5, 295)Lakin öz istəyinin olmasına baxmayaraq nişanlısı Kamal onun istəyini qırır, bacarığını öldürür. Onu canlı həyatdan, vuruş səhnələrindən qoparıb, dörd divar arasına salır. Beləliklə inqilabdan sonrakı illərdə də qadınların azad olmadığını, öz hüquqlarından məhrum edildiyini görürük. Cəfər Cabbarlı Gülərin simasında qadınları mətbəxdən, dörd divarın arasından çıxardaraq,ictimai həyatda onların fəallığını artırmaq istəmişdir.O, səhnədə azərbaycanlı qızları da görmək istəyirdi.Bu obrazlar azərbaycanlı qadınların həyatını, onların hislərini əks etdirirdi, bunu tamaşaçıya çatdırmaq üçün azərbaycanlı qızlara səhnədə ehtiyac var idi.Gülərin nişanlısı Kamal da əvvəlcə bunun fərqində olan biri kimi özünü göstərirdi. “Bilirsiniz, sizin dedikləriniz doğrudur, əlbəttə, başqa xalqlar öz səhnələrində iştirak etdikləri kimi, bizim də qızlarımız etməlidirlər. Ancaq onun mühiti ilə bizim mühit arasında fərq vardır.Mənim heç bir sözüm yoxdur, mən məmnuniyyətlə razı olaram.Mənim atam maarifpərvər adam olmuşdur.- Kamal barmağı ilə divardakı bir fotonu

göstərdi.Mən biixtiyar şəklə baxdım.Bahalı bir çərçivədə 50 yaşlarında gözəl,ziyalı paltarı geyinmiş bir kişi şəkli vardı.

_Anam 25 il bundan əvvəl çadrasız gəzmiş və qadınlar arasında maarifi yaymışdır. Ona görə də mən belə bir mədəni iş əleyhinə ola bilmərəm."(5, 298)

O, kino işçilərini Gülərin bu işə razı olmadığına inandırmağa çalışır, lakin onların israrını görüb əsl simasını göstərir. Nişanlısının kobud rəftarına görə Gülər qonaqları evə dəvət etdiyi üçün peşman olur.

"Bilirsən yoldaş nə var?- deyə Kamal sərt bir deyişlə sözümü kəsdi: - Uzun danışmaq lazım deyil.Mən özüm firqəçiyəm,özüm də raboçi, bu da mənim çəkmələrim...-Burada Kamal sağ ayağının zorba çəkməsini qaldırıb, stol üstünə qoydu və Güləri göstərərək.._Bu mənim nişanlımdır,- dedi.- Mən öz arvadımı nə səhnəyə, nə kinoya, nə də başqa-başqa yerlərə buraxmaram, vəssalam,Şüd-tamam." (5, 300)Belə düşüncəyə malik insan çox idi.Bunun üçün vaxt lazım idi.

Həsənova Rəna bu hekayədə bir məqamı da işıqlandırmışdır. " Əsərdəki bir məsələyə də diqqət yetirək. Burada müəllif Gülərlə Kamalın yaşlarında da bir təzad olduğuna işarə edir. 16-17 yaşlı Gülər inqilabdan əvvəl olduğu kimi özündən böyük 28 yaşlı Kamalla nişanlanır. Bununla da C.Cabbarlı yenə də qadınların ailə qurduqda yaş və səviyyə baxımından sərbəst seçim hüquqlarından məhrum olduqlarını təsvir edir və yaş fərqindəki ziddiyyətlərin dünyagörüşünlərindəki paradoksu üzə çıxardığını əks etdirir."(19, 119)

Yazıçı bir tərəfdən qadının elmə, təhsilə, inkişafa, tərəqqiyə doğru addım atdığını təsvir edir, alqışlayır, digər tərəfdən isə cəmiyyətin bunu yaxşı qarşılamadığını, daha doğrusu, qadın öz hüququnu bilərsə, onu qula, köləyə çevirmək çətin olduğundan qadının oyanmasını qəbul etmək istəmədiklərini əks etdirmişdir.Əgər qadın öz hüququnu alarsa, kişilər onlarla insan kimi rəftar etmək məcburiyyətində olu ki, bu da öz əliylə öz dizinə balta vurmaq deməkdir.

Bu əsərlə C.Cabbarlı Azərbaycan sənətinin inkişafında yalnız kişilərin deyil, Azərbaycan qadınlarının da böyük rol oynadığını əks etdirir. XX əsrin əvvəllərində cahil insanlar tərəfindən daim məsxərəyə qoyulan, təqib edilən aktyorlar az deyildi.

Belə bir şəraitdə qadının səhnəyə gəlməsi- bu özü böyük bir inqilab idi. Məhz belə bir inqilab Azərbaycan qadınlarının şücaəti, cəsurluğu sayəsində baş verdi.

C.Cabbarlının "Bakı" adlandırdığı sonralar M.Arif tərəfindən "Firuzə" başlığı altında nəşr olunan hekayədə isə Gülərin tam əksi olan şən, sərbəst, şaqraq Firuzə və Züleyxa obrazları ilə qarşılaşırıq. Gülərdən fərqli olaraq Züleyxa öz nişanlısı, hətta qayınatası, qardaşı Məmmədlə davranışında tam sərbəstdir. "Bəlkə də bir qədər bayağıdır."(19, 147)

"T.Məmmədin aşağıda söylədiyi bu fikri Züleyxa fikrinə şamil etmək olar.C.Cabbarlı yaradıcılığında şillerçilikdən, obrazların şüarçılığından danışarkən tədqiqatçılar əksər halda bir şeyə diqqəti cəlb edirdilər ki, Gülüş, Almaz və Gülsabah dramaturqun ideya ruporuna çevrilib müəyyən dərəcədə şüarçılığa meyl etdiklərinə görə bir qədər süni təsir bağışlayır."(19 ,147)

Firuzə yeni məzmunlu, yeni mənalı Azərbaycan qadının parlaq obrazına çevrilmişdi.Əsərdə təsvir olunan obrazlardan biri də Züleyxadır. O, təhsilli, müasir düşüncəli, sərbəst qadındır. Sənətkarlar yaradıcılığında və təsvir etdikləri obrazların mahiyyətində yaşayıb-yaratdığı dövrün  dini, əxlaqi, tarixi, fəlsəfi çalarlarını əks etdirirlər. Böyük  yaradıcılıq qüdrətinə malik olan sənətkar həm dramlarında, həm də nəsr əsərlərində dövrün nəbzini tuta bilir, ictimai həyatın naqisliklərini tənqid edə bilir, tamaşaçı və oxucuların diqqətini bu mövzuya yönəltmək də çətinlik çəkmir. C.Cabbarlının yaradıcılığı həyatla, xalqla sıx bağlıdır. Ədib mövzu seçərkən  dövrün böyük ictimai-siyasi əhəmiyyətinə, geniş, mütərəqqi məzmuna malik problemləri işıqlandırırdı.Yazıçı böyük fədakarlıq göstərib sovet cəmiyyətinin qüsurlarını ifşa edib.Böyüklərin yanında Aslanın dediyi kimi "Yad kişi ilə öpüşmək həm də kənar adamların yanında" heç də azərbaycanlı qıza yaraşan hərəkət deyildi. Cabbarlı Züleyxanın nitqində "Qardaşım o sənin işin deyil. Bu nə köhnəpərəstlikdir? Harada, haçan kimə ərə getmək istəsəm gedərəm" sözləri ilə sovet cəmiyyətinin qadınlara vermiş olduğu azadlığa gülür və mövcud dövrə öz nifrətini bildirirdi.Yazıçı bu qadın obrazların əslində Azərbaycan ailəsinə yaraşmadığını vurğulamağa çalışmışdır. Əlbəttə sovet dövründə bu əsərlər tamam başqa cür təhlil olunmuş, qiymətləndirilmişdir. Beləki

tədqiqatçılar bu obrazı azad və sərbəst sovet qadını adlandırıb,onun C.Cabbarlı yaradıcılığında görkəmli yer tutduğunu qey edirdilər.

C.Cabbarlının bədii kamilliyinə görə seçilən əsərlərindən biri də "Aslan və Fərhad" hekayəsidir.Yazıçının bu hekayəsində kapitalist münasibətlərin tənqidi, pulun insan əxlaqına pozucu təsiri əks olunub. Hekayədə həmçinin bir-birindən tamamilə fərqli iki qadın obrazı diqqət cəlb edir. Züleyxa pak, nəcib,sadəlövh bir qızdır.Onun simasında nasir Azərbaycan qadınlarının bir qisminin faciəsini əks etdirir.O, qardaşlarının maddi imkanı yaxşı olmadığından onlara yük olmamaq üçün ərinin etdiyi bütün zülmlərə dözür. Bir ana kimi oğlu Kamilə ən gözəl xüsusiyyətləri aşılayır.

Yazıçı Züleyxanın Əsgər tərifindən incidildiyini təsvir etməklə qadınların hansı zillətlərlə qarşılaşdığını göstərir. Əsgər atasının pulunu xərcləməkdən başqa heç bir iş görmür nə atasının sağlığında, nə də sonra ailəsinin qayğısına qalmırdı.Hətta atasının hörmətini qazanan Aslana həsəd aparırdı. Hacı Saleh isə mərhəmətli insan idi. O, Aslanı işlə təmin etdi, onun bacı və qardaşına əlindən gələni əsirgəmədi.

Züleyxanın üzləşdiyi həyat tərzi , minlərlə Azərbaycan qadınlarının acınacaqlı yaşam tərzi idi.Yetim, kasıb ailədən olan bu qadınlar heç vaxt ərlərinin etdiyi zülmlərə öz etirazlarını bildirə bilməzdilər. Çünki onları müdafiə edəcək, onlara həyan olacaq dayaqları yox idi. Doğrudur, sonradan Fərhadın yaxşı imkanı olsa da o, bacısı Züleyxanın onlarda qalmasına razı olmur. Fərhad bacısına bir insan kimi qiymət verə bilmir,onun əzablarını basa düşmür. Bir qadın, bir bacı, bir ana kimi onu dəyərləndirmədiyindən necə onun dərdinə şərik olub, arxa ola bilər,bu məşəqqətlərdən uzaqlaşdırmaq üçün evinə gətirərək onun övladına himayədar ola bilərdimi?

Züleyxadan fərqli olaraq Gülzar başqa həyat yolu seçir. O da sevmədən Aslan ilə ailə qursa da,Fərhadın gözəlliyi onun daim məftun edir.Aslan kimi saf bir insanın arvadı olan Gülzarın bu yolu seçməsinə səbəb nə idi? Hər ikisi Aslana xəyanət edir.Nə üçün C.Cabbarlı Züleyxa kimi təmiz, müti bir qadının tam əksi olan Gülzarın obrazını yaratdı?Bu onunla izah olunur ki,Gülzar kapitalist mühitinin yetirməsidir.Sadə bir ailədən olan Gülzar hər iki qardaşın aldığı yüksək məvaciblə

qayğısız yaşayır, həmişə yeni, gözəl paltarlar geyinir, qulluqçularla əhatə olunurdu. O, Züleyxanın qarşılaşdığı məşəqqətlərlə üzləşmir. C.Cabbarı Gülzar obrazını yaratmaqla bildirir ki, heç də bütün qadınlar müti , sadəlövh, dilsiz qul deyillər.

Avam, itaətkar qadınlardan fərqli olaraq Gülzar həyatdan həzz almağı sevən qadındır.Eşq düşkünü olan bu qadın, hətta, onu yaşadığı eşq macərasından məhrum etmək istəyən ərini kor etməkdən belə çəkinmir. Züleyxanın ölümünə belə fitva verərək onların həyatlarının puç olmasına bais olur.Düzdü, o bu əməllərinin cəzasını çəkir, Fərhad tərəfindən öldürülür.

Fəqət bu ölüm bədbəxtliyinə, məhvinə səbəb olmuş neçə-neçə insanın həyata qayıtmasına, o sakit həyatı yenidən yaşamasına kömək edə bilməzdi. Gülzarın ölümü Züleyxanın ölümündən fərqlidir. Züleyxa bədbəxt taleli bir qadın kimi öz ölümü ilə nə qədər ucalırsa, Gülzarın ölümü də bir o qədər nifrətə layiq görülür. Bununla da C.Cabbarlı cəmiyyətin bu tipli qadınlardan heç də xali olmadığını göstərir. C.Cabbarlının yaradıcılığında Gülzarın xələfləri yetişəcək.Yazıçı Züleyxanın talesizliyini ürək ağrısı ilə göstərir,onlara rəğbət bəsləyir, digər tərəfdən yüngül həyat tərzinə üstünlük verən Gülzarları düzgün, əxlaqlı, mənəviyyatlı yola səsləyir. Onların əxlaqının Azərbaycan mentalitetinə yabançı olduğunu qeyd edir. Gülzarın ailəsi də onun bu əməlini qınayır, qardaşları ailəsi ondan üz çevirir.

Əsərdə təsvir olunan obrazlardan biri də Kamildir. Kamil uşaqlıqdan anasından ayrı düşməyə məcbur olur, gənc yaşlarında anasını itirir. Yazıçı bu obrazda azərbaycanlı gənclərin müsbət xüsusiyyətlərini cəmləşdirmişdir.Hekayədə Züleyxanın oğlu Kamil də anası və dayısı Aslan kimi xeyirxah və ədalətli insandır. Onun belə nəcib xüsusiyyətləri anasının xoş əxlaqı, tərbiyəsi ilə yaranmışdır. Yazıçı Züleyxanın simasında göstərir ki, Azərbaycan qadımları qadınlar ailələrinə sədaqətlidir, övladlarına, onların tərbiyəsinə diqqətlə yanaşırlar, onları pis əməllərdən çəkindirib, yaxşı xüsusiyyətlər aşılayırdılar. Züleyxa oğlu Kamilə belə bir münasibətdə olub. C.Cabbarlı yeni nəslin tərbiyəsində ananın böyük rolu olduğunu dəfələrlə qeyd etmişdi. Ədibin gənc nəslə ümidi böyük idi. Bu gəncləri

isə analar tərbiyə edir. Kamilin doğru bir şəxsiyyət kimi yetişməsində də anası Züleyxanın rolu böyük olub.

Hekayənin sonunda müəllif Fərhadın əməllərindən peşman olduğunu göstərir. Son anda bacısını və qardaşını yad edib onlardan əfv diləyir. Əsərin sonunda müəllifin Fərhadı məhkəmədə ədalət qarşısında təsvir etməsi təsadüfi deyil. Bununla yazıçı bir gün hər kəsin törətdiyi əmələ görə cavab verəcəyini vurğulayır. Heç bir pislik zülm cavabsız qalmayacaq. "Aslan və Fərhad" hekayəsi yazıçının yaradıcılığında ailə münasibətlərini, xeyir və şəri əks etdirməsi, təhsillə yanaşı ,vicdanın da əhəmiyyətli olduğunu göstərən əsərdir. Bu hekayədə yazıçı bizə nəfsinə qul olan insanların düşdüyü vəziyyətlərin acı nəticələrini göstərir. Nəzərə alsaq ki, C.Cabbarlının ilk hekayələrində mənfi qəhrəmanlar öz cinayətlərinin cəzasını çəkir və xeyir şər üzərində qələbə çalır. Qəhrəmanların bəziləri pis əməllərinə görə peşman olur, vicdan əzabı çəkirlər. "Aslan və Fərhad" hekayəsi də ədibin yaradıcılığının birinci dövrünə aiddir. Əsərin sonunda Fərhadın səhvini başa düşməsi, əməllərindən peşman olması məhz yuxarıda izah etdiyimiz səbəblərlə əlaqədardır. Təsadüfi deyil ki, Fərhadı öz vicdanı, peşmançılığı məhv edir.

C.Cabbarlı yaradıcılığının ilk dövrü üçün xarakterik olan mühitdən və zamanədən şikayət, giley, bədbin əhvali-ruhiyyə, haqsızlığın və ədalətsizliyin baş alıb getdiyi bir ölkədə milləti oyanışa çağırış hekayələrində də öz əksini tapmışdır. O, əsərlərində yalnız problemlərə toxunmur,onun həlli yollarını da göstərirdi.Böyük sənətkarın yaradıcılığında qadın emansipasiyasına yer verməsi, bu işin öncülərindən olması yaratdığı obrazlarla inqilab yartması əsrlər keçsə də unudulmayacaq, yaradıcılığı həmişəyaşar olacaq.

C.Cabbarlının hekayələrində qadınlar əsasən öz mütiliyi, dövrana, taleyə boyun əyməyi, fəqir və biçarəliyi, öz sevgisinə qovuşmamağı ilə diqqəti cəlb edir. Lakin bu həmişə belə olmamışdır, zəmanəsində baş verən hadisələr onun yaradıcılığına da təsir edir. C.Cabbarlının 1917-1920 ci illərdə yaratdığı qadın surətləri qəhrəman, cəsarətli, sevgi, məhəbbət naminə canından keçməyə hazır olan mərd, mübariz qadınlardır. Göründüyü kimi C.Cabbarlı Azərbaycanın inkişaf tarixindəki müxtəlif hadisələrdən çıxış edərək rəngarəng xarakterli qadın obrazları yaratmış,

onların simasında Azərbaycan xanımlarına xas ən gözəl keyfiyyətləri göstərməyə çalışmışdır. 1917-1920 ci illər dahi dramaturqun yaradıcılığında xüsusi bir mərhələ təşkil edirdi. Azərbaycan xalq Cumhuriyyətinin yaranması, onun həyata keçirdiyi mütərəqqi quruculuq işləri bir sənətkar kimi onun da yaradıcılığına müsbət təsir etmişdir. Bu illərdə Azərbaycanın təhsil görmüş, mədəni həyata qoşulmuş ilk ictimaiyyətçi, inqilabçı qadınları milli azadlıq hərəkatında , yeni cəmiyyət quruculuğu uğrunda mübarizədə getdikcə fəal iştirak etmişdir. Hətta bu illərdə yazdığı “Trablis müharibəsi, yaxud Ulduz” və “Ədirnə fəthi” pyesləri sonralar sovet dövründə nəşr olunan kitablara salınmamış, tədqiqata cəlb olunmamışdır. Lakin sonralar C.Cabbarlı irsinə münasibət dəyişdi, bu sahədə Rəhim Əliyev və Asif Rüstəmlinin tədqiqatları cabbarlışünaslıqda yeni bir mərhələ kimi dəyərləndirilir.

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ ADU AZERBAIJAN UNIVERSITY OF LANGUAGES АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

# NƏTİCƏ

Azərbaycan dramaturqu, şairi və nasiri, teatrşünas, kinoşünas, tərcüməçi, kinossenarist, jurnalist, aktyor, rejissor, əməkdar incəsənət xadimi olan Cəfər Cabbarlı Azərbaycan ədəbiyyatının unudulmaz simalarından biridir. 1915 -ci ildən lirik və satirik şeirlər, hekayə və dram əsərləri yazmağa başlamışdır. Cəmi iyirmi ilə yaxın yaradıcılıq yolu keçmişdir. Buna baxmayaraq ədibin yaradıcılığı mövzu etibarilə zəngindir. Cabbarlının yaradıcılığı zaman etibarilə çox davam etməsə də, siyasi-ictimai cəhətdən çox əhəmiyyətli bir dövrü, 1915-1934 -cü illər arasındakı iyirmi illik bir tarixi mərhələni əhatə edir. Çox mühüm ictimai-siyasi hadisələrlə dolu olan bu tarixi dövrü nəzərdə tutaraq deyə bilərik ki, Cabbarlının ədəbi fəaliyyəti Azərbaycanda, xüsusən Bakıda kapitalizm münasibətlərinin sürətlə inkişaf etdiyi burjua və mülkədar Azərbaycanının fəhlə-kəndli Sovet Respublikasına çevrildiyi illərdə keçmişdir. Cabbarlının böyük yaradıcılıq yolu çətin və ziddiyyətli olsa da, əsasən, yüksəliş və tərəqqi yolu olmuşdur. O, dram əsərləri ilə böyük şöhrət qazanmış, əsərləri uzun illər teatr repertuarından düşməmişdir.Onun Azərbaycan teatr, kino sənətinin inkişafında böyük xidməti olmuşdur. Cəfər Cabbarlı öz yaradıcılığında Azərbaycan klassik dramaturgiyasının ən gözəl cəhətlərini davam etdirməklə bərabər dünya dramaturgiyasının da nailiyyətlərindən faydalanıb. O, Azərbaycan dramaturgiyasında sosial realizmin banisi sayılır. Klassik Azərbaycan dramaturgiyasının ən yaxşı ənənələrinə sadiq qalan Cabbarlı eyni zamanda özünəməxsus bir səpgisi, orijinal xüsusiyyəti olan, ədəbiyyata yeni mövzular, obrazlar və ideyalar gətirən bir ədib kimi meydana çıxır. Bu pyeslərin ən qiymətli cəhəti mənfəət düşgünlərinin qəddar, qaba və nadan adamlar olduğunu ifşa etməsidir.

Azərbaycan demokratik-realist klassik ədəbiyyatına, zəngin xalq yaradıcılığına əsaslanan Cabbarlı, başlıca olaraq, Mirzə Fətəli Axundov realizmindən qidalanırdı. Mirzə Fətəli Axundovun maarifçi-demokratik fikirlərini, həyatla dərindən bağlı olan realizmini Cabbarlı ümumiyyətlə Azərbaycan ədəbiyyatı üçün, xüsusən özü üçün ən düzgün bir yaradıcılıq yolu hesab edirdi. Cabbarlının əsaslandığı realizm

xalq həyatı ilə, Azərbaycan zəhmətkeşlərinin azad və gözəl həyat haqqındakı arzuları ilə, xalqın irəliyə, işığa və sədaqətə doğru coşqun meylləri ilə bağlı idi.

Ədibin yaradıcılığının son dövrlərdəki araşdırmaları əsasında məlum olub ki, onun ilk mətbu əsəri 1911-ci ildə "Həqiqəti-əfkar" qəzetinin 2-ci sayında işıq üzü görən "Eşidənlərə" və "Şücaətim" adlı şeirləri olmuşdur. 1915- ci ildən isə mətbuatda davamlı və mütəmadi olaraq çıxış etmişdir. C.Cabbarlı yaradıcılığa şeirlə başlasa da, ən gözəl əsərlərini dramaturgiya janrında yazmış və Azərbaycanın görkəmli dramaturqu və teatr xadimi kimi tanınmışdır. Xalqın tərəqqisinin ana xəttini mədəniyyətin, teatrın inkişafında görən sənətkar bir-birinin ardınca gözəl səhnə əsərləri yaratmış, eyni zamanda incəsənətin müxtəlif sahələrində də fəaliyyət göstərmişdir.

Mürəkkəb ictimai-siyasi hadisələrlə zəngin olan1920-1930-cu illər Azərbaycan xalqının həm siyasi, həm də ədəbi tarixində xüsusi mərhələ təşkil edir. Bolşevik hakimiyyəti, sovet rejimi, kolxoz quruculuğu, elliklə kollektivləşmə kimi mürəkkəb hadisələrlə xarakterizə olunan bu dövrün həqiqətlərini əks etdirən tarixi sənədlər, ədəbiyyat nümunələri çoxdur. Cəfər Cabbarlı mürəkkəb tarixi dövrün bütün cəhətlərini həm qaranlıq, həm də işıqlı tərəflərini bizə göstərirdi. Tədqiqat işinin birinci fəslində ədibin yaradıcılığında həmin ziddiyyətli, keşməkeşli dövrün təsvirinə yer verilib.

Dissertasiyanın ikinci fəsli məhz ədibin yaradıcılığındakı xüsusilə, hekayələrindəki qadın obrazları geniş planda təhlil olunur. Bu hekayələr XX əsr Azərbaycan qadınlarının həyat tərzini, dünyagörüşünü, ailədə, cəmiyyətdəki rolunu əks etdirir. C.Cabbarlı Azərbaycan qadınını daha da irəlilərdə görmək istəyir, onlara stimul verəcək obrazlar yaradırdı. Bu fəsildə yazıçının "Gülzar", "Dilbər" , "Dilarə" ,"Aslan və Fərhad" , "Firuzə" hekayələrindəki qadın obrazları təhlilə cəlb edilir. Cəmiyyətdəki ictimai, siyasi, məişət problemləri qadın obrazları vasitəsilə aydınlaşdırılır.

Cəfər Cabbarlı teatra böyük qiymət verir və onun başlıca rolunu xalqa xidmətdə görürdü. Bütün həyatını teatrla bağlamasına baxmayaraq dramaturq incəsənətin vacib sahələrindən biri olan kinoya da çox böyük əhəmiyyət verir, Azərbaycan

milli kinosunun yaranması və inkişafı üçün əlindən gələni əsirgəmirdi. İstər dram əsərlərində, istərsə də hekayələrində bu mövzunun aktuallığını görürük. Azərbaycan milli kinosunun yaranmasında, bu sahədə milli kadrların yetişdirilməsində, kino işinin yeni, milli əsaslar üzərində qurulmasında Cabbarlının xidmətləri əvəzsizdir. Ssenariləri ilə də C.Cabbarlı kino sənətinə töhvələr vermişdir. “Sevil” filmi məhz onun ssenarisi əsasında çəkilmişdir. C.Cabbarlı öz qəhrəmanının ekranda surətini canlandıracaq aktrisanı tapmaq üçün Bakının küçələrinə düşüb qapı-qapı gəzərək evlərdə, idarələrdə, ali məktəblərdə azərbaycanlı qız axtarırdı. O, istəyirdi ki, filmdə Sevili mütləq azəri qızı oynasın. O, bu arzusuna da özünə məxsus bir inadkarlıqla nail olmuşdu. Hətta başına qəribə macəralar da gəlmişdi. Bu axtarış zamanı aldığı təəssürat əsasında "Gülər" hekayəsini yazmışdı.

Yaradıcılığında realizm, romantizmlə yanaşı böyük sənətkar sentimentalizm cərəyanına da yer vermişdir. Sentimentalizmin ideya-fəlsəfi əsasını insana ,təbiətə, cəmiyyətə sensualist baxış təşkil edir. Sentimentalizmə görə insanın iç aləminin, qəlbinin dialektikasınının, onun hiss və duyğularının açılmasına meyl daha güclüdür. Bu baxımdan yanaşsaq insan qəlbinin təsvirinə, şəxsi taleyinə, fərdi aləminə həssaslıq göstərilməsi onun psixoloji aləminin açılması Azərbaycan yazıçı və şairlərinin əsərlərində həmişə əsas yer tutmuşdur. Düzdür, sentimentalizm Azərbaycan ədəbiyyatında realizm və romantizm kimi böyük bir dövrü əks etdirmir, ardıcıl surətdə inkişaf edən sistemli bir cərəyan olmamışdır. Lakin bu elmi həqiqətdir ki, Azərbaycan ədəbiyyatında sentimentalizmin üslub və pafos, daha geniş anlamda ədəbi cərəyandır. C.Cabbarlının yaradıcılığında “Vəfalı Səriyyə, yaxud göz yaşı içində gülüş”(1915), “Solğun çiçəklər” pyeslərində, “Aslan və Fərhad”, “Mənsur və Sitarə”, “Əhməd və Qumru”, “Gülzar” hekayələrində sentimentalizm ünsürlərini görmək olar. Bu hekayələrdən “Aslan və Fərhad”, “Mənsur və Sitarə” də hadisələr məhəbbət xətti üzərində qurulmuşdur. Hər cür əzaba qatlaşıb qardaşı Fərhadı böyüdən savadlandıran Aslanın saflığı müqabilində xəyanət görməsi, sevgilisi Mənsuru atıb sərvəti bol Həsənlə ailə quran Sitarənin hərəkətləri burjua cəmiyyətinin iç üzünü açmağa xidmət edir. Hər iki

hekayədə qəhrəmanlar öz hərəkətlərinə görə peşman olur. Günahsız qurbanların ardınca Fərhad öldüyü kimi, Sitarə də intihara əl atır.Yazıçı bu hekayələrdə Aslan, bacısı Züleyxa, Mənsur surətlərini yaratmaqla onların təmiz hissiyyatını diqqət mərkəzində saxlayır, həmçinin Fərhad və Sitarənin keçirdiyi narahat ovqatı, sarsıntıları sənətkarlıqla canlandırır. C.Cabbarlının yaradıcılığında sentimentalizmdən bəhs olunan da "Vəfalı Səriyyə yaxud göz yaşı içində gülüş"(1915), "Solğun çiçəklər" (1917) pyeslərinin təhlilinə daha çox yer verilir.

Dissertasiyanın birinci fəsli C.Cabbarlı yaradıcılığında sentimentalizmə həsr olunub. Bu fəsildə sentimentalizm haqqında T.Əfəndiyevin, B.Babazadənin tədqiqatlarına yer verilmişdir. Ədibin hekayələrində sentimentalizm ünsürləri aşkarlanmış "Mənsur və Sitarə" hekayəsi xüsusi tədqiqata cəlb edilmişdir. Eyni zamanda, bu fəsldə fəal\interaktiv təlim metodlarının izahı, ənənəvi təlimlə fəal\interaktiv təlimin müqayisəsi verilmiş, "Mənsur və Sitarə" hekayəsinin fəal təlim üsulları ilə tədrisi təqdim olunmuşdur.

" Cəfər Cabbarlının "Müfəttiş","Aslan və Fərhad", "Çocuq" hekayələrinin tədrisində fəal təlim texnologiyalarının tətbiqi" adlı ikinci fəsildə ədibin "Müfəttiş", "Çocuq", "Qara Qənbər", "Parapetdən Şamaxı yoluna qədər", "Altun heykəl" , "Əhməd və Qumru" ,"Papaq", "Aslan və Fərhad" hekayələri təhlil süzgəcindən keçirilir. Hekayələrin ideyası, obrazlar aləmi, müəllifin qayəsi aşkar edilir. "Müfəttiş","Aslan və Fərhad", "Çocuq" hekayələrinin tədrisində fəal təlim texnologiyaları tətbiq olunur.

Qadın azadlığı C.Cabbarlı yaradıcılğının əsas mövzularından biri idi. Onun bu mövzuya həsr olunmuş şeirləri, dramları, hekayələri ədəbiyyatımızın ən gözəl nümunələrindəndir. Yazıçının hekayələrinin əksəriyyəti Azərbaycan qadınının bədbəxt taleyinə həsr edilmişdir. Lakin yazıçı Azərbaycan qadınlarını donmuş bir vəziyyətdə yox, daim inkişafda təsvir etmişdir. Onlar get-gedə şüurlanır, insanlıq ləyaqətlərini dərk edirlər. Cabbarlının qadın surətləri passiv etirazdan başlayaraq fəal etiraza, ictimai mübarizəyə qədər yüksəlirlər. Qadın azadlığı hərəkatında mətbuatın və bədii ədəbiyyatın üzərinə mühüm vəzifə düşürdü. C.Cabbarlı həm

ədəbiyyatın, həm də mətbuatın imkanlarından istifadə edir, bu mövzuda əks-səda doğuran əsərlər yazırdı.

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ
ADU
AZERBAIJAN UNIVERSITY OF LANGUAGES
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Abdulla A. Qadın və onun azadlığı. Mövqe qəzeti. 2011, 17 iyun
2. Arif M. Cəfər Cabbarlının yaradıcılıq yolu. Bakı, 1968(s.92,130-215)
3. Aslanova N. Amerika və Azərbaycan romantizmində şəxsiyyət konsepsiyası: Heman Menvill və Cəfər Cabbarlının yaradıcılığı əsasında. Bakı, 2014(s.5-11,34-62)
4. Babazadə B. Azərbaycan sentimentalizmi. Bakı, 2003(s.28-32,78-84)
5. Cabbarlı C. Seçilmiş əsərləri. I cild. Bakı, Şərq- Qərb, 2005(s.228-257)
6. Cansail Y. Dramatik həyatlı böyük dramaturq Cəfər Cabbarlı. Mədəniyyət qəzeti, 2009, 1 may
7. Əfəndiyev T. Azərbaycan dramaturqiyasında metodlar. Bakı, Elm, 2002 (s.398-411)
8. Əhmədov R. Azərbaycan dramaturqiyası ideallıqla reallığın vəhdəti (H.Cavid, C.Cabbarlı S.Vurğun pyeslərində). Bakı, 2009(s.3-17)
9. Əhmədov R. Cəfər Cabbarlının dramaturqiyası. Bakı, 1994(s.22-27)
10. Əhmədov R. Azərbaycan dram janrı poetikası H.Cavid, C.Cabbarlı, S.Vurğun pyesləri əsasında. Bakı, 2009(s.12,17,18)
11. Əhmədov T. Böyük sənət bahadırı. Bakı, Nurlan, 2001(s.27-32)
12. Əliyev R. C.Cabbarlının yaradıcılıq təkamülü. Bakı, Yazıçı, 1989(s.3-24)
13. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. Bakı, 2008(s.32-45)
14. Əliyev R. C. Cabbarlı yaradıcılğı təkamülü: metod, üslub, janr. Bakı, 1989 (s.23-57)

**15.** Əliyev R. Çadra və azadlıq. 525. qəzet. 2010. 8 oktyabr

**16.** Hacıyeva M. Sevil zamanın səsidir. Ədəbiyyat qəzeti, 2009, 22 may

**17.** Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı, Müəllim, 2011

**18.** Həsənova M. C.Cabbarlı əsərlərinin sosial- psixoloji təhlili və onların şagird şəxsiyyətinin formalaşmasında rolu. Bakı, 2009(s.34-44)

**19.** Həsənova R. XIX əsrin sonu, XX əsrin əvvəllərində bədii ədəbiyyatda qadın problemi: H.İbsen, C.Cabbarlı yaradıcılığı əsasında . Bakı, 2010(s.92-147)

**20.** Həsənova R. C.Cabbarlı yaradıcılığında qadın surətləri müasir baxış prizmasında. Elmi xəbərlər, Bakı, ADU, 2007, №4

**21.** Həsənova R. C.Cabbarlının Sovet hakimiyyəti illərində yazdığı hekayələrində qadın problemi. Elmi xəbərlər, Bakı, ADU, 2007, №5

**22.** Hüseynoğlu S. Yazıçılar Birliyində: C.Cabbarlı. Ədəbiyyat qəzeti. 2008,5 dekabr, səh. 5

**23.** Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: Fəal/ interaktiv təlim (müəllimlər üçün vəsait). Bakı, 2009(s.7-180)

**24.** Kərimli X. C.Cabbarlı irsinə yeni baxış. 525. qəzet, 2010, 23 sentyabr, səh 7

**25.** Kurikulum jurnalı. 2012, №4

**26.** Qarayev Y. Tarix : yaxından və uzaqdan, Bakı, Sabah,1986(s.12-15)

**27.** Qədirova A. C.Cabbarlı dramaturqiyasında romantik qəhrəman problemi. Bakı, 2010(s.50-58)

**28.** Qəmbərova M. C.Cabbarlı. Ədəbiyyat qəzeti. 2014, 19 sentyabr, səh. 2

**29.** Məmmədova Ə. İngilis və Azərbaycan dramaturqiyasında sosial problemin qoyuluşu. Bakı, 2008(s.99)

**30.** Məmmədov S. C.Cabbarlı yaradıcılığında təlim- tərbiyə məsələləri ümumtəhsil məktəblərində onlardan istifadə imkanları. Bakı, 2009(38-88)

**31.** Məsimov T. C.Cabbarlı yaradıcılığı milli dəyərlər xəzinəsidir. Azərbaycan qəzeti. 2014, 9 avqust, səh. 7

**32.** Mövsümova L. Azərbaycan qadını uzaq keçmişdən indiyədək. Bakı, Ulu, 2002

**33.** Müasir Azərbaycan ədəbiyyatı. I cild, Bakı Universiteti Nəşriyyatı, 2007(s.52-93)

**34.** Nəzərov A. Müasir təlim texnologiyaları (mühazirə xülasələri). Bakı, 2012(s.10-116)

**35.** Rüstəmli A. C.Cabbarlı ədəbi- mədəni mühit. Bakı, 2010(s.3-117)

**36.** Rüstəmli A. C.Cabbarlı həyatı və mühiti. Bakı. Elm. 2009(s.7-29)

**37.** Səfərov M. C.Cabbarlı yaradıcılığında məktəb və müəllim. Bakı, 1994(s.8-40)

**38.** Veysova Z. Fəal/ interaktiv təlim (müəllimlər üçün vəsait). Unicef, 2007(s.5-39)

**39.** Yusifov F. ədəbiyyatın tədrisi metodikası. Bakı, 2010(s.3-232)

**40.** Yusifov F. ədəbiyyatın tədrisi metodikası. Bakı, 2014.(s.200-245)

**İnternet resursları**:

**41**.www.asifrustemli.com

**42**.az.wikipediya.org

**43.**kulis.lent.az